# Xalq qəzeti

Xalqın qəzeti!

№ 90 (31059) 22 may 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Azərbaycan və Fransa prezidentlərinin telefon danışığı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub.**

**Bu barədə Prezidentin X sosial media hesabındakı paylaşımda deyilir: *“Bu gün Prezident Emmanuel Makrondan (@EmmanuelMacron) telefon zəngi aldım. Telefon danışığı zamanı Azərbaycan–Fransa ikitərəfli münasibətlərinin gündəliyində duran məsələləri nəzərdən keçirdik və qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi apardıq.***

***Biz, həmçinin regional və qlobal prosesləri müzakirə etdik”.***

# Azərbaycan Hökuməti və BMT Məskunlaşma Proqramı vahid komanda nümunəsi göstərir

## Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də BMT Baş katibinin müavini Amina Mohammedi qəbul edib.**

Dövlətimizin başçısı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının keçirilməsi ilə bağlı göstərdiyi dəstəyə görə BMT rəhbərliyinə minnətdarlığını bildirdi, tədbirin uğurlu olması üçün Azərbaycan Hökumətinin və BMT-nin Məskunlaşma Proqramının bir komanda kimi fəaliyyət göstərdiyini dedi.

WUF13-ün COP29-dan sonra iştirakçı sayına görə ölkəmizdə keçirilən ikinci mühüm qlobal tədbir olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev COP29 kimi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının da uğurla təşkil edildiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini deyərək, ölkəmizin gələcəkdə də bu Proqramla tərəfdaşlığını davam etdirəcəyini və Ümumdünya Şəhərsalma Forumunun digər sessiyalarının işində də fəal olacağını bildirdi.

Amina Mohammed BMT-nin Baş katibi Antonio Quterreşin salamlarını dövlətimizin başçısına çatdırdı.

Salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi.

WUF13-ün uğurla keçdiyini deyən Amina Mohammed bununla bağlı dövlətimizin başçısını təbrik etdi. O, bu tədbirdə dünyanın müxtəlif ölkələrindən çox sayda yüksəksəviyyəli qonağın iştirak etməsinin dərin təəssürat hissi yaratdığını bildirdi.

Amina Mohammed Bakıda müasir şəhərsalma qaydaları tətbiq olunmaqla tarixi irslə müasirliyin vəhdətinin təmin edildiyini məmnunluqla vurğuladı və bildirdi ki, bu, paytaxtımıza xüsusi gözəllik verir.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə postmünaqişə şəraitində həyata keçirdiyi bərpa və quruculuq işlərinin postmünaqişə vəziyyətindəki regionlar üçün bir nümunə olduğu bildirildi və bu xüsusda ölkəmizin təcrübəsinin BMT çərçivəsində digər ölkələrlə bölüşməsinin faydalı olacağı vurğulandı.

Azərbaycanın “ASAN xidmət” modelinin BMT-nin dövlət xidmətləri mükafatına, həmçinin BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görüldüyü xatırlandı, “ASAN xidmət”in uğurlu təcrübə kimi Afrika və Asiyanın müxtəlif ölkələrində tətbiq olunduğu qeyd edildi.

Söhbət zamanı Azərbaycanla BMT arasında uzun illərdir uğurlu əməkdaşlığın həyata keçirildiyi və ölkəmizin bu təşkilatın fəal üzvü olduğu, onun proqram və tədbirlərinin icrasına mühüm töhfələr verdiyi vurğulandı. İndiyədək BMT-nin müxtəlif mövzulara aid beynəlxalq tədbirlərinin Azərbaycanda yüksək səviyyədə təşkil olunması məmnunluqla xatırlandı.

***AZƏRTAC***

## İrəvana “gül təzyiqi”



Səhifə ⇨ 6

## Bakı – Ər-Riyad “yaşıl enerji” əməkdaşlığı



Səhifə ⇨ 8

## Azərbaycan çayının dünya şöhrəti



Səhifə ⇨ 8

## Ümumdünya Şəhərsalma Forumunun 5-ci günündə sessiya və təqdimatlar



Səhifə ⇨ 7

## Hörmüzdə ümidlərə açılan atəşlər



Səhifə ⇨ 11

## “Xalq qəzeti”nin WUF13 müsahibləri



Səhifə ⇨ 4 və 9

## Fiziki qüsurlu insanlara əlçatan yaşam şəraiti!



Səhifə ⇨ 4

## Azad Qarabağ ölkənin tunellər, körpülər məkanına çevrilib



Səhifə ⇨ 10

## Şərqi Almaniyanın etiraz səsi Berlini silkələyir

Alternative für Deutschland

Səhifə ⇨ 5

## Rusiya XİN-in “The Insider” qəzəbi



Səhifə ⇨ 5

## Paşinyanın kəskin ritorikası və Ermənistan üçün Qarabağ amili



Səhifə ⇨ 6

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Müstəqillik Günü münasibətilə həyat yoldaşım və mən Zati-alinizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gün xalqlarımız arasındakı davamlı dostluq barədə düşünmək üçün dəyərli fürsətdir. İkitərəfli əlaqələrimizin möhkəmliyini yüksək qiymətləndirir və qarşıdakı illərdə əməkdaşlığımızın daha da genişləndirilməsinə sadiq qaldığımı bildirirəm.

Dövrümüzün ortaq çağırışları, xüsusilə iqlim dəyişikliyi və ətraf mühitimizin qorunması ilə bağlı məsələlərlə üzləşdiyimiz bir vaxtda ölkələrimizin təsirli və uzunmüddətli həllər naminə birgə fəaliyyətini davam etdirəcəyinə ümidvaram.

Həyat yoldaşım və mən qarşıdakı dövrdə sülh, firavanlıq, rifah diləyi ilə Sizə və bütün azərbaycanlılara ən səmimi salamlarımızı göndəririk.

**Hörmətlə,**

***Əlahəzrət III ÇARLZ,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kralı***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

**Möhtərəm Prezident, əziz Qardaşım!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına daha da çox inkişaf və firavanlıq arzu edirəm.

**Zati-alinizə hörmət və ehtiramla Qardaşınız,**

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı***

***

**Zati-aliləri cənab Prezident!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bu əlamətdar günü Sizinlə birlikdə qeyd edərkən, Misir və Azərbaycan arasında mövcud olan dostluq münasibətlərini yüksək qiymətləndirirəm. Eyni zamanda, dost xalqlarımızın mənafeyinə uyğun olaraq ortaq maraq doğuran müxtəlif sahələrdə əlaqələrimizin daha da dərinləşdirilməsi və genişləndirilməsi istiqamətində Sizinlə sıx əməkdaşlıq etməyə sadiq qaldığımı bir daha təsdiqləyirəm.

Hörmətli cənab Prezident, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

**Ən yüksək ehtiramla və dərin hörmətlə,**

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

İcazə verin, Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi çatdırım.

Çex Respublikası Azərbaycan Respublikası ilə münasibətlərini yüksək qiymətləndirir və əməkdaşlığı daha da möhkəmləndirməkdə maraqlı olduğunu bir daha təsdiqləyir. Ölkələrimiz arasında enerji, sənaye, ticarət, investisiya, elm və təhsil sahələrində davamlı inkişaf edən əlaqələri yüksək qiymətləndiririk və tərəfdaşlığımızın hər iki ölkə üçün faydalı olacağına əminik. Biz, həmçinin Azərbaycanın daha geniş regionda sabitliyə və əməkdaşlığa töhfə verən tərəfdaş kimi mühüm rolunu yüksək dəyərləndiririk.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, uğurlar, Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident.**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi, xalqınıza tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Xorvatiya ilə Azərbaycanı çoxillik əməkdaşlıq və dostluq əlaqələri bağlayır. Əminəm ki, dost ölkələrimizin münasibətlərinin inkişafı və yeni istiqamətlərdə əməkdaşlığın həyata keçirilməsi ilə bağlı fəaliyyətimiz davam edəcəkdir. Hər iki ölkənin iqtisadi imkanları əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün stimul ola bilər.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə dinamik inkişafını davam etdirir və dünya birliyində layiqli yer tutub.

Tam əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləri qardaş xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və rifah, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

***

**Zati-aliləri, əziz Qardaşım!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə böyük məmnunluq hissi ilə ən səmimi təbriklərimi çatdırır, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza daha çox tərəqqi və firavanlıq arzulayıram.

Mərakeş Krallığı ilə Azərbaycan Respublikası arasındakı sıx münasibətlərə çox böyük dəyər verirəm.

Əməkdaşlığımız onu dərinləşdirmək və qardaş ölkələrimizin vətəndaşlarının istəklərinə uyğun olan xüsusi tərəfdaşlıq qurmaq əzmimizlə daha da möhkəmlənir.

**Hörmətlə,**

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – 28 May Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərimi yetirir, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***FİLİP,***
***Belçikalıların Kralı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

**Hörmətlə,**

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Koreya Respublikasının Hökuməti və xalqı adından səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Koreya ilə Azərbaycanın sarsılmaz dostluğa və dərin etimada əsaslanan əməkdaşlıq münasibətlərinin davamlı şəkildə inkişafını olduqca önəmli hesab edirəm.

Ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmlənəcəyinə və müxtəlif sahələrdə sıx mübadilələr vasitəsilə əməkdaşlığımızın üfüqlərinin genişlənəcəyinə ümidvaram.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, Azərbaycan Respublikasına davamlı tərəqqi və firavanlıq, xalqınıza xoşbəxtlik arzulayıram.

**Hörmətlə,**

***Li CEMYÖN,***
***Koreya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

28 May Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Malta xalqı adından səmimi təbriklərimi çatdırıram.

Diplomatik münasibətlərin qurulduğu vaxtdan etibarən Malta ilə Azərbaycan qarşılıqlı hörmətə və anlaşmaya əsaslanan dostluq əlaqələrini uğurla davam etdirirlər. Əminəm ki, ikitərəfli və çoxtərəfli əməkdaşlığımız gələcək illərdə daha da möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Miriam Spiteri DEBONO,***
***Malta Respublikasının Prezidenti***

***

**Zati-aliləri, əziz Qardaşım!**

Ölkənizin milli bayramı – 28 May Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Azərbaycan xalqına yeni-yeni uğurlar və firavanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında mövcud əməkdaşlıq münasibətlərinin dost xalqlarımızın mənafeləri naminə möhkəmlənməsi və inkişafı istiqamətində səyləri daha da artırmaq niyyətimizi xüsusi vurğulayıram.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Qardaşınız,**

***Məhəmməd uld Şeyx əl-QAZUANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Əlamətdar tarix - 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına öz adımdan və Cənubi Afrika Respublikasının Hökuməti və xalqı adından ən səmimi təbriklərimizi, xoş arzularımızı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı arzulayır, ölkələrimiz arasındakı mükəmməl dostluq münasibətlərini daha da inkişaf etdirmək niyyətimizi bir daha bəyan edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Matamela Siril RAMAFOZA,***
***Cənubi Afrika Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Livan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə möhkəm cansağlığı, şəxsi rifah, müdrik rəhbərliyinizlə dost Azərbaycan Respublikasına və onun xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

Birlik və əməkdaşlıq dəyərlərini təcəssüm etdirən bu bayram qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi, xalqlarımızın, ölkələrimizin rifahı və mənafeyi naminə yeni nailiyyətlərin qazanılması məqsədilə birgə səylərimizin gücləndirilməsi baxımından bir fürsətdir.

Zati-aliləri, ən yüksək ehtiramımı və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

***General Cozef AUN,***
***Livan Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə, xalqınıza əmin-amanlıq və firavanlıq arzu edirəm.

Tailand ilə Azərbaycan arasında 30 ildən artıq davam edən, qarşılıqlı anlaşmaya və ortaq dəyərlərə əsaslanan dostluq münasibətləri əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

Qəti şəkildə əminəm ki, biz güclü iradəmizlə ölkələrimizin və xalqlarımızın mənafeyi naminə dostluq münasibətlərimizi möhkəmləndirmək, xüsusilə ticarət, investisiya və turizm sahələrində ikitərəfli əməkdaşlığımızın inkişafı istiqamətində fəaliyyətimizi davam etdirərək birgə səylərimizi daha da artıracağıq.

**Hörmətlə,**

***Maha Vajiralongkorn Phra VAJİRAKLAOCHAOYUHUA,***
***Tailandın Kralı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına şəxsən öz adımdan, Avstraliya Hökuməti və xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Avstraliya ehtiyac duyulan zamanlarda, o cümlədən 2025-ci ildə vətəndaşlarımızın İrandan təxliyə olunmasına göstərdiyi köməyə görə Azərbaycana dərin minnətdarlığını bildirir.

Əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasında dostluq münasibətləri gələcək illərdə də inkişaf edəcəkdir.

**Hörmətlə,**

***Samanta MOSTİN,***
***Avstraliya İttifaqının General-Qubernatoru***

***

**Zati-aliləri!**

28 May – Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına Trinidad və Tobaqo Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-aliləri, Sizə şəxsi rifah, Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Kristin Karla KANQALU,***
***Trinidad və Tobaqo Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı***

***

**Zati-aliləri, əziz Qardaşım!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə, eyni zamanda, hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Bu tarixi gün Azərbaycan xalqının mətanətini, qətiyyətini və sarsılmaz ruhunu təcəssüm etdirir. Pakistan xalqı böyük ölkənizin tərəqqi, sabitlik və inkişaf yolunda mühüm irəliləyişini mənimlə birlikdə yüksək dəyərləndirir.

Zati-alinizlə və əziz Qardaşımız Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə ötən il Azərbaycanda iştirak etmək şərəfinə nail olduğum Müstəqillik Günü tədbirləri yaddaşımda hər zaman xoş xatirə kimi qalacaq.

Zati-aliləri, Pakistan müdrik rəhbərliyinizlə davamlı şəkildə güclənən və inkişaf edən Azərbaycanla qardaşlıq münasibətlərinə çox böyük əhəmiyyət verir. Qardaşlığımız regional sülhə dair ortaq baxışı, qarşılıqlı hörməti və tərəfdaşlığımızın münasibətlərin dərinliyinə uyğun şəkildə inkişafı ilə bağlı istəyimizi əks etdirir.

Əminəm ki, Zati-alinizin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan daha böyük uğurlara və daha yüksək rifaha nail olacaq.

Sizi Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının uğurla keçirilməsi münasibətilə təbrik edirəm. Çox yaxın gələcəkdə Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Fürsətdən istifadə edərək Zati-alinizi Pakistana rəsmi səfərə dəvətimi bir daha təkrarlayıram. Sizi ölkəmizdə çox səmimi qarşılamaqdan məmnun olardıq.

Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə davamlı tərəqqi arzu edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

***

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Zati-alinizə Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı bildirirəm.

Qardaş Azərbaycan Hökumətinə və xalqına daha da sürətli inkişaf və rifah arzulayıram.

Zati-alinizə hörmət və ehtiramımı ifadə edirəm.

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir***

***

**Hörmətli İlham Heydər oğlu!**

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurası adından milli bayramınız - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Bu bayram xalqın azadlıq iradəsini və müstəqil inkişaf əzmini təcəssüm etdirir. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan dövlət suverenliyini, beynəlxalq arenada öz mövqeyini möhkəmləndirmək, iqtisadi inkişafını sürətləndirmək yolunda inamla irəliləməkdə davam edir. Əminik ki, uzaqgörənliyiniz və qətiyyətiniz sayəsində Azərbaycan Respublikası gələcəkdə daha da inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurası Baş katibinin müavini - Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi***

***

**Möhtərəm cənab Prezident!**

28 May Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi bildirməkdən böyük şərəf və məmnunluq duyuram.

Müstəqillik Günü Azərbaycan xalqının milli yaddaşının ən şanlı səhifələrindən biri kimi onun azadlıq və istiqlaliyyət arzularının gerçəkləşdiyi tarixi dönüş nöqtəsidir. Bu il Müstəqillik Günü ilə müqəddəs Qurban bayramının eyni vaxta təsadüf etməsi milli azadlıq ideallarının türk xalqlarının daim uca tutduğu xeyirxahlıq, mərhəmət, birlik və həmrəylik kimi ali mənəvi dəyərlərlə vəhdətini parlaq şəkildə təcəssüm etdirərək, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrinə və zəngin mənəvi irsinə sarsılmaz bağlılığını göstərir.

Zati-alinizin rəhbərliyi ilə Azərbaycanın fəal mövqeyi türk dövlətləri arasında əməkdaşlığın daha da dərinləşməsinə, qardaşlıq ruhunun möhkəmlənməsinə qiymətli və ardıcıl töhfələr verir. Azərbaycan dövlətinin Türk Dövlətləri Parlament Assambleyasının fəaliyyətinə göstərdiyi daimi diqqət və dəstəyin təşkilatımızın inkişafında, parlamentlərarası dialoq və əməkdaşlıq platforması kimi nüfuzunun artmasında xüsusi rolunu vurğulayaraq, Zati-alinizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına və Türk dünyasına davamlı sülh, rifah və tərəqqi arzulayıram.

**Yüksək hörmət və ehtiramla,**

***Ramil HƏSƏN,***
***Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi***

## BMT Baş katibinin müavini Azərbaycana səfərə gəlib



**Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini xanım Əminə Məhəmməd Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak etmək məqsədilə mayın 21-də Azərbaycan Respublikasına səfərə gəlib.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı rəsmi şəxslər qarşılayıblar.

***XQ***

## Azərbaycan–Tacikistan Hökumətlərarası Komissiyasının 8-ci iclası

**Mayın 21-də Bakıda Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib.**



İclasa Azərbaycan tərəfdən Baş nazirin müavini Samir Şərifov, Tacikistan tərəfdən isə Baş nazirin müavini Usmonali Usmonzoda rəhbərlik edib.

İclasda Samir Şərifov qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev ilə Tacikistan Prezidenti Emoməli Rəhmon arasında yüksəksəviyyəli siyasi dialoq ikitərəfli münasibətlərin inkişafına mühüm təkan verir. Xüsusilə, 2024-cü ildə Tacikistan Prezidentinin Azərbaycana dövlət səfəri çərçivəsində imzalanmış Strateji tərəfdaşlıq haqqında Bəyannamə münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib. Azərbaycanın Mərkəzi Asiya dövlətləri, o cümlədən Tacikistan ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyi qeyd edilib. Bildirilib ki, Azərbaycanın 2025-ci ilin noyabr ayında Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına tamhüquqlu iştirakçı kimi qoşulması regionlararası əlaqələrin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

2025-ci ildə Azərbaycan ilə Tacikistan arasında ticarət dövriyyəsinin 84 faiz, strateji əhəmiyyətli tranzit daşımalarının isə 50 faiz artması ilə müşayiət olunan müsbət dinamika təqdir olunmaqla yanaşı, ölkələrimizin iqtisadi əməkdaşlığının genişləndirilməsi üçün böyük potensialın mövcudluğu vurğulanıb. Bu baxımdan Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əlaqələndirilməsi və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin dövlət başçılarının tapşırıqlarının icrası baxımından mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Bildirilib ki, ötən ilin noyabr ayında Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən Tacikistan üzrə ilk ticarət nümayəndəsinin təyin edilməsi ticarət-iqtisadi əlaqələrin genişlənməsinə əlavə impuls verəcək. İclasda sənaye, investisiya, kənd təsərrüfatı, energetika, nəqliyyat və logistika, tranzit, turizm, təhsil və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivlərinə xüsusi diqqət yetirilib.

Tacikistan şirkətləri Azərbaycanda yaradılmış əlverişli biznes mühiti, sənaye parkları, o cümlədən Ələt Azad İqtisadi Zonası və müasir infrastruktur imkanlarından daha fəal istifadə üçün dəvət edilib. Samir Şərifov qeyd edib ki, Tacikistanın Orta Dəhliz layihələrinə fəal qoşulması regional əməkdaşlığın və tranzit potensialının genişlənməsinə əlavə imkanlar yaradacaq.

Tacikistan Baş nazirinin müavini Usmonali Usmonzoda iki ölkə arasında ticarət əlaqələrinin mövcud potensialdan çox yüksək olduğunu vurğulayıb və bundan istifadə etmək üçün hər iki tərəfdə yüksək səviyyədə siyasi iradəni qeyd edib. U.Usmonzoda azərbaycanlı iş adamlarının Tacikistan iqtisadiyyatına sərmayə yatırması üçün hər cür şəraitin olduğunu diqqətə çatdırıb, Azərbaycanın rəsmi nümayəndələrini əlaqələri daha da möhkəmləndirmək, koordinasiyanın çevikliyini təmin etmək, Birgə Komissiyanın növbəti iclasını keçirmək üçün Düşənbəyə səfərə dəvət edib.

İclasın yekununda Azərbaycan və Tacikistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş bir sıra mühüm sənədlər imzalanıb.

***XQ***

# Azərbaycan – Avropa İttifaqı 7-ci Təhlükəsizlik dialoqu





**Mayın 20-də Bakıda Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında Təhlükəsizlik Dialoqunun yeddinci iclası keçirilib.**

İclas iştirakçıları Azərbaycan-Aİ münasibətlərinin hazırkı vəziyyəti, qarşılıqlı maraq doğuran xarici və təhlükəsizlik siyasəti məsələləri ilə bağlı konstruktiv fikir mübadiləsi aparıblar. Onlar Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın və Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfərləri və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşləri də daxil olmaqla, son zamanlar yüksəksəviyyəli təmasların intensivləşməsini alqışlayıblar, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində ortaq maraqlarını bir daha təsdiqləyiblər.

Tərəflər yeni Tərəfdaşlıq Prioritetləri və yeni ikitərəfli saziş üzrə davam edən müzakirələrin vacibliyini vurğulayıblar. Həmçinin mövcud Azərbaycan-Aİ Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində müntəzəm dialoqun davam etdirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

İştirakçılar geosiyasi proseslər və xarici siyasət, bağlantı, enerji təhlükəsizliyi və Orta Dəhliz də daxil olmaqla, regional və beynəlxalq prosesləri müzakirə ediblər. Aİ Azərbaycanın regional bağlantı və enerji şaxələndirilməsi baxımından mühüm tərəfdaş kimi rolunu qeyd edib, davamlı, iqtisadi cəhətdən səmərəli və qaydalara əsaslanan əməkdaşlığın vacibliyini vurğulayıblar.

Aİ Azərbaycanda aparılan humanitar minatəmizləmə səylərinə dəstəyini bir daha təsdiqləyib və bu sahədə əməkdaşlığın davam etdirilməsini alqışlayıb. Səfər çərçivəsində mayın 19-da Aİ nümayəndə heyəti Ağdam rayonu da daxil olmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına baş çəkib, Azərbaycan tərəfindən həyata keçirilən minatəmizləmə fəaliyyəti ilə tanış olub.

İştirakçılar, həmçinin Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı fikir mübadiləsi aparıblar. Aİ Azərbaycanla Ermənistan arasında son aylarda əldə olunmuş irəliləyişi, o cümlədən etimad quruculuğu tədbirlərini və təmasların intensivləşməsini alqışlayıb, davamlı sülhün dəstəklənməsi üçün dialoqun və praktiki əməkdaşlığın davam etdirilməsinə çağırış edib.

Tərəflər formatın genişləndirilərək onun Azərbaycan-Aİ Siyasi və Təhlükəsizlik Dialoqu adlandırılması barədə razılığa gəliblər ki, bu, ikitərəfli münasibətlərin daha geniş sahələri əhatə etdiyinin və strateji əhəmiyyətinin göstəricisidir.

İclasa Azərbaycan Respublikasının Prezidentinin köməkçisi Hikmət Hacıyev və Avropa Xarici Fəaliyyət Xidmətinin Siyasi Məsələlər üzrə baş katibinin müavini Olof Skuq həmsədrlik ediblər.

***XQ***

# Azərbaycan – Qırğızıstan parlament əməkdaşlığı



**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Qırğız Respublikası Joqorku Keneşinin sədri Marlen Mamataliyev ilə görüşüb.**

Spiker Sahibə Qafarova Marlen Mamataliyevi bu vəzifəyə seçilməsi münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə ölkələrimiz arasında çoxəsrlik tarixi köklərə malik dostluq və qardaşlıq əlaqələrinin müasir dövrdə də qarşılıqlı surətdə faydalı tərəfdaşlıq və dostluq ruhunda uğurlu inkişafından məmnunluq ifadə olunub. Tərəflər Azərbaycan və Qırğızıstan dövlət başçılarının qarşılıqlı səfərlərinin, yüksək səviyyədə görüşlərin dinamikasının və səmərəliliyinin ikitərəfli münasibətlərin möhkəmlənməsində və dərinləşməsində mühüm rolunu qeyd ediblər.

Söhbət zamanı Azərbaycan və Qırğızıstan arasında yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də davam etdirildiyi vurğulanaraq qeyd olunub ki, ölkələrimiz arasında münasibətlərin inkişafında qanunverici orqanların da özünəməxsus rolu var. Parlamentlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda sıx əməkdaşlıq edirlər. O cümlədən beynəlxalq parlament təşkilatlarında, həmçinin MDB-nin Parlamentlərarası Assambleyasında, Türk Dövlətlərinin Parlament Assambleyasında, İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqında, Asiya Parlament Assambleyasında və digər qurumlarda fəal əməkdaşlıq mövcuddur.

Görüşdə parlament sədrləri və deputatlar səviyyəsində qarşılıqlı səfərlərin və təmasların qanunverici orqanlarımız arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verdiyi qeyd olunub.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***XQ***

# Sahibə Qafarova MDB PA-nın Şura iclasında

**Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB Parlamentlərarası Assambleyasının (MDB PA-nın) Şura iclası keçirilib.**



Milli Məclisin Sədri Sahibə Qafarova tədbirdə iştirak edib.

Spiker Sahibə Qafarova iclasda çıxış edərək, müzakirə olunan mövzularla bağlı fikirlərini bildirib. O, Şura iclası gündəliyinin 3-cü bəndi ilə bağlı danışaraq deyib ki, Assambleyanın fəaliyyətinin əsas istiqamətlərindən biri MDB iştirakçı dövlətlərində keçirilən seçkilər və referendumlarla bağlı monitorinq fəaliyyətinin həyata keçirilməsidir. Milli Məclisin Sədri qeyd edib ki, seçkilər hər bir ölkənin həyatında onun gələcək inkişafını müəyyən edən ən vacib hadisələrdən biridir. İstənilən seçkidə obyektiv müşahidə missiyası seçkilərin şəffaflıq və demokratiklik dərəcəsinin qiymətləndirilməsində çox mühüm rol oynayır. Sahibə Qafarova vurğulayıb ki, Assambleyanın müşahidə missiyalarının ölkələrimizdə keçirilən seçkilərdə iştirakı sadəcə monitorinq prosesi deyil, eyni zamanda, həmrəyliyin və qarşılıqlı dəstəyin təzahürüdür.

O, Parlamentlərarası Assambleyanın beynəlxalq müşahidəçilərinin Qırğız Respublikasının Joqorku Keneşinə növbədənkənar seçkilərin, həmçinin Qazaxıstan Respublikasının yeni Konstitusiyasının qəbulu üzrə referendumun monitorinqinin nəticələri ilə bağlı da fikirlərini diqqətə çatdırıb. Bildirilib ki, Milli Məclisin deputatları hər iki müşahidə missiyasında fəal iştirak ediblər.

Sahibə Qafarova məmnunluqla qeyd edib ki, qardaş Qazaxıstanda keçirilən referendumun monitorinqində MDB Parlamentlərarası Assambleyasının müşahidəçi qrupunun koordinatoru vəzifəsini Milli Məclisin sədr müavini Ziyafət Əsgərov yerinə yetirib.

İclasda bir sıra təşkilati və gündəlikdəki məsələlər müzakirə olunub və yekunda müvafiq qərarlar qəbul edilib.

***XQ***

# Ceyhun Bayramov BMT Baş katibinin müavini ilə görüşüb

**Mayın 21-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan BMT Baş katibinin müavini Əminə Məhəmmədin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə BMT arasında əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə olunub. Tərəflər çoxtərəfli əməkdaşlıq, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, iqlim fəaliyyəti, eləcə də postmünaqişə dövründə bərpa və yenidənqurma istiqamətində həyata keçirilən təşəbbüslər ətrafında fikir mübadiləsi aparıblar.

Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə geri dönüşünün təmin olunması istiqamətində görülən tədbirlər barədə məlumat verilib.

Tərəflər, həmçinin ölkəmizin enerji təhlükəsizliyi və regional bağlantılar sahəsində aparıcı rolu, ölkəmizin Mərkəzi Asiya ilə strateji əlaqələri barədə müzakirə aparıblar.

BMT Baş katibinin müavini Əminə Məhəmməd Azərbaycan ilə BMT arasında tərəfdaşlığın əhəmiyyətini vurğulayaraq, dayanıqlı inkişaf, şəhərsalma, iqlim gündəliyi və humanitar məsələlər üzrə əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd edib.

***XQ***

# Beynəlxalq Miqrasiya Təşkilatı Baş direktorunun müavini XİN-də

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak məqsədilə ölkəmizdə səfərdə olan Beynəlxalq Miqrasiya Təşkilatının Baş direktorunun müavini Uqoçi Daniels ilə görüşüb.**

Görüşdə Azərbaycan və Beynəlxalq Miqrasiya Təşkilatı arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti, gələcək birgə fəaliyyət perspektivləri və miqrasiya proseslərinin idarə edilməsi sahəsində qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirə aparılıb.

Tərəflər ölkəmizin BMT-nin ixtisaslaşmış qurumları ilə, xüsusən də Beynəlxalq Miqrasiya Təşkilatı ilə qurduğu uzunmüddətli münasibətlərin dinamikasını müsbət qiymətləndirib. Miqrasiya sahəsində idarəetmə mexanizmlərinin müasirləşdirilməsi istiqamətində reallaşdırılan müştərək təşəbbüslərin əhəmiyyəti vurğulanıb.

Uqoçi Daniels Azərbaycanda miqrasiya sahəsində həyata keçirilən islahatları, xüsusilə məcburi köçkünlərin geri qayıdışı istiqamətində görülən işləri, Böyük Qayıdış Proqramını yüksək qiymətləndirib.

***XQ***



# Baş nazir Əli Əsədovun Türkmənistana işgüzar səfəri



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün mayın 21-də Türkmənistana işgüzar səfər edib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Aşqabad Beynəlxalq Aeroportunda Baş nazir Əli Əsədovu Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Mammetqulı Astanaqulov və digər rəsmi şəxslər qarşılayıblar.

**XQ**

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 4,18 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 5, 19, 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi** Səttarov Orxan Rəcəb oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 17 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 19 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 22 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 22 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 23 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 23 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 25 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 24 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# “Xalq qəzeti”nin WUF13 müsahibləri

**Ümumdünya Şəhərsalma Forumunun Bakı sessiyası qlobal urbanizasiya proseslərinin idarə edilməsi, dayanıqlı şəhər infrastrukturunun formalaşdırılması və ekoloji-iqtisadi balansın təmin olunması istiqamətində mühüm strateji platforma rolunu oynayır. Forum yaşıl iqtisadiyyata keçid və daxili resursların optimallaşdırılması strategiyalarının qlobal miqyasda sintezi üçün effektiv dialoq məkanı formalaşdırır.**

***Yaxın gələcəyə yönəlik önəmli qərarların qəbulu mexanizmlərində birbaşa iştirak edən, beynəlxalq və regional siyasətin formalaşdırılmasına məsul rəsmi şəxslərdən eksklüziv müsahibələr aldıq.***



**Birləşmiş Millətlər Təşkilatının (BMT) Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax XQ-yə bildirdi:**

– Forumda hökumət nümayəndələri ilə yanaşı, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti institutları, ekspertlər, akademik dairələr və müxtəlif maraqlı tərəflər eyni platformada bir araya gəlirlər. Bu isə qlobal problemlərin yalnız siyasi və diplomatik çərçivədə deyil, praktiki və sosial reallıqlar kontekstində də müzakirəsinə imkan yaradır. Forumun əsas üstünlüyü məhz formal diplomatik yanaşmalarla şəhərsalma sahəsində mövcud olan vəziyyət arasında dialoq körpüsü yaratmasıdır.

Qlobal məskunlaşma böhranının fəsadları ölkələr arasında fərqlidir. Bəzi coğrafiyalar və icmalar daha ciddi problemlə üzləşirlər. Müəyyən regionlar və icmalar daha kəskin problemlərlə üzləşdiyi halda, onların mövcud potensialları da kəskin fərqlənir. Bu baxımdan, WUF13-ün imkanlarından, xüsusilə WUF Akademiyasından səmərəli istifadə edərək, vahid platforma yaratmalıyıq.

Bu birlik müştərək tədqiqat gündəliyi ətrafında formalaşmalı və ümumi potensialın artırılmasına xidmət etməlidir. Xüsusilə imkanlarla real ehtiyaclar arasındakı uyğunsuzluğun, məlumat və informasiya çatışmazlığının, eləcə də beynəlxalq yardım alətləri ilə onların praktik tətbiqi arasında mövcud olan fərqlərin aradan qaldırılması bu cür platformaların əsas prioritetlərindən biri hesab olunur.

Sözügedən istiqamətdə daha inklüziv dialoq mexanizmlərinin qurulması, yerli təcrübələrin qlobal qərarvermə proseslərinə inteqrasiyası və çoxtərəfli əməkdaşlığın praktiki nəticələrə yönəldilməsi mühüm əhəmiyyət daşıyır.

İlk dəfədir ki, biz liderləri – hökumət başçılarını, dövlət rəhbərlərini, keçmiş prezidentləri və keçmiş nazirləri bir araya gətirmişik. Biz siyasətçiləri, ekspertləri, düşüncə adamlarını və mütəxəssisləri eyni platformada birləşdiririk.

Açılış mərasimi məni xüsusilə heyrətləndirmişdi. Dövlət başçıları çıxış edərkən – demək olar ki, istisnasız olaraq hamısı dünyanın real problemlərindən danışırdılar. Onlar texniki mütəxəssislər kimi çıxış edir, məsələlərə praktik yanaşırdılar.

Bu mübarizə yalnız texniki həllərlə bağlı deyil. Bu, eyni zamanda, şəhərlərdə yeni məkanlar tapmaqla bağlıdır, liderliklə bağlıdır. Çirklənmə problemi var və planlaşdırma məhz burada ortaya çıxır. Əgər heç nə edilməzsə, bu, unuda bilməyəcəyimiz bir mübarizəyə çevriləcək.

Deməli, məsələ yalnız həll yolları tapmaq deyil. Eyni zamanda, liderlərdən və islahatçılardan siyasi dəstək almaq lazımdır. Əsas işin görülməli olduğu yer də məhz buradır. Və çoxtərəflilik burada mühüm rol oynayır.

Humanitar və inkişaf fondları üçün ayrılan vəsaitlər arasında ciddi uyğunsuzluqlar var. Məsələn, BMT, beynəlxalq QHT-lər və digərləri tərəfindən alınan humanitar fondlar mənzil təminatı üçün nəzərdə tutulmayıb. Bu fondlar həyat xilas etmək, təcili yardım göstərmək və bu kimi digər məqsədlər üçündür.



**WUF13-ün milli koordinatoru, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev qəzetimizə açıqlamasında söylədi:**

– Şəhərlər bir-biri ilə əlaqəli ekosistemlərdir və mənzil siyasəti nəqliyyat, əmək bazarı, ətraf mühit, enerji səmərəliliyi və sosial infrastrukturla birlikdə planlaşdırıldıqda daha effektiv olur. Çoxtərəflilik isə icrayönümlü əməkdaşlıq modelinə çevrilməlidir. Şəhərlərə maliyyələşmə, texnologiya transferi, institusional tərəfdaşlıqlar və bacarıq inkişafı lazımdır. Maliyyələşmə əsas çağırışlardan biridir. Dövlət resursları təkbaşına kifayət etmir, buna görə dövlət-özəl tərəfdaşlıqları və innovativ maliyyə mexanizmləri vacibdir. Xüsusi nümayəndəlik institutu azad olunmuş ərazilərdə koordinasiyanı təmin edərək bu sahədə effektiv model yaradıb.

Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinin lokallaşdırılmasını həyata keçirərək onları yerli planlaşdırmaya inteqrasiya edir. Bugünkü müzakirələr çoxşaxəli əməkdaşlığın gücləndirilməsi və qlobal urban çağırışlara daha effektiv cavab verilməsi üçün mühüm imkan yaradır.

Mənzil böhranı artıq yalnız sosial məsələ deyil, iqtisadi məhsuldarlıq, sosial həmrəylik, iqlim dayanıqlılığı və siyasi sabitliyə təsir edən çoxölçülü inkişaf çağırışıdır. Sürətli urbanizasiya, demoqrafik təzyiq, miqrasiya və iqtisadi bərabərsizlik nəticəsində bir çox ölkədə qeyri-rəsmi yaşayış məntəqələri genişlənir, torpaq əlçatanlığı azalır və şəhər xidmətlərinə çıxış qeyri-bərabər qalır.



**Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Bakı şəhəri üzrə Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Riad Qasımovun açıqlaması:**

– Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şəhərsalma və memarlıq ölkənin milli inkişaf gündəliyinin əsas prioritetlərindən birinə çevrilib. 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi şəhərlərin iqtisadi inkişaf, ekoloji dayanıqlılıq və həyat keyfiyyətinin formalaşmasındakı rolunu bir daha ön plana çıxarır.

BMT-nin proqnozlarına əsasən, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Bu səbəbdən torpaq istifadəsi, infrastruktur, mobillik, ictimai məkanlar və ekoloji idarəetmə ilə bağlı verilən qərarlar gələcək nəsillərin həyatına birbaşa təsir göstərəcək.

Müasir şəhərsalma artıq yalnız tikinti və zonalaşdırma siyasəti ilə məhdudlaşmamalıdır. Şəhərsalma insanyönümlü, iqlimə həssas və məlumat əsaslı kompleks prosesə çevrilməlidir.

“Baku Master Plan 2040” məhz bu yanaşma əsasında hazırlanıb. Sənəd Bakının gələcək inkişafını sistemli şəkildə istiqamətləndirəcək uzunmüddətli strateji çərçivə kimi təqdim olunub. Bu çərçivədə parkların, piyada zonalarının, sosial infrastrukturun və ictimai xidmətlərin inkişafına xüsusi diqqət ayrılır.

Yeni sahilyanı məkanların yaradılması, şəhər bulvarı və rekreasiya zonalarının inkişafı, məhəllə infrastrukturunun yenilənməsi kimi layihələrin daha yaşanıla bilən şəhər vizyonunun tərkib hissəsidir. Bakı bir çox sahilyanı şəhərlər kimi ciddi ekoloji çağırışlarla üzləşir və buna görə yaşıl urbanizm, enerji səmərəliliyi, ekoloji bərpa və dayanıqlı mobillik prinsipləri baş planda əsas yer tutur.

“International Finance Corporation” ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda yaşıl tikinti standartlarının hazırlanması istiqamətində işlər aparılır. Bu təşəbbüslər qlobal iqlim hədəflərinə və COP29, eləcə də COP30 kimi beynəlxalq tədbirlərdə aparılan müzakirələrə uyğun şəkildə həyata keçirilir.

Baş planın üçüncü əsas istiqamətinin isə inteqrasiya olunmuş və səmərəli nəqliyyat sistemi olduğu bildirilib. Qeyd olunub ki, müasir şəhər dayanıqlı və əlaqələndirilmiş nəqliyyat olmadan effektiv fəaliyyət göstərə bilməz.



**Bakı Dövlət Layihə İnstitutunun direktoru İlqar İsbatov WUF13-ün qlobal önəmini XQ üçün belə dəyərləndirdi:**

– BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan dövlətinin birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbir təhlükəsiz və dayanıqlı şəhərlər, yaşayış məskənlərinin gələcək inkişaf modeli ətrafında formalaşan qlobal müzakirələrin mühüm platformalarından biri kimi qiymətləndirilir. Bu gün dünyada urbanizasiya prosesi artıq yalnız şəhərlərin böyüməsi deyil, insanların təhlükəsiz, dayanıqlı və sosial baxımdan rahat yaşayış mühitinə çıxışı məsələsi kimi qəbul olunur.

Müzakirələr zamanı müxtəlif qitələri və dövlətləri əhatə edən təcrübələr təqdim edilir, şəhərsalma modelləri müqayisə olunur, müasir yaşayış məskənlərinin planlaşdırılması ilə bağlı yeni yanaşmalar diqqət mərkəzinə çıxarılır. Bu baxımdan tədbir həm beynəlxalq təcrübənin öyrənilməsi, həm də ayrı-ayrı ölkələrin öz uğurlu modellərini paylaşması üçün geniş imkan yaradır.

Azərbaycan tərəfi də bu platformada öz təcrübəsini təqdim edən ölkələr sırasında xüsusi maraq doğurur. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma proqramları beynəlxalq mütəxəssislərin diqqətini cəlb edir. Dövlət tərəfindən qəbul olunmuş proqramlara uyğun olaraq şəhər, kənd və qəsəbələrin müasir standartlar əsasında yenidən qurulması, infrastrukturun yaradılması və “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyalarının tətbiqi Azərbaycanın urbanizasiya siyasətində yeni mərhələ kimi dəyərləndirilir.

Hazırkı siyasətin əsas istiqamətlərindən biri də məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışının təmin edilməsidir. Hazırda azad olunmuş ərazilərdə aparılan tikinti və məskunlaşma prosesi təkcə fiziki infrastrukturun bərpası deyil, həm də sosial həyatın yenidən qurulması mənasını daşıyır. İnsanların illərlə uzaq düşdükləri tarixi yaşayış məskənlərinə mərhələli şəkildə qayıdışı regionun sosial-iqtisadi dirçəlişinin əsas göstəricilərindən biri hesab olunur.

Azərbaycanın bu istiqamətdə formalaşdırdığı təcrübə beynəlxalq platformalarda maraqla qarşılanır. Çünki burada söhbət yalnız şəhərsalma layihələrindən deyil, postmünaqişə dövründə dayanıqlı yaşayış modelinin qurulmasından, təhlükəsiz məskunlaşmanın təmin edilməsindən və insan amilinin mərkəzdə saxlanılmasından gedir.



**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova XQ-yə bildirdi:**

– Forumun əsas məqsədi uşaqların, gənclərin və ümumilikdə, insanların şəhərsalma ilə bağlı problemlərinin siyasət, planlaşdırma, tikinti və quruculuq proseslərində daha çox nəzərə alınmasına diqqət çəkməkdir. Bu sahədə dünyanın müxtəlif ölkələrində fərqli təcrübələr mövcuddur. Beynəlxalq təşkilatların ayrı-ayrı ölkələrlə, o cümlədən bu gün Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq forum çərçivəsində keçirdiyi müzakirələrin əsas məqsədi də həmin təcrübələri paylaşmaq, eyni zamanda, mövcud problemləri ön plana çıxarmaqdır.

WUF13 həm təcrübə mübadiləsi aparmaq, həm də problemlərin həlli yollarını tapmaq baxımından olduqca vacibdir. Çünki ölkələr bir-birinin uğurlu nümunələrindən istifadə etməklə şəhərsalma və mənzil məsələlərində daha effektiv yanaşmalar formalaşdıra bilirlər. Mənzil təminatı məsələsinə gəldikdə isə dünyanın bütün ölkələri üçün əsas hədəflərdən biri insanların layiqli yaşayış şəraiti ilə təmin olunmasıdır. Heç bir insanın evsiz-eşiksiz qalmaması bütün siyasi sistemlərin və hökumətlərin qarşısında duran ümumi məqsədlərdən hesab olunur. Bunun üçün genişmiqyaslı işlər görülməli, yeni yanaşmalar və müasir standartlar tətbiq olunmalıdır. Yeni şəhərlərin qurulması ilə birgə, həmin şəhərlərdə yaşayacaq insanların da yeni düşüncə tərzinə və davranış mədəniyyətinə uyğun formalaşdırılması vacibdir. Bu istiqamətdə məsuliyyət yalnız dövlətlərin üzərinə düşmür. Cəmiyyətin hər bir üzvü prosesdə iştirak etməlidir.

Hər hansı layihə dövlət tərəfindən həyata keçirilsə də, ondan istifadə edən yenə insanlardır, cəmiyyətin özü, uşaqlar və gələcək nəsillərdir. Çünki şəhər infrastrukturu dağıdılmaq və ya məsuliyyətsiz şəkildə istifadə edilmək üçün deyil, insanların rifahına xidmət etmək üçün qurulur.

WUF13 kimi beynəlxalq forumlar müxtəlif ölkələrin nümayəndələrinə real vəziyyəti yerində görmək və konkret problemlər əsasında qərarlar vermək imkanı yaradır. Məsələn, güclü yağışların yaratdığı fəsadlar gələcəkdə hansı addımların atılmalı olduğunu müəyyənləşdirmək üçün praktiki nümunə rolunu oynayır. Buna görə də siyasət mümkün ehtimallara deyil, real hadisələrdən çıxarılan nəticələrə əsaslanmalıdır.

***Hazırladılar:***
***Fidan ƏLİYEVA,***
***Ləman TƏHMƏZ,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Fiziki qüsurlu insanlara əlçatan yaşam şəraiti!

## *“Əlilliyi olan şəxslərin hüquqları üzrə dəyirmi masa”*



**Bu mövzuda sessiyada inklüziv şəhərsalma, əlçatan yaşayış mühiti və sosial inteqrasiya məsələləri müzakirə olundu.**

Müasir şəhərsalmada əsas prioritetlərdən biri əlilliyi olan şəxslər üçün inklüziv və əlçatan mühitin yaradılmasıdır. Bu kateqoriyadan olan insanlar şəhərlərdə maneəsiz hərəkət imkanları, uyğun ictimai nəqliyyat və ictimai məkanlara rahat çıxış gözləyirlər. Eyni zamanda, sosial xidmətlərin və rəqəmsal platformaların hər kəs üçün əlçatan olması xüsusi əhəmiyyət daşıyır.

**Qlobal Əlillik Fondunun baş texniki mərkəz koordinatoru Əhməd Qanem** çıxışında əlilliyi olan şəxslərin hüquqlarının qorunması üçün beynəlxalq əməkdaşlığın vacibliyini qeyd etdi.

**Əlilliyi olan şəxslər üçün Müstəqil Həyat Mərkəzinin nümayəndəsi Aydın Xəlilov** müstəqil yaşayış imkanlarının genişləndirilməsinin sosial inteqrasiyaya mühüm töhfə verdiyini bildirdi.

**Professor Floyd Morris** əlçatan mənzil hüququnun fundamental insan hüquqlarından biri olduğunu vurğuladı.

**Dünya Gözdən Əlillər Birliyinin prezidenti Santoş Kumar Runqta** xüsusilə elektrik avtomobillərin geniş yayılması ilə bağlı yeni təhlükələrə diqqət yetirdi. Onun sözlərinə görə, səssiz işləyən elektrik avtomobillər piyadalar üçün potensial təhlükə yaradır: “Elektrik avtomobilləri geniş şəkildə yayılır və səssiz işləmələri piyadalar üçün təhlükə yarada bilər. Bu məsələ təhlükəsizliklə birbaşa bağlıdır”.

*Bəs Ümumdünya Şəhərsalma Forumunda fikizi məhdudiyyətli şəxslər üçün hansı şərait yaradılıb?*

**Davud RƏHİMLİ, Azərbaycan Əlil Təşkilatları İttifaqının prezidenti:**

– Son illər Azərbaycanda mühüm beynəlxalq tədbirlər keçirilir. COP29-u və Ümumdünya Şəhərsalma Forumunu buna misal göstərə bilərik. Bu qlobal müzakirələrdə inklüzivlik məsələsinə xüsusi diqqət ayrılması sevindirici haldır. BMT səviyyəsində bu məsələ yüksək qiymətləndirilib. Prezident İlham Əliyev də forum məkanında yaradılan şəraitlə tanış olaraq inklüzivliyin təmin olunmasını müsbət dəyərləndirib.

Əlilliyi olan şəxslərin cəmiyyətə tam inteqrasiyası üçün ən vacib məsələlərdən biri əlçatan mühitin yaradılmasıdır.

Hazırda WUF13-də biz bunun real nümunəsini görürük. Burada fikizi məhdudiyyəti olan şəxslər üçün bütün lazımi şərait yaradılıb. Onların sərbəst hərəkəti və forumda fəal iştirakı üçün heç bir maneə yoxdur. COP29 zamanı da buna bənzər yanaşmanın şahidi olmuşduq.

Ümumiyyətlə, ölkəmizdə bu istiqamətdə həm qanunvericilik, həm də praktiki səviyyədə mühüm addımlar atılır. Belə beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi Bakı və ümumilikdə digər şəhərlərin daha əlçatan olmasına da ciddi töhfə verir.

Əlbəttə, xüsusi proqramlar həyata keçirilir, fiziki maneələrin aradan qaldırılması istiqamətində addımlar atılır. Amma düşünürəm ki, bu proses daha kompleks şəkildə aparılsa, nəticələr daha effektiv olar. Çünki biz uzun illər əlilliyi olan insanların cəmiyyətdən müəyyən qədər təcrid olunduğu bir sistemdə yaşamışıq.

Bütün problemləri birdən-birə həll etmək mümkün deyil. Bu, mərhələli şəkildə həyata keçirilməlidir. Amma əsas odur ki, artıq bu istiqamətdə iradə və real fəaliyyət mövcuddur.

**Afiq MƏMMƏDOV, AMEA vitse-prezidenti xidmətinin elmi katibi:**

– Forumun məclislərində əlilliyi olan şəxslər üçün yaradılan şəraiti çox yüksək qiymətləndirirəm. Əlçatanlıq və hərəkət imkanları kifayət qədər yaxşı təşkil olunub. Hətta dünən mənim də yardıma ehtiyacım oldu və könüllülər çox operativ şəkildə dəstək göstərdilər. Onlar mənə istiqamət verdilər, hərəkət etməyimə kömək etdilər və sonda maşına qədər müşayiət etdilər. Bu cür yanaşma tədbirin inklüzivlik baxımından nə qədər ciddi təşkil olunduğunu göstərir.

Biz əsasən elm və ekologiya ilə bağlı tədbirlərdə iştirak edirik. Son illərdə bu sahədə müsbət irəliləyişlər müşahidə olunur. Şəhərdə əlçatanlıq istiqamətində, xüsusilə hərəkət məhdudiyyəti olan şəxslər üçün keçidlərin və infrastrukturun yaxşılaşdırılması üzrə mühüm addımlar atılıb. Amma hələ də bəzi problemlər qalır. İnanırıq ki, onlar da tez bir zamanda öz həllini tapacaq.

**Qəndab ƏKBƏRLİ, qonaq:**

– Hazırda forum ərazisində görmə məhdudiyyətli, eşitmə və ünsiyyət çətinliyi yaşayan şəxslərin də tədbirdə rahat iştirakı üçün lazımi şərait yaradılıb.

Sevindirici haldır ki, bu yanaşma artıq şəhərimizdə də özünü göstərməyə başlayıb. Ümid edirəm ki, gələcəkdə bu proses daha da genişlənəcək, hamımız birlikdə çalışaraq şəhərimizi hər kəs üçün daha əlçatan və rahat məkana çevirə biləcəyik.

**Aysel ƏLİYEVA, qonaq:**

– Burada yaradılan şərait göstərir ki, əlçatan mühit hər kəs üçün mümkündür. İnsanlar burada sərbəst şəkildə hərəkət edə bilirlər. Bu imkanlar təkcə əlil arabasından istifadə edən şəxslər üçün deyil, həm də görmə və eşitmə məhdudiyyəti olan insanlar üçün nəzərdə tutulub. Yəni məqsəd odur ki, hər bir şəxs özünü cəmiyyətin tamhüquqlu üzvü kimi hiss etsin və heç bir maneə ilə qarşılaşmasın.

**Marvan BİSALAM, süni intellekt mütəxəssisi:**

– Düşünürəm ki, burada şərait artıq kifayət qədər yaxşı qurulub. Hər şey əlçatandır və yaxşı təşkil olunub. Biz rahat şəkildə daxil ola, sərbəst hərəkət edə və heç bir çətinlik olmadan iştirak edə bilirik.



**Günay ƏLİYEVA, könüllü:**

– Stendimizdə görmə məhdudiyyətli şəxslər üçün nəzərdə tutulmuş xüsusi kataloqlarımız nümayiş olunur. Bununla yanaşı, beynəlxalq praktikada geniş tətbiq edilən "günəbaxan qolbaqları"mız da var ki, bu rəmz vasitəsilə biz cəmiyyətdə həddindən artıq stres keçirən, xüsusi qayğıya, eləcə də görmə və danışma relyefində müəyyən məhdudiyyətləri olub köməyə ehtiyac duyan insanları vaxtında aşkar edir, onlara lazımi diqqət və dəstəyi göstəririk.

Eyni zamanda, stendimizdə səsin gücləndirilməsi və ötürülməsi üçün xüsusi audio-cihazlarımız və səsin akustik tənzimlənməsi sistemimiz mövcuddur. Bu xidmət bir guşə ilə məhdudlaşmır. Hər bir zonada bizim üçün ayrılmış xüsusi masalar fəaliyyət göstərir.

***F.ƏLİYEVA,***
***C.QAÇAYEV (foto)***
***XQ***

# Leyla Əliyeva və Arzu Əliyeva "Urban Expo" sərgisi ilə tanış olublar





**Mayın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Urban Expo" sərgisinə baxıblar.**

Leyla Əliyeva və Arzu Əliyeva Azərbaycanın, o cümlədən müxtəlif ölkələrin milli pavilyonlarında və stendlərində təqdim edilən layihələr və innovativ şəhərsalma həlləri ilə tanış olublar.

Onlar ziyarətçilər və iştirakçılar ilə görüşərək xatirə şəkilləri çəkdiriblər.

***XQ***

# Heydər Əliyev Mərkəzində perulu rəssamın fərdi sərgisinin açılışı

**Mayın 21-də Heydər Əliyev Mərkəzində perulu rəssam Ronald Kompanokanın fərdi sərgisinin açılışı olub.**







Sərginin açılış mərasimində Leyla Əliyeva və Alena Əliyeva, mədəniyyət naziri Adil Kərimli, tanınmış incəsənət xadimləri və digər qonaqlar iştirak ediblər.

"Yuxular teatrı" ("The Theater of Dreams") adlı sərgidə müəllifin bir sıra əsərləri ilk dəfə ictimaiyyətə təqdim olunub.

Açılış mərasimindən əvvəl jurnalistlərə açıqlama verən Ronald Kompanoka bildirib ki, bu hadisə onun üçün böyük əhəmiyyət daşıyır və sərginin Avropanın mühüm mədəniyyət mərkəzlərindən birində keçirilməsi xüsusi önəm kəsb edir. Rəssam qeyd edib ki, layihəni digər sərgilərdən fərqləndirən əsas cəhət onun yalnız ənənəvi təqdimat formatı ilə məhdudlaşmaması, müxtəlif mədəni yanaşmaları və yaradıcı baxışları bir araya gətirməsidir.

O vurğulayıb ki, sərgidə nümayiş olunan əsərlərin bir qismi Azərbaycan mədəniyyətindən ilhamlanaraq hazırlanıb. Eyni zamanda, bəzi işlərdə xalça elementləri, digər əsərlərdə isə Azərbaycan motivləri və ölkəmizin adı əks olunub. Ronald Kompanoka əlavə edib ki, yaradıcılığında həm fantaziya, həm də sehrli sürrealizm elementləri yer alır. Bununla belə, o, əsərlərini daha çox realist və mistik üslubun sintezi kimi dəyərləndirir.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, rəssamla artıq bir neçə ildir sərginin Azərbaycanda keçirilməsi ilə bağlı müzakirələr aparılırdı və nəhayət bu layihəni reallaşdırmaq mümkün olub. O, bu müddət ərzində fəal yaradıcılıq fəaliyyəti göstərdiyinə və sərginin təşkilinə verdiyi dəstəyə görə rəssama təşəkkür edib.

Anar Ələkbərov, həmçinin bu cür layihələrin həyata keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Çıxış edən Ronald Kompanoka isə qeyd edib ki, sərgidə təqdim olunan iriölçülü əsərlər üzərində son bir il ərzində intensiv çalışıb. Onun sözlərinə görə, bu əsərlər detallara olan xüsusi həssaslığının, görünməyəni görünənə çevirmək istəyinin və daxili dünyasının bədii ifadəsinin nəticəsidir.

Qeyd olunub ki, ekspozisiyada nümayiş olunan əsərlərin ana xəttini zaman, səyahət və yuxular mövzusu təşkil edir. Sərgidə xatirələri qoruyan saatlar, buludlar yaradan gəmilər, Ay işığında hərəkət edən karvanlar və eyni mənzilə doğru can atan obrazlar xüsusi yer tutur.

Tədbir çərçivəsində Kompanokanın əsərlərindəki obrazları səciyyələndirən müxtəlif personajların iştirakı ilə bədii proqram da təqdim olunub.

Daha sonra qonaqlar "Yuxular teatrı" sərgisi ilə tanış olublar.

Xəyali aləmə aparan sərginin əsas personajlarını təlxəklər, musiqiçilər, sehrbazlar, səyyahlar və fantastik varlıqlar təşkil edir. Bu obrazlar tamaşaçını rəssamın daxili dünyasına doğru qeyri-adi səyahətə aparır.

Ronald Kompanokanın əsərləri sehrli sürrealizm fəlsəfəsi əsasında yaradılıb və ziyarətçiləri reallıqla təxəyyülün incə tarazlıqda qovuşduğu ecazkar kainatla tanış edir. Bu bədii yanaşmada İeronim Bosx, Salvador Dali və Rene Maqrit kimi dünyaşöhrətli sənətkarların yaradıcılığına istinad olunur.

Tamaşaçıları ilə özünəməxsus bədii dildə ünsiyyət quran Ronald Kompanokanın əsərləri bu günədək Avropa, ABŞ və Mərkəzi Amerikanın müxtəlif ölkələrində nümayiş etdirilib.

Sərgi 2027-ci il martın 1-dək davam edəcək.

***XQ***

# Leyla Əliyeva Esvatini Kralı III Msvati ilə görüşüb

**Mayın 21-də Leyla Əliyeva Esvatini Kralı Əlahəzrət III Msvati ilə görüşüb.**



Görüşdə Esvatini Şahzadəsi Lindani Dlamini və bu ölkənin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri, senator Folile Şakantu da iştirak ediblər.

Ölkəmizə səfəri çərçivəsində Azərbaycan Prezidenti ilə görüşünü məmnunluqla xatırlayan Esvatini Kralı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) yüksək səviyyədə təşkil edildiyini deyərək, bununla bağlı təbriklərini çatdırdı.

Leyla Əliyeva təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirdi, öz növbəsində, WUF13-ün dünyanın müxtəlif ölkələri arasında şəhərsalma sahəsində təcrübə mübadiləsi aparmaq üçün uğurlu platforma olduğunu dedi.

Görüşdə Azərbaycan-Esvatini ikitərəfli əlaqələrinin inkişafı üçün yaxşı imkanların olduğu bildirildi, Heydər Əliyev Fondu ilə bu ölkə arasında mümkün əməkdaşlığın perspektivləri müzakirə olundu.

***XQ***

# Konstitusiya Məhkəməsi Plenumunun iclası

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Mülki Məcəllənin 402-ci maddəsinin və "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinin dördüncü hissəsinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsinin müraciətini və Milli Məclis Aparatının mülahizəsini, Ədliyyə Nazirliyi, Ali Məhkəmə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Vəkillər Kollegiyası, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru S.Süleymanlının və həmin kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru Ş.Yusifovun rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinin, 29-cu maddəsinin I və II hissələrinin, Mülki Məcəllənin 402-ci maddəsinin məzmununa və hüquqi təyinatına, habelə Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarında ifadə edilmiş hüquqi mövqelərə əsasən Mülki Məcəllənin 402-ci maddəsi ilə "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinin dördüncü hissəsi arasında ziddiyyət mövcud deyil.

İlkin müqavilə üzrə "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinin dördüncü hissəsi ilə nəzərdə tutulmuş qaydada həmin müqavilə üzrə öhdəliyin icrasının təmini xarakterli və ya əsas müqavilənin bağlanılmasının təşkil edilməsi üçün zəruri olan xərclərə dair ödəniş həyata keçirilə bilər.

İlkin müqavilə ilə bağlı mübahisələrə baxılarkən həmin müqavilənin bağlanılmasında iştirak edən subyektlərin həqiqi iradə və niyyətləri Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq araşdırılıb müvafiq nəticəyə gəlinməlidir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Rusiya XİN-in "The Insider" qəzəbi

## *Qurum təkzib edir, amma…*

**Rusiyanın Xarici İşlər Nazirliyi araşdırma təmayüllü "The Insider" nəşrinin Kremlin xüsusi xidmət orqanlarının Ermənistandakı fəaliyyətinə dair materialı ilə əlaqədar bəyanat yayıb. Söhbət nəşrdə mayın 19-da yer almış "Saqqalından tutmaq" sərlövhəli materialından gedir. O məqalədən ki, orada Ermənistana Baş nazir Paşinyan hakimiyyətinə qarşı mübarizə məqsədilə rus agentlərinin göndərildiyi iddia olunub və müxtəlif arqumentlər gətirilib.**

Əlbəttə, Rusiya XİN "The Insider"in yalan tirajladığını bildirilməli idi. Başqa cür mümkün deyil. Amma qurumun bəyanatındakı bir neçə məqam diqqətimizi çəkdi. Yazımızda həmin məqamlara nəzər salacaq və əsasən ritorik suallara söykənərək oxucularımız üçün düşünmək imkanı yaradacağıq.

Birincisi, Rusiyanın baş diplomatiya idarəsi bildirir ki, "The Insider" təşkil olunmuş təxribatı ilə Ermənistandakı rus diplomatlarına psixoloji təzyiq göstərmək və qarşıdan gələn parlament seçkiləri ərəfəsində erməni ictimaiyyətini qorxutmaq məqsədi güdür. Maraqlıdır, bir nəşrin materialının Ermənistanda fəaliyyət göstərən rus diplomatlarına hansı psixoloji təzyiqi ola bilər? Başqa sözlə desək, diplomatların hansı fəaliyyətləri var ki, onlara hansısa media orqanının psixoloji təzyiqi həmin fəaliyyətlərin qarşısını alsın. Yaxud Rusiya səfirliyindəki şəxslər hər gün işə ənənəvi qaydada gəlib-gedirlərsə, "The Insider"in yazdığı onların ahəngini necə pozacaq? İstər-istəməz, şübhələr yaranır ki, ali missiya əməkdaşlarının işi yalnız təkcə diplomatik fəaliyyətlə məhdudlaşmır.

İkincisi, "The Insider" nəşrinin materialının seçki ərəfəsindəki erməni ictimaiyyətini qorxutması mümkündürmü və ya nə dərəcədə mümkündür? Yəni hay ictimaiyyətinin təmsilçiləri media orqanının yazdıqlarının doğruluğuna inanıb ölkələrində rus agentlərinin böyük şəbəkəsinin mövcudluğunu düşünər və əndişələnər?

Belə təsəvvür yaranır ki, erməni cəmiyyətinin nəzərində Rusiya qorxuludur və "The Insider"in materialı bu qorxunu körükləyəcək. Axı həmin o cəmiyyət niyə rus agentlərindən qorxsun? Rusiya XİN-in bəyanatındakı fikirlərdən gəlinən nəticə isə qorxunun mövcudluğunu söyləməyə əsas verir. O zaman ortaya başqa sual çıxır: erməni cəmiyyəti Rusiyanın adı ilə bağlı hansısa qurumun Ermənistandakı fəaliyyətindən qorxu hissi duyursa, durumun günahkarı kimdir? Əlbəttə, sualımız ritorikdir.

Rusiya XİN, həmçinin bəyan edir ki, "The Insider" artıq çoxdan media manipulyasiyası və anti-Rusiya əks-təbliğatının alətinə çevrilib və xarici kuratorların sifarişlərini yerinə yetirir. Bu məqamı anladıq, çünki Qərbdə siyasi sifariş yerinə yetirmə dəb halını alıb. Elə Rusiyada da mövcud tendensiyasının izlərinə az rast gəlinmir. Məsələn, rus mediasının, hətta, dövlət mediasının aktiv anti-Azərbaycan təbliğat apardığının dəfələrlə şahidi olmuşuq. Ancaq məqsədimiz heç də bunu vurğulamaq deyil. Sözümüz ondadır ki, Rusiya XİN-in bəyanatında ümumi mahiyyət daşıyan söz yığını, interpretasiya motivləri var, konkretlik nəzərə çarpmır.

Rusiya XİN onu da bildirib ki, "Saqqalından tutmağ"ın müəllifləri Baş nazir Paşinyana qarşı kampaniyanın koordinasiyası və ya seçkilərin manipulyasiyası ilə bağlı ittihamları təsdiqləyən inandırıcı fakt təqdim etməyiblər. Amma bir məqam maraqlıdır. Çünki "The Insider"in məqaləsində İrəvandakı "Rus Evi"nin neqativlik amplitudu üzərində dayanılıb. Rusiya XİN isə bu təşkilatın mədəni, təhsil və humanitar fəaliyyətini birbaşa funksiyası kimi dəyərləndirib və bunun xüsusi xidmət orqanlarının əməliyyatı olaraq təqdimatı cəhdlərinin anti-Rusiya kampaniyasının tərkib hissəsi olduğunu açıqlayıb.

***(ardı 6-cı səhifədə)***

# Şərqi Almaniyanın etiraz səsi Berlini silkələyir

## *AfD dalğası yeni siyasi dövrün başlanğıcı kimi dəyərləndirilir*

**Avropada uzun illər sabitlik modeli sayılan Almaniya hazırda dərin siyasi və ictimai keçid mərhələsinə daxil olub. İkinci Dünya müharibəsindən sonra formalaşmış siyasi konsensus, mərkəzçi partiyaların dominantlığı və liberal-demokratik təsisatların toxunulmazlığı artıq əvvəlki qədər möhkəm görünmür.**

Son aylarda keçirilən ictimai rəy sorğuları göstərir ki, Almaniyada ifrat sağçı mövqeyi ilə tanınan "Alternative für Deutschland" (AfD) partiyası sürətlə güclənərək bəzi sorğularda hakim mühafizəkarları belə qabaqlamağa başlayıb. Bu tendensiya təkcə Almaniyanın daxili siyasi həyatında dəyişiklik anlamına gəlmir. Eyni zamanda, Avropa İttifaqının gələcək siyasi xətti, NATO daxilində münasibətlər sistemi və transatlantik əməkdaşlığın taleyi baxımından da ciddi siqnallar verir.

Partiya Almaniya cəmiyyətində uzun illər yığılan narazılıqların, sosial bərabərsizliyin, miqrasiya böhranının, enerji siyasətindəki uğursuzluğun və geosiyasi dəyişikliklərin siyasi nəticəsi kimi formalaşıb. Amma son dövrlər baş verən beynəlxalq hadisələr, xüsusilə ABŞ-ın Yaxın Şərq siyasəti, İran ətrafında artan gərginlik və enerji bazarındakı dalğalanmalar Almaniyada ictimai əhvali-ruhiyyəni dəyişdirib. Alman cəmiyyətinin müəyyən hissəsi hesab edir ki, rəsmi Berlin Vaşinqtonun geosiyasi maraqlarına həddindən artıq bağlı vəziyyətə düşüb və bunun iqtisadi nəticələrini adi vətəndaş ödəyir.

Sözügedən narazılıq xüsusilə Şərqi Almaniyada daha kəskin hiss olunur. Vaxtilə sovet təsiri altında yaşayan bu regionlarda anti-Amerika ritorikasının güclənməsi təsadüfi deyil. Tarixi yaddaş, iqtisadi gerilik, sosial narazılıq və mərkəzi hakimiyyətə qarşı inamsızlıq AfD üçün münbit siyasi zəmin formalaşdırır. Partiya isə bu narazılığı milli suverenlik, enerji təhlükəsizliyi və "Berlin elitalarına qarşı xalqın müdafiəsi" kimi populist şüarlarla siyasi kapitala çevirməyə çalışır.

### "Toxunulmaz siyasi sistem" niyə sarsıldı?

Mərkəz sağ və mərkəz sol partiyalar arasında formalaşan balans əvvəllər də siyasi radikalizmin qarşısını alırdı. Lakin son onillikdə həmin model tədricən zəifləməyə başladı. Angela Merkel dövründə Almaniya iqtisadi baxımdan güclü görünsə də, paralel şəkildə bir sıra strateji problemlər dərinləşirdi. Miqrasiya siyasəti cəmiyyət daxilində parçalanma yaradırdı. Enerji təhlükəsizliyi məsələsi Rusiyadan asılı vəziyyətə gətirilirdi. Qloballaşmanın yaratdığı imkanlardan əsasən böyük şəhərlər və iri şirkətlər faydalanır, regionlar arasında inkişaf fərqi isə artırdı.

2022-ci ildən sonra Ukrayna müharibəsi ilə birlikdə Almaniyanın siyasi balansı daha ciddi sınaq qarşısında qaldı. Rusiya qazından imtina qərarı rəsmi Berlinin sənaye modelinə ağır təsir göstərdi. Elektrik və istilik xərcləri kəskin yüksəldi. İstehsal müəssisələrinin bir hissəsi fəaliyyətini azaltmağa başladı. Əhalinin gəlirləri inflyasiya fonunda zəiflədi. Mühüm məqamlardan biri isə Almaniya cəmiyyətinin müəyyən hissəsinin bütün prosesləri Vaşinqtonun geosiyasi kursu ilə əlaqələndirməsidir.

### İran böhranı

Yaxın Şərqdə gərginliyin artması Avropa dövlətləri üçün iqtisadi sabitlik problemi kimi də qiymətləndirilir. İran ətrafında yaranan böhran enerji bazarlarında qiymət artımı yaradır. Almaniya kimi böyük sənaye ölkəsi üçün enerji qiymətləri iqtisadiyyatın əsas sinir sistemidir. Alman biznes dairələri hesab edir ki, Yaxın Şərqdə yeni müharibə Avropa iqtisadiyyatı üçün yeni enerji şoku yarada bilər. Onsuz da Ukrayna müharibəsindən sonra enerji böhranı yaşayan Almaniya üçün bu, ikinci ağır zərbə anlamına gəlir. Məhz bu fonda AfD ABŞ siyasətinə qarşı daha sərt mövqe nümayiş etdirməyə başlayıb. Partiya Almaniyanın Vaşinqtonun xarici siyasət prioritetlərinə kor-koranə şəkildə qoşulmamalı olduğunu bildirir. AfD nümayəndələri açıq şəkildə bəyan edirlər ki, Almaniya, ilk növbədə, öz iqtisadi maraqlarını və enerji təhlükəsizliyini düşünməlidir.

### Niyə məhz Şərqi Almaniya?

AfD-nin ən böyük dayaqları Şərqi Almaniyadadır. Keçmiş Almaniya Demokratik Respublikasının ərazisində yaşayan əhali uzun illər özlərini ölkənin qərb hissəsi ilə müqayisədə ikinci planda hiss edir. Rəsmi olaraq Almaniyanın birləşməsindən 37 il keçsə də, iqtisadi və sosial fərqlər tam aradan qalxmayıb. Şərqi Almaniyada maaş səviyyəsi hələ də qərb regionlarından aşağıdır. Bu regionlarda dövlətə və ənənəvi partiyalara inamsızlıq daha yüksəkdir. Prosesdə tarixi amillər də mühüm rol oynayır. "Soyuq müharibə" dövründə sovet təsiri altında yaşayan Şərqi Almaniyada ABŞ-a münasibət Qərbi Almaniyadan fərqli formalaşıb. Burada anti-Amerika düşüncəsi müəyyən tarixi və ideoloji köklərə malikdir. Hazırda isə iqtisadi problemlər bu düşüncəni yenidən aktivləşdirir. AfD də sözügedən narazılığı çox ustalıqla idarə edir. Partiya Şərqi Almaniyada "Berlin elitaları", "qlobalist dairələr" və "Amerikanın təsiri altında olan siyasətçilər" kimi ifadələrlə seçicilərin emosiyalarına təsir göstərir. Onlar Almaniyanın milli suverenliyinin zəiflədiyini və ölkənin xarici güclərin maraqları naminə hərəkət etdiyini iddia edirlər.

Sonda qeyd edək ki, bu gün Almaniyada baş verənlər, bütövlükdə, Qərb siyasi sistemində dəyişən balansın göstəricisidir. Anti-Amerika əhvalının güclənməsi və sosial narazılığın radikal siyasi ritorikaya çevrilməsi Avropada yeni siyasi reallıq formalaşdırır. Elə bu səbəbdən AfD-nin yüksəlişi yaxın illərdə beynəlxalq siyasətin ən mühüm proseslərindən biri kimi diqqətdə qala bilər.

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA, politoloq**

Almaniyada AfD-nin güclənməsi təkcə miqrasiya məsələsi ilə izah olunmur. Artıq bu proses iqtisadi narazılıq, enerji qiymətləri, ABŞ siyasətinə etimadsızlıq və Berlinin xarici siyasət kursundan yorğunluqla birləşib. Xüsusilə Şərqi Almaniyada AfD bu narazılığı "Almaniya öz maraqlarını Vaşinqtonun xəttinə qurban verir" mesajı ilə siyasi kapitala çevirir. Son sorğularda AfD-nin bəzi bölgələrdə, xüsusilə Saksoniya Anhaltda 40 faizdən yuxarı dəstək alması bu tendensiyanın artıq sistemli siyasi dəyişiklik siqnalı olduğunu göstərir. Sözügedən tendensiya davam edərsə, Almaniyada ənənəvi partiya sistemi daha da parçalanacaq, koalisiya qurmaq çətinləşəcək və sağ populist gündəm mərkəzə daha güclü təzyiq göstərəcək.

AfD yaxın dövrdə federal hakimiyyətə gəlməsə belə, enerji, miqrasiya, Rusiya ilə münasibətlər və ABŞ hərbi mövcudluğu kimi mövzularda ümumi siyasi dili dəyişdirə bilər. Ən ciddi nəticə isə Almaniyanın transatlantik xəttində daxili legitimlik böhranının dərinləşməsi ola bilər. Yəni Berlin NATO və ABŞ-la strateji bağlılığını saxlayacaq, amma cəmiyyət daxilində "daha müstəqil Almaniya" tələbi güclənəcək və bu, Avropa siyasətində yeni gərginliklər yaradacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Paşinyanın kəskin ritorikası və Ermənistan üçün Qarabağ amili

## *Azərbaycan dövləti və xalqı nəyə görə ayıq olmalıdır?*

**Ermənistanın Baş naziri Nikol Paşinyanın "Qarabağ klanı"nın təmsilçiləri olan revanşistlər və şovinistlər barədə dilə gətirdiyi son dərəcə ağır ifadələrin əks olunduğu videogörüntülər sürətlə yayılmaqdadır. Nikol, həqiqətən, bu dəfə kəskin ritorikaya, qatı üsluba üstünlük verib. Amma Baş nazirin başqa çıxış yolu yoxdur. Yazımız həm də bu fikrin izahıdır.**



Beləliklə, Paşinyanın dediklərinə keçid alaq. Məsələn, "ay fərarilər, sizin ümumiyyətlə burada nə işiniz var, burada nə edirsiniz? Bunlar kimdir axı, gəlib mənə barmaq silkələyirlər? Qarabağın qondarma elitası, hamınız buradan rədd olun". Yaxud "Köçəryan, Sərkisyan, Karapetyan və Sarukyanın rəhbərlik etdiyi qondarma Qarabağ elitasına deyirəm: kökünüzü kəsəcəyəm. Alçaqlar, niyə yaşayırsınız? Niyə hələ də yaşadığınızı açıqlayın. Hələ üstümə gəlib beş min qurbandan danışırsınız. O beş min qurban niyə oldu? Siz niyə onların içində deyilsiniz, ay alçaqlar?". Əlbəttə, Paşinyanın bütün fikirlərini diqqətə çatdırmağa lüzum görmürük. Çünki məqsədimiz başqadır. Məqsədimiz "Qarabağ məsələsi"nin erməni cəmiyyəti üçün patoloji xəstəlik halına gəldiyini vurğulamaqdır. Daha bir məqsədimiz var ki, ona sonda aydınlıq gətirəcəyik.

Bəli, hay toplumundakı xəstəlik o dərəcədə ciddidir ki, ölkənin parlament seçkiləri kimi taleyüklü prosesi məhz Qarabağ amili üzərində qurulur. Hesab edirik ki, dünyada başqasının torpağına fokuslanıb seçki ritorikası formalaşdıran ikinci bir dövlət və xalq yoxdur. Mövcud məqama dünya birliyi də diqqət yetirməlidir. Çünki Cənubi Qafqaz beynəlxalq aləm üçün son dərəcə önəmli nöqtədir. Qeyd edək ki, Paşinyan ötən həftəki çıxışlarının birində erməni xalqının durğunluq psixologiyasından əl çəkməli, Ermənistan Respublikasını vətən və sığınacaq kimi qəbul etməli olduğunu vurğulamışdı: "Nəhayət, vətən axtarışı prosesinin başa çatdığını bəyan etməliyik. Biz öz vətənimizi tapmışıq. Bu, Ermənistan Respublikasıdır".

Müasir dövrdə bir xalq hələ də vətən axtarışındadır. Paşinyan öz xalqının sərsəm nümayəndələrini "xoş sözlərə" qonaq edirsə, başqa xalqların təmsilçilərinin təhqirə layiq zümrənin başına nə oyun açmalı olduğunu təsəvvürə gətirmək çətin deyil. Hər halda, kimlərinsə, yumşaq desək, şıltaqlığı ilə oynamağa dəyməz...

Əlqərəz, Paşinyan kifayət qədər açıq gedişlər edir. Məsələn, hayların ərazi iddiası xəstəliyini yol kənarında dayanacaqda olmaq hissi ilə müqayisə edən Nikol obrazlı şəkildə bildirib ki, insan bu halda tam dincələ və ya özünü təhlükəsiz hiss edə bilmir: "Bugünkü siyasi prosesin əsas məqsədi Ermənistan Respublikasının dayanacaq yeri kimi qəbul edilməsini dəyişdirməkdir. Biz çatmışıq".

Qeyd edək ki, Nikol Qarabağ ermənilərinin də mənzil başına çatdıqlarını vurğulayaraq deyib ki, onlar durğunluq hisslərini dəyişməli və Ermənistanda məskunlaşmalıdırlar: "...bu insanlar da bizim kimi məskunlaşsınlar, dayanacaq hissini təyinat yeri hissi ilə əvəzləsinlər". Bəli, Paşinyan erməni xalqının dayanacaq hissini təyinat yeri hissi ilə əvəzləməsinə maneçilik törədənləri təhqir edir. Əslində, onun senzuradan kənar ifadələri ikibaşlıdır. Aydındır ki, Nikolu daha çox özündən çıxaran ərazi iddiası məntiqini hay toplumunun canına yeridən xarici qüvvələrdir. O qüvvələr ki, "Qarabağ kartı"nı yenidən işə salıblar və istəkləri bu mənfur kartın vasitəsilə Cənubi Qafqazda təsir dairəsi formalaşdırmaqdır. Axı onlar uzun müddət regiondakı varlıqlarını məhz Azərbaycan və erməni xalqları arasında nifaq toxumları səpməklə, düşmənçilik yaratmaqla sürdürüblər. Hazırda isə bu qüvvələr məğlubiyyətə uğrayıblar və Ermənistandakı parlament seçkiləri belələri üçün revanş şansıdır. Şansı əldən vermək istəmir, tarixi sülh və barış imkanını aradan qaldırmağa səy göstərirlər.

Qərbin və Rusiyanın erməni avantürizmini işə saldığını hər zaman bildirmişik. Amma bu da bir faktdır ki, erməni toplumunun özü də avantürizmə meyillidir. Bu toplumun müstəqil rasional düşüncə qabiliyyəti, böyük ölçüdə, olmayıb. Məsələn, erməni cəmiyyəti azərbaycanlılara və türklərə qarşı düşmənçilik və pataloji nifrətlə nəyi itirdiyinin fərqinə varmayıb. Paşinyan Qarabağ ermənilərinə səslənib onların vətənlərini Ermənistan Respublikası adlandırırsa və bu kateqoriyadan olan hayların Ermənistanda ömür sürməli olduqlarının deyirsə, faktın özü dəhşətlidir. Axı Bakını, Qarabağı, ümumən, Azərbaycanda yaşadığı hansısa rayonu, bölgəni özünə vətən, doğma yurd bilən ermənilər olub və bu zaman heç bir problem yaşanmayıb. Eləcə də Azərbaycanın çoxsaylı digər millətlərin və etniklərin vətəni kimi qəbulunda hansısa çətinlik yoxdur.

Problem o zaman yarandı ki, ermənilər kənar elementlərin təsiri ilə ambisiyalara qapıldılar, daha dəqiq desək, avantürizmin girovuna çevrildilər. Məhz həmin elementlərin "rolunun" nəticəsidir ki, bu gün ermənilərlə azərbaycanlıların dinc yanaşı yaşamaları təsəvvürə gətirilmir. Paşinyan məhz bu vəziyyəti formalaşdıranları söyür: "Talançı heyvanlar. Siz Qarabağ ermənilərini də girov götürmüşdünüz! Bəli, girov götürmüşdünüz! İndi gəlib Qarabağ məsələsini qaldırırsınız. Əgər belə Qarabağ istəyirdinizsə, gedib ölərdiniz də. Niyə yaşayırsınız? Bax, siz, sən niyə yaşayırsan? İndi də gəlib mənimlə beş min nəfər qurban barədə danışırsan, ay alçaq, niyə yaşayırsan? Bəs Şahramanyan niyə yaşayır? Hələ o biriləri demirəm! İndi sizin "parlament"də "deputat" hesab olanlar nə üçün yaşayırlar? Niyə ölməyiblər? İndi gəlib deyirlər ki, beş min qurban gedib. Bəs siz niyə ölmədiniz? Sizi kim qoruyub-saxlayır, ay şərəfsizlər?". Paşinyan nə dediyinin fərqindədir. Təhqirə "qonaq etdiyi" şəxsləri saxlayanlar var və onlar erməni cəmiyyətini keçmişin mənfi klişelərindən uzaqlaşmağa imkan vermirlər. Belə görünür, parlament seçkiləri yaxınlaşdıqca, Ermənistanda vəziyyət bir qədər də mürəkkəbləşəcək, hətta son dərəcə ciddi qarşıdurmaların və silahlı insidentlərin qeydə alınması mümkündür. Sonda isə əvvəldə haqqında söz açdığımız məqama diqqət yetirək.

Prezident İlham Əliyev mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə bildirmişdi ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, Ermənistan xalqının başı dərddə olacaq. Baş nazir Paşinyanın təhqirləri sıralaması da onu göstərir ki, erməni xalqının başının dərddə olmasını istəyənlər və Azərbaycana qarşı nifrət hissi ilə yaşayan qüvvələr xeyli aktivləşiblər. Hər halda, Nikolun özündən çıxması, emosiyalarına hakim kəsilə bilməməsi və ilk baxışdan ölkə rəhbərinə yaraşmayan tona keçməsi məhz bununla əlaqədardır.

Belə nəticəcəyə gəlirik ki, Azərbaycan üçün Ermənistan mövzusu, ən azı, qarşıdakı 10-20 il ərzində aktual əhəmiyyət daşıyacaq. Zəngilan sakinləri ilə görüşündə Prezident İlham Əliyev mövcud məqamı da özünəxas şəkildə vurğuladı. Yazımızı dövlətimizin başçısının müdrikliklə səsləndirdiyi aşağıdakı fikirləri təqdim etməklə bitiririk: "Ermənistan cəmiyyətində Azərbaycana qarşı nifrət hissi ilə yaşayan siyasi qüvvələr var, bir o qədər də biz ayıq olmalıyıq".

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Rusiya Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidməti bu gündən etibarən Ermənistandan gətirilən gül məhsullarının idxalına müvəqqəti məhdudiyyət tətbiq olunacağını açıqlayıb. Qurumun yaydığı məlumatda qeyd olunub ki, məhdudiyyətlər Ermənistandakı istixana təsərrüfatlarında yoxlamalar başa çatana və onun nəticələri tam təhlil edilənə qədər qüvvədə olacaq.**

# İrəvana "gül təzyiqi"

## *Kremlin ixrac qadağası yeni təsir dalğasına hesablanıb*

"Rosselxoznadzor" vurğulayıb ki, qəbul edilmiş qərarın məqsədi Rusiyanın ixrac potensialını və fitosanitar rifahını qorumaqdır. Məlumatda, həmçinin bildirilir ki, Ermənistanın Qida Təhlükəsizliyinə Nəzarət Orqanı zəmanət versə də, Avrasiya İqtisadi İttifaqı (Aİİ) üçün karantin hesab olunan obyektlərin aşkarlanması davam edir. Qeyd edilib ki, 96,2 milyon ədəd gülçülük məhsulunun idxalı zamanı 135 pozuntu halı aşkarlanıb ki, bu da 2025-ci ildə qeydə alınan ümumi halların 77 faizini təşkil edir.



Dünən Ermənistanın Qida Təhlükəsizliyinə Nəzarət Orqanının mətbuat xidməti məlumat yayaraq "Rosselxoznadzor"un nümayəndə heyətinin bitki və heyvan mənşəli məhsul istehsal edən bir sıra müəssisələrdə birgə yoxlamalar aparmaq məqsədilə Ermənistana səfər etdiyini açıqlayıb. Bildirilib ki, rusiyalı baytarlıq və fitosanitar sahə mütəxəssisləri erməni tərəfdaşları ilə birlikdə bitki və heyvan mənşəli məhsul istehsal edən bir sıra müəssisələrdə yoxlamalar keçirəcəklər.

"Yaxın 7 gün ərzində Ermənistanın Rusiyaya ixrac etdiyi fitosanitar və balıqçılıq məhsullarının Aİİ-nin qanunvericilik tələblərinə və normalarına uyğunluğunu yoxlamaq məqsədilə 8 bitkiçilik və 4 balıqçılıq müəssisəsində nəzarət tədbirlərinin aparılması planlaşdırılır", – deyə qurumdan bildirilib. Qeyd olunub ki, mayın 21-də "Rosselxoznadzor" nümayəndə heyəti Ermənistanın Qida Təhlükəsizliyinə Nəzarət Orqanının rəhbəri Tiqran Petrosyanın başçılığı ilə erməni tərəfdaşlarla görüş keçirib. Görüş zamanı planlaşdırılan nəzarət tədbirlərinin gündəliyinə daxil olan məsələlər müzakirə olunub. Rusiya nümayəndə heyətinin rəhbəri Aleksey Şeqlov erməni tərəfinə mövcud vəziyyətə operativ reaksiya verdiyinə və birgə nəzarət tədbirlərini təşkil etməyə hazır olduğuna görə təşəkkür edib. Petrosyan isə iki ölkənin aidiyyəti qurumları arasında əməkdaşlığın həmişə konstruktiv xarakter daşıyacağını vurğulayıb.

Ölkənin iqtisadiyyat naziri Gevorq Papoyan dünən səhər jurnalistlərə açıqlamasında bildirib ki, onun rəhbərlik etdiyi qurum "Rosselxoznadzor"dan Ermənistandan Rusiyaya gül məhsullarının idxalına məhdudiyyət qoyulması ilə bağlı rəsmi bildiriş almayıb. "Biz rəsmi məlumat almamışıq. Bildiyim qədər, hazırda Ermənistanda "Rosselxoznadzor"un ekspertləri fəaliyyət göstərir və konkret şirkətlərdə araşdırmalar aparırlar.

Bunlar fəaliyyəti məhdudlaşdırılmış istehsalçılardır və əgər müsbət rəy alsalar, ixrac imkanları yenidən açılacaq", – deyə o, hökumətin iclasından sonra keçirilən brifinqdə bildirib. Nazir yoxlamaların nə vaxt başa çatacağı ilə bağlı məlumat verə bilməyəcəyini qeyd edib. Onun sözlərinə görə, nazirlik rəsmi bildiriş almadığı üçün proseslərin gedişi barədə dəqiq məlumata malik deyil. Papoyan, həmçinin istisna etməyib ki, Ermənistanda bəzi siyasi qüvvələr biləräkdən erməni məhsullarının Rusiyaya ixracı üçün çətinlik yaratmağa çalışırlar.

*

Qeyd edək ki, 2026-cı il aprelin 28-də Rusiyanın İstehlakçı Hüquqlarının Müdafiəsi və İnsan Rifahına Nəzarət üzrə Federal Xidməti Ermənistanda istehsal olunan "Cermuk" mineral suyunun Rusiyaya idxalının və satışının müvəqqəti dayandırılması ilə bağlı sanitariya tədbiri tətbiq etdiyini açıqlamışdı. Qurum bildirmişdi ki, məhsul markalanmada göstərilən məlumatlara uyğun gəlmir və bu, qayda pozuntusu hesab olunur.

Məlumatda deyilirdi: "2026-cı aprelin 28-dən "Rospotrebnadzor" "Cermuk" təbii müalicəvi-süfrə qazlı içməli mineral suyunun Rusiya ərazisinə idxalını və dövriyyəsini müvəqqəti dayandırıb. Məhsul markalanmada göstərilən məlumatlara uyğun deyil və bu, Aİİ-nin "Təbii mineral su daxil olmaqla qablaşdırılmış içməli suyun təhlükəsizliyi haqqında" texniki reqlamentinin tələblərinin pozulmasıdır. Suda hidrokarbonat-ionların, xloridlərin və sulfatların normadan artıq olduğu aşkarlanıb".

Ancaq İrəvanda Rusiyanın müvafiq qurumlarının verdikləri qərarla razılaşmırlar. Hakimiyyət məsələni yoluna qoymağa çalışsa da, hökumətyönlü mediada və teleqram kanallarında baş verənlər Baş nazir Nikol Paşinyana seçkiqabağı təzyiq kimi qiymətləndirilir. Məsələn, hökumətin siyasətini müdafiə edən "Baqramyan 26" teleqram kanalında mayın 21-də yerləşdirilmiş "Kreml şantajını davam etdirir!" sərlövhəli məqalədə Ermənistanda seçkilər ərəfəsində Kremlin ölkədə daxili siyasi proseslərə təsir göstərməyə çalışdığı iddia olunur. Mətn müəllifləri hesab edirlər ki, Rusiya müxtəlif vasitələr – iqtisadi təzyiq, dezinformasiya, kibertəhdid və şantaj yolu ilə Ermənistanda seçkilərin nəticələrinə təsir etməyə çalışır.

Bəyanatda xüsusilə Robert Koçaryan, Samvel Karapetyan və Qaqik Sarukyanın adı çəkilərək onların Kremlin dəstəklədiyi siyasi qüvvələr olduğu vurğulanır. Müəlliflər iddia edirlər ki, Moskvanın əsas məqsədi bu qüvvələri hakimiyyətə gətirmək olmasa da, ən azı parlamentdə təmsil olunmalarını təmin etmək, seçkilərin legitimliyini şübhə altına almaq və ölkədə qeyri-sabitlik yaratmaqdır. Mətn müəllifləri hesab edir ki, Ermənistanla Azərbaycan arasında sülhün əldə olunması Kremlin Ermənistana hərbi təzyiq imkanlarını zəiflədib. Buna görə də Moskvanın iqtisadi və informasiya vasitələrinə üstünlük verdiyi qeyd olunur. Məqalədə "Rosselxoznadzor"un Ermənistandan gülçülük məhsullarının idxalına tətbiq etdiyi müvəqqəti məhdudiyyət də siyasi təzyiq nümunəsi kimi təqdim edilir. Qərarın rəsmi səbəbi fitosanitar təhlükəsizlik və Rusiyanın ixrac potensialının qorunması olsa da, müəlliflər bunu Ermənistana qarşı iqtisadi təzyiq vasitəsi hesab edirlər.

Eyni zamanda, qeyd olunur ki, Rusiyanın mümkün iqtisadi sanksiyaları uzunmüddətli olmayacaq və seçkilərdən sonra dayandırılacaq. Mətn müəllifləri həmçinin qeyd edirlər ki, bu cür addımlar Avrasiya İqtisadi İttifaqının prinsiplərinə ziddir və təşkilatın nüfuzuna zərbə vurur.



**Politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, Ermənistan–Rusiya münasibətlərində son aylarda müşahidə olunan gərginlik artıq yalnız siyasi bəyanatlarla məhdudlaşmır, iqtisadi müstəviyə də keçir. Onun sözlərinə görə, Rusiyanın Ermənistan mənşəli məhsullara – əvvəlcə balıq və mineral suya, indi isə gül ixracına məhdudiyyət tətbiq etməsi İrəvanda siyasi təzyiq aləti kimi qiymətləndirilir: "Rəsmi Moskva qərarları fitosanitar və texniki tələblərlə əsaslandırsa da, proseslərin Ermənistan daxilində seçkiqabağı siyasi atmosferlə paralel inkişaf etməsi diqqət çəkir. Xüsusilə Ermənistan hakimiyyətinə yaxın dairələr bunu Kremlin regional təsir imkanlarını qorumaq cəhdi kimi təqdim edir. Sülh gündəliyinin irəliləməsi fonunda Rusiyanın təhlükəsizlik arqumentləri zəiflədiyi üçün iqtisadi və informasiya rıçaqlarının ön plana çıxdığı iddia olunur".

Ekspert hesab edir ki, digər tərəfdən, Rusiya bazarından ciddi asılı olan Ermənistan üçün belə məhdudiyyətlər iqtisadi baxımdan həssas məsələdir. Mövcud vəziyyət göstərir ki, Cənubi Qafqazda geosiyasi rəqabət artıq təkcə diplomatik deyil, ticarət və iqtisadi münasibətlər üzərindən də aparılır.

***Səxavət HƏMİD***
***XQ***

# Rusiya XİN-in "The Insider" qəzəbi

*(əvvəli 5-ci səhifədə)*

O zaman Azərbaycandakı "Rus evi"nin fəaliyyətini dayandırma səbəblərindən söz açaq. Ölkəmizdə belə bir fikir var ki, qurumun əsas icra tərəfi olan "Rossotrudniçestvo"nun işində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi, habelə digər məsələlərlə bağlı kifayət qədər etinasız yanaşmalar var. Güman edirik, Azərbaycandakı və Ermənistanda iddia olunan durumdakı oxşarlığı duya bildiniz. Məşhur "Uzaq sahillərdə" filmində deyildiyi kimi, eyni dalğa, eyni koordinat. Görəsən niyə?



Digər tərəfdən, nə üçün Rusiyada İrəvanın Moskva ilə münasibətlərinin inkişafını dəstəkləyən erməni müxalifətinin və ictimai xadimlərin nüfuzdan salınması cəhdlərindən narahatdırlar? Hər halda, bu məqam ölkə XİN-in bəyanatında ifadəsini tapır və vurğulanır ki, erməni cəmiyyətinə primitiv sxem təlqin etməyə çalışırlar və bu sxemə görə, hökumətin tənqidi, guya, Moskva üçün işləmək deməkdir.

O zaman növbəti sual yaranır: Ermənistan hökumətinin tənqidlə üzləşməsi Moskvaya işləmək deyilsə, Rusiya XİN nə üçün Kremllə münasibətlərinin inkişafını dəstəkləyən erməni müxalifətinin və ictimai xadimlərinin nüfuzdan salınmasından narahatdır? Axı prinsip etibarilə mövcud tendensiyaya münasibət bildirilməməlidir. Münasibət bildirilirsə, istər-istəməz, Rusiyanın hay müxalifətinin hamisi obrazı canlanır. Beləmi olmalıdır?

Sonda bir məqamın da üzərində dayanaq. Deməli, Rusiya XİN-in bəyanatında təəccüb hissi ilə o da bildirilib ki, Ermənistan rəhbərliyinin bəzi nümayəndələri "The Insider"ə nüfuzlu resurs kimi yanaşıb, orada yer alan tezisləri dəstəkləyiblər. Əlbəttə, bu deyim vurğunu Baş nazir Nikol Paşinyanın üzərinə qoyur. Çünki məhz Paşinyan nəşrin materialından söz açmış və ölkəsindəki müxalifət liderlərinə münasibət baxımından dilə gətirdiyi "üçbaşlı müharibə partiyası" ifadəsi ilə "üçbaşlı casuslar partiyası" ifadəsi arasında, bir növ, paralel aparmışdı. Rusiyanın baş diplomatiya idarəsi isə bəyanatında erməni xalqının özünü aldatmağa imkan verməyəcəyinə əminlik ifadə edib və bu fikirlə Ermənistandakı seçkinin Moskvaya qarşı olan qüvvələrlə ruspərəstlərin siyasi savaşı olacağı barədə təəssürat yaradıb. Aydındır ki, belə bir rəyin formalaşdırılmasında hay cəmiyyətinə mesaj payı var. Başlıca məsələ bu mesajın nə dərəcədə düzgün olmasıdır.

Hər halda, Rusiyanın dolayı və subliminal xarakter daşısa da, özündə Ermənistandakı heç bir prosesə, o cümlədən parlament seçkiləri kimi taleyüklü hadisəyə qarışmaq şübhəsi yaradan hərəkət və davranışlardan çəkinməli olduğu birmənalıdır. Halbuki, XİN-in bəyanatı onu deməyə əsas verir ki, Kremlin Ermənistanla bağlı başqa ssenarilərinin də nəzərdə tutulması mümkündür. Məsələn, "Rusiyaya rəğbət bəsləyən erməni əhalinin qorunması" tezisini götürək. Nəzərə alaq ki, solovyovlar və digər başıpozuq imperialist təfəkkürlü intellektuallar ayrı-ayrı çıxışlarında buna dair anonslar verərək sərsəmləyirlər. Belə yanaşma Ermənistanın suveren dövlət statusunu heçə saymaq deyilmi? Bu sualımız da ritorikdir. Həm də ona görə ki, görünən dağa bələdçi lazım deyil.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ümumdünya Şəhərsalma Forumunun 5-ci günündə sessiya və təqdimatlar

**Forumun 5-ci günündə şəhərlərin böhranlardan sonrakı bərpa prosesi, dayanıqlı yaşayış məkanlarının yaradılması və gələcəyin urban inkişaf strategiyaları əsas müzakirə mövzularından oldu. Gün ərzində təşkil olunan panel sessiyaları, iclaslar və dəyirmi masalarda müharibə, təbii fəlakət, iqlim dəyişikliyi və sosial böhranlardan zərər görmüş yaşayış məntəqələrinin yenidən qurulması istiqamətində beynəlxalq təcrübələr təqdim edildi.**

**Ekspertlər gələcəkdə şəhərlərin iqlim dəyişikliklərinə qarşı daha davamlı olması üçün innovativ texnologiyaların və rəqəmsal həllərin tətbiqinin vacibliyini vurğuladılar.**

## "BMT-nin 2026-cı il Su Konfransında şəhər mənzillərinin yol xəritəsi"



**Anaklaudia Rossbax, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru:**

– Hazırda dünyada bir milyard insanın yaşadığı qeyri-formal yaşayış məntəqələrində suya çıxış problemi qalmaqdadır. 1 milyard insanın yaşadığı gecəqondu və qeyri-formal yaşayış məntəqələrində suya tələbatın ödənilməsi prioritetlərdəndir. Su təminatı ilə bağlı problemlərin həlli üçün həm şəhərsalma, həm də sosial mənzil siyasəti paralel şəkildə həyata keçirilməlidir.

Urbanizasiya su ehtiyatlarına ciddi təzyiq göstərir. Şəhərlər ərazi baxımından əhali artımından daha sürətli şəkildə genişlənir. Bu da təbii resursların azalmasına səbəb olur. Urbanizasiya və şəhərsalma təbiətlə sinxron şəkildə inkişaf etmir. Davamlı şəhərsalma və düzgün torpaq siyasəti su təhlükəsizliyində mühüm rol oynayır.

Su mənbələri inzibati sərhədlərlə məhdudlaşmadığı üçün yerli, regional və milli idarəetmənin birgə fəaliyyəti vacibdir. Su problemi sərhəd tanımır. Buna görə də güclü idarəetmə sistemləri qurulmalı, suyun hamı üçün əlçatan və ədalətli bölüşdürülməsi təmin edilməlidir.

**Henk Ovink, Qlobal Su İqtisadiyyatı Komissiyasının təsisçi komissarı və icraçı direktoru:**

– Çaylar, torpaq və yeraltı su ehtiyatlarından insanlar həddindən artıq istifadə edirlər. Bu mənbələr çirkləndirilir və onlardan düzgün idarə olunmur. Əsas problem isə təbiətdən qaynaqlanan "yaşıl su" ilə bağlıdır. Bitkilərdən və torpaqdan havaya yayılan su buxarı quru ərazilərdə yağıntının yarıdan çoxunu formalaşdırır. İqlim dəyişikliyi səbəbindən güclü yağışlar daha dağıdıcı xarakter alır. Su təkcə insanların ehtiyac duyduğu həyat deyil, həm də mədəniyyətləri, sərhədləri və qitələri birləşdirən amildir.

BMT-nin 2023-cü il Su Konfransı ərəfəsində yaradılmış Qlobal Su İqtisadiyyatı Komissiyası suyun iqtisadiyyat üçün əhəmiyyətini araşdırmaq məqsədi daşıyıb. Komissiyada prezidentlər, alimlər, icma liderləri və gənc fəallar təmsil olunurdu. Üzvlərin üçdəikisi əvvəllər su sahəsində çalışmamışdı. Məhz buna görə onlar suyun həqiqi dəyərini anlamaq üçün prosesə cəlb ediliblər. Suyun dəyəri daha çox hidrologiya dövriyyəsi ilə izah olunur.

**Norio Saito, Asiya İnkişaf Bankının Su təchizatı və şəhər inkişafı şöbəsinin rəhbəri:**

– Asiya İnkişaf Bankının Asiya və Sakit Okean regionunda fəaliyyət göstərdiyi bir çox ölkədə əsas problemlərdən biri maliyyə dayanıqlılığıdır.

Subsidiyalar çox vaxt real xərcləri qarşılaya bilmir və nəticədə insanlar davamlı şəkildə subsidiyalardan asılı vəziyyətə düşürlər.

Daha çox su istifadə edənlər adətən maddi imkanları daha geniş olan təbəqələrdir. Buna görə də su istifadəsi, subsidiyaların bölüşdürülməsi məsələlərinə daha diqqətli və ədalətli yanaşmaq vacibdir.

**Rose Molokoane, Gecəqondu Sakinlərinin Beynəlxalq Təşkilatının xüsusi nümayəndəsi:**

– Bir çox icmalarda insanlar hələ də təhlükəsiz içməli sudan məhrumdurlar və çirklənmiş su mənbələrindən istifadə etməyə məcbur qalırlar.

Beynəlxalq səviyyədə su təhlükəsizliyi ilə bağlı müxtəlif çağırışlar səslənsə də, bəzi icmalar gündəlik həyatda ən əsas su ehtiyaclarını belə qarşılaya bilmirlər.

Əsas xidmətlərlə bağlı siyasətlər hazırlanarkən kənd icmalarının, qeyri-rəsmi yaşayış məskənlərində yaşayan insanların və digər həssas qrupların real problemləri daha çox nəzərə alınmalıdır.

## "Böhrandan sonra mənzil bərpa və yenidənqurma işlərinin mərkəzindədir"

**Yalçın Rəfiyev, Azərbaycan Respublikası xarici işlər nazirinin müavini:**

– Ölkəmiz azad edilmiş ərazilərin bərpasına 15 milyard dollara yaxın maddi vəsait yönəldib. Bu kompleks yanaşmaya və uzunmüddətli strateji planlaşdırmaya əsaslanan ərazilərin münaqişədən sonra genişmiqyaslı bərpası və yenidən qurulması nümunəsidir.

Azad edilmiş torpaqlarda bərpa işlərinin əhatəli həyata keçirilməsi üçün zərərsizləşdirilməli olan 1,5 milyona yaxın mina və partlamamış hərbi sursat var. Azərbaycan bu məqsədlər üçün hər il böyük məbləğdə büdcə vəsaiti ayırır. Sıfırdan bərpa etdiyimiz ərazilərdə dayanıqlılıq, iqlimə uyğunlaşma və müasir şəhər planlaşdırması standartları nəzərə alınır.

**Paula Qaviriya, BMT-nin mənzil hüququ üzrə xüsusi məruzəçisi:**

– Məcburi köçkünlər öz şəhərlərinin dirçəldilməsi prosesində fəal iştirak etməlidirlər. Çünki onlar yerli dəyişikliklərin hərəkətverici qüvvəsidir. Bu insanların qərar qəbulu prosesinə cəlb olunması isə yenidənqurma



istiqamətindəki bütün səylərin təkcə legitimliyinə deyil, həm də uzunmüddətli dayanıqlılığına zəmanət verir.

Bələdiyyə orqanlarının bu sahədə rolu xüsusilə önəmlidir. Onlar bərpa prosesinin təxirəsalınmaz cari vəzifələrinin həllində, həm də uzunmüddətli inkişaf strategiyasında vacib olan "ön xətt"dədirlər.

Silahlı münaqişələrin təsirinə məruz qalmış ərazilərin bərpası müharibədən əvvəlki vəziyyəti geri qaytarmaq cəhdi kimi deyil, dərin sistem problemlərini aradan qaldırmaq üçün bir fürsət olmalıdır. Yenidənqurma prosesində bütün səylər münaqişələrin və əhalinin kütləvi şəkildə məcburi yerdəyişməsinin əsas səbəblərinə çevrilən bərabərsizliyin və sosial təcridin müxtəlif formalarının aradan qaldırılmasına yönəldilməlidir.

Bərpa prosesində insan ləyaqətinin qorunması, sosial həmrəyliyin möhkəmləndirilməsi və əhali ilə dövlət qurumları arasında etimadın qurulması da əhəmiyyətlidir. Uğurun əsas meyarı təkcə inşa edilmiş binaların sayı deyil, həm də keçmiş köçkünlərin cəmiyyətə inteqrasiyasıdır.

**Minq Çjan, Dünya Bankının şəhərsalma və çətinliklərin idarə edilməsi üzrə direktoru:**

– Böhranlardan və işğaldan sonra sürətli məskunlaşma şəffaf rəqəmsal sistemlər və vətəndaşyönümlü dəstək mexanizmləri olmadan mümkün deyil. Səmərəli bərpanın əsas şərti, ilk növbədə, zədələnmiş mənzillərin təmiri vasitəsilə ilkin mərhələdə sürətli nəticələrin əldə edilməsidir. Sürətli nəticələr əldə etmək vacibdir ki, insanlar yerlərdəki dəyişiklikləri dərhal görə bilsinlər.

Ukraynada "HOPE" layihəsi çərçivəsində mənzillərin bərpası üzrə ərizələrin verilməsi üçün rəqəmsal sistem yaradılıb. Bu da proseslərin şəffaflığını və yardımın sürətləndirilmiş paylanmasını təmin edir.

**Sultan Barakat, "Qətər" Fondu Həməd bin Xəlifə Universitetinin dövlət siyasəti üzrə professoru və York Universitetinin professoru:**

– Postmünaqişə və böhran zonalarında mənzil məsələlərinin həlli strategiyaları universal xarakter daşıya bilməz. Siyasi razılaşmanın əldə olunduğu və gələcək inkişaf üçün aydın planı olan hökumətin fəaliyyət göstərdiyi dövlətlərdə və regionlarda yaşayış fondunun bərpası prosesi daha nəzarətli olur. Bu isə maliyyələşdirmə mexanizmlərinin və texniki həllərin müəyyənləşdirilməsinə gətirib çıxarır.

Eyni zamanda, münaqişənin həll olunmamış qaldığı və ya etnik təmizləmə gündəmindən qaynaqlandığı vəziyyətlərdə bu məsələ bütün maraqlı tərəflər üçün son dərəcə həssaslıq tələb edir. Mənzil haqqında ümumi qlobal kateqoriyalarla mühakimə yürütməyə isə son qoymaq lazımdır.

## "Yaxın Şərq böhranı və onun qlobal mənzil və şəhərsalmaya təsiri"

**Lajana Manandhar, Asiya Mənzil Hüquqları Koalisiyasının nümayəndəsi və icma əsaslı mənzil hüquqları müdafiəçisi:**

– Nepal, Pakistan, Hindistan, Şri-Lanka və digər Cənubi Asiya ölkələrində ailələr öz yaxınlarını, qardaş-bacılarını, oğul-qızlarını Yaxın Şərqə işləməyə göndərirlər. Regiondakı böhran vəziyyəti həmin ailələrin ümidlərini alt-üst edir.

Məqsəd gəlir əldə etmək, ailəyə pul göndərmək, uşaqları məktəbə göndərmək, tibbi xərcləri qarşılamaq və ya daha yaxşı mənzil şəraiti qurmaqdır. Onlar həmin ölkələrin şəhərlərinin və iqtisadiyyatlarının inkişafına töhfə verirlər ki, əvəzində öz ailələri üçün daha təhlükəsiz və daha yaxşı həyat qura bilsinlər. Amma belə böhranların təsiri son dərəcə ağır olur.

**Filip Decorte, BMT-nin Məskunlaşma Proqramının rəsmisi:**

– Yaxın Şərq ölkələrinin öz daxili müharibələri və problemləri ilə bağlı vəziyyətlə yanaşı, həm də böhranının xaricdən gətirdiyi təsirləri anlamaq lazımdır. Ötən həftə Livan və Suriyada oldum, vəziyyət dözülməz səviyyəyə çatıb. Livanda məni xüsusi təəssüfləndirən mənzərə yeni genişmiqyaslı köçkünlük problemi oldu.

UN-Habitat və ümumilikdə, BMT olaraq biz çox vaxt məktəb, xəstəxana və digər ictimai binalarda sığınacaq tapanlara diqqət yetiririk. Həmkarlarla, hökumətlərlə söhbətlər zamanı məlum oldu ki, insanların, təxminən, 50 faizi, əslində, kirayədə yaşayır. Onlar generatorlardan istifadə etməyə məcbur qalıblar. Buna görə də yanacaq qiymətlərinin artması bu insanları ağır vəziyyətə salır.

**Patrisiya Skotland, Millətlər Birliyinin baş katibi:**

– Yaxın Şərqdə davam edən münaqişələr yalnız regional humanitar faciə deyil, həm də mənzil və şəhərsalma sistemlərinə ciddi təsir göstərən beynəlxalq böhrana çevrilib.



Yaxın Şərqdəki münaqişələrin nəticələri Qəzza, Livan, Suriya və Yəmənlə məhdudlaşmır.

Bu böhranın təsirləri Afrikadakı qeyri-rəsmi yaşayış məntəqələrində, Avropanın kirayə mənzil bazarlarında, Asiya-Sakit okean regionunun həssas şəhər icmalarında və kiçik ada dövlətlərinin kövrək yaşayış məkanlarında da hiss olunur.

## "Çoxtərəflilik vasitəsilə mənzil təminatının inkişafı: Qlobal öhdəliklərdən yerli təsirə doğru"

**Anar Quliyev, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri:**

– Mənzil təminatı şəhərlərin dayanıqlı inkişafının, iqtisadi sabitliyin və sosial ədalətin əsas sütunlarındandır. Qlobal miqyasda sürətlənən urbanizasiya fonunda hər bir ölkə üçün əsas çağırış, vətəndaşların keyfiyyətli, əlçatan və təhlükəsiz mənzilə çıxış imkanlarının təmin edilməsidir.

Azərbaycan da bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Şəhərsalma sahəsində aparılan islahatlar, yeni yaşayış məhəllələrinin planlı inkişafı, sosial infrastrukturun gücləndirilməsi və rəqəmsal planlaşdırma alətlərinin tətbiqi bu siyasətin əsas istiqamətlərini təşkil edir. Bizim məqsədimiz yalnız mənzil tikintisini artırmaq deyil, həm də inklüziv, yaşıl və dayanıqlı şəhər mühitinin formalaşdırılmasıdır. Gələcək şəhərləri planlaşdırarkən insan amili, sosial bərabərlik və ekoloji balans əsas meyar kimi çıxış etməlidir.

**Anaklaudia Rossbax, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru:**

– Mənzil problemini həllinə nail olan ölkələr bunu daxili maliyyələşmə hesabına edirlər. Daxili maliyyə sistemini yönləndirə və ya inkişaf etdirə bilməyən ölkələr isə mənzil məsələsi ilə məşğul olmurlar.

Qlobal məskunlaşma böhranının fəsadları ölkələr arasında fərqlidir. Bəzi coğrafiyalar, bəzi icmalar daha ciddi problemlə üzləşirlər. Müəyyən regionlar və icmalar daha kəskin problemlərlə üzləşdiyi halda, onların mövcud potensialları da kəskin fərqlənir. Bu baxımdan, WUF13-ün imkanlarından, xüsusilə WUF Akademiyasından səmərəli istifadə edərək, vahid bir platforma yaratmalıyıq. Bu birlik müştərək tədqiqat gündəliyi ətrafında formalaşmalı və ümumi potensialın artırılmasına xidmət etməlidir.

**Mladen İvaniç, Bosniya və Herseqovinanın sabiq prezidenti:**

– Şəhərlərin sürətli böyüməsi fonunda əsas problem təkcə yeni tikintilər deyil, eyni zamanda, mövcud resursların ədalətli və səmərəli bölüşdürülməsidir. Təcrübə göstərir ki, qlobal səviyyədə qəbul edilən öhdəliklər yalnız yerli icra mexanizmləri güclü olduqda real nəticə verir. Əks halda, ən yaxşı strategiyalar belə sənəd üzərində qalır.

Bu baxımdan, dövlətlər arasında koordinasiya mexanizmlərinin gücləndirilməsi, şəhər idarəçiliyində şəffaflıq və uzunmüddətli planlaşdırma əsas prioritetlərdən olmalıdır. Mənzil təminatı yalnız infrastruktur deyil, həm də sosial balans məsələsidir.

Bir çox insanlar hesab edir ki, çoxtərəfli institutlar böhran içindədir. Mən isə bununla razı deyiləm. Bu, bəlkə də siyasi baxışlardan asılıdır. Lakin ixtisaslaşmış çoxtərəfli institutlar hələ də çox səmərəlidir. Mən UNESCO olmadan dünyanın necə olacağını təsəvvür edə bilmirəm. Ümumdünya Səhiyyə Təşkilatı da çox yaxşı və səmərəlidir. Bəzi məsələlərdə, xüsusilə siyasi səbəblərlə bağlı böhranlar var, amma bu institutların bütövlükdə böhran içində olduğunu düşünmürəm. Onlar kifayət qədər yaxşı və səmərəlidir. Mənim mesajım budur: əgər digər ölkələr barədə düşünürsünüzsə, Dünya Bankına və ya Avropa İttifaqı kimi qurumlara daha çox maliyyə ayırın. Bu, çox vacibdir. Əgər maliyyə töhfələri verilərsə, bu, real nəticələr əldə etməyə kömək edə bilər

**Patrisia Skotland, Millətlər Birliyinin sabiq baş katibi, Birləşmiş Krallıq Lordlar palatasının üzvü:**

– Müxtəlif ölçülü və fərqli normalara malik ölkələr mövcuddur və resurslar çox məhduddur. Ona görə də biz bir-birimizə necə kömək edə biləcəyimizi düşündük. Birincisi, dediyim kimi, məlumatları düzgün başa düşmək lazımdır. Bizə vahid və kompleks siyasət lazımdır. Həmçinin bərpaedici yanaşmanı düşünməliyik. Biz şəhərlərdən çox danışırıq və bu doğrudur, lakin şəhərlərə ayrıca baxmaq olmaz. Onların kəndlərlə qarşılıqlı əlaqəsi var. Buna görə də kompleks qiymətləndirmə çox vacibdir.

Amma ən vacib məsələ icradır. Biz məlumatları başa düşə bilərik, lakin əsas məsələ onların icrasıdır. Uzun illərdir ki, deyilənləri başa düşürük, amma onları necə həyata keçirmək lazımdır sualı qalır. Məncə, hədəflərin icrası üçün çox praktik yanaşma düşünmək lazımdır. Biz Millətlər Birliyində bunu etməyə çalışdıq.

Digərlərinin nələri yaxşı etdiyini, nələri isə yaxşı etmədiyini bilməliyik. Digər mühüm məsələ isə idarəetmə və icranın düzgün şəkildə həyata keçirilməsidir. Biz Millətlər Birliyində ümumi qəbul edilmiş performans idarəetmə prinsipi yaratdıq ki, 56 ölkənin hamısı nə etdiyini anlaya bilsin və bunu effektiv şəkildə həyata keçirə bilsin.

## "Evlərimiz, gələcəyimiz: Uşaqlar və gənclər üçün yaşanıla biləcək şəhər mühitlərinin birgə dizaynı"

**Anaklaudia Rossbax, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru:**

– Gənclər ilk olaraq yaşayış üçün ev axtarırlar. Amma onların nə kirayə, nə də ev almaq üçün kifayət qədər imkanları yoxdur. Nəticədə nə öz işlərini qura bilirlər, nə də təhsillərinə lazımi diqqət ayıra bilirlər. Bu vəziyyət bizə göstərir ki, həmin insanların yaşadığı hissləri anlamaq və problemin aktuallığını dərk etmək çox vacibdir.

"UN-Habitat" olaraq biz məsələnin əhəmiyyətini yaxşı anlayırıq və bu çərçivədə bir sıra təşəbbüslər həyata keçirmişik. Xüsusilə qadınlarla bağlı xüsusi təlimatlarımız, "Gənclər 2030" baxışı sənədimiz, uşaqlarla bağlı şəhərlərin tərəfdaşlığı platforması və gənclərin inkişafına yönəlmiş digər proqramlarımız mövcuddur.

Bütün bunlar kifayət deyil. Bir daha vurğulayırıq ki, forum bizə bu sahədə dərin əməkdaşlıq və daha güclü addımlar üçün imkan yaradır.

**Bahar Muradova, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri:**

– Azərbaycanda uşaqların müdafiəsi, onların inkişafına şərait yaradan təhlükəsiz mühitin təmin olunması və inklüziv sosial siyasətin gücləndirilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biridir. "Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiya" və mövcud qanunvericilik uşaqlar üçün təhlükəsiz və inklüziv mühitin yaradılmasını əsas prioritet kimi müəyyən edir.

Bu yanaşma şəhərsalma və ərazi planlaşdırmasında ictimai iştirakçılıq və sosialyönümlü prinsiplərə əsaslanır və uşaqların rifahının yaxşılaşdırılması üçün hüquqi baza yaradır. Uşaqlar üçün təhlükəsiz şəhərlər kompleks sosial yanaşma ilə formalaşır və WUF13 çərçivəsində aparılan müzakirələr bu istiqamətdə mühüm töhfə verir.

**Fərid Qayıbov, Azərbaycan Respublikası gənclər və idman naziri:**

– Azərbaycan gənclər və şəhər inkişafı məsələləri üzrə çoxtərəfli beynəlxalq əməkdaşlığı fəal şəkildə dəstəkləməyə davam edir. "D-8 Bakı Gənclər Bəyannaməsi"nin qəbulu ilə nəticələnən İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Gənclər Görüşünə ev sahibliyi etdik. Gənclər forumu çərçivəsində biz, həmçinin gənclərin səsinin qlobal səviyyədə eşidilməsi istiqamətində çalışdıq.

Bu istiqamətdə mühüm nümunələrdən biri də BMT-nin Məskunlaşma Proqramının dəstəyi ilə Türkiyə, Özbəkistan və Somali ilə birgə təşkil olunan "Şəhər innovasiyalarının genişləndirilməsi: ECOSOC Gənclər Forumu" adlı tədbirdir. Forumdakı müzakirələr gənclərin şəhər idarəçiliyində və yerli qərar qəbuletmə proseslərində iştirakının təmin



olunmasına güclü sadiqliyi nümayiş etdirdi.

Burada münasib qiymətli və inklüziv mənzil həlləri üzrə gənclərin rəhbərlik etdiyi təşəbbüslərin dəstəklənməsi üçün strateji və əməkdaşlığa əsaslanan dialoqların əhəmiyyətini vurğulamaq lazımdır. Bu müzakirələr göstərir ki, gənclər yalnız şəhər idarəçiliyində iştirak etməyə deyil, həm də daha əlverişli, inklüziv və dayanıqlı şəhərlər üçün innovativ həllərə rəhbərlik etməyə hazırdırlar.





***Hazırladılar:***
***Ləman TƏHMƏZ,***
***Fidan ƏLİYEVA,***
***Ra f İBRAHİMOV (foto),***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Bakı – Ər-Riyad “yaşıl enerji” əməkdaşlığı

**Azərbaycanın Səudiyyə Ərəbistanı ilə münasibətləri son illərdə strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək siyasi, iqtisadi və mədəni sahələrdə dinamik inkişaf mərhələsinə qədəm qoyub. Xüsusilə enerji sektoru Bakı ilə Ər-Riyad arasında əməkdaşlığın əsas dayaqlarından biri kimi çıxış edir. Hər iki ölkə zəngin neft və qaz ehtiyatlarına malik olsa da, müasir qlobal çağırışlar fonunda münasibətlərin əsas istiqamətlərindən biri məhz bərpaolunan enerji sahəsində əməkdaşlığın genişləndirilməsi olub.**



Səudiyyə Ərəbistanının layihə-inkişaf proqramlarının rəhbəri Həsən Alattas yerli mediaya açıqlamasında bildirib ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında enerji sahəsində əlaqələr uzun illərə söykənir və bu əməkdaşlıq ardıcıl şəkildə inkişaf edir. Onun sözlərinə görə, hələ COVID-19 pandemiyası dövründə Səudiyyə Ərəbistanının energetika nazirinin Azərbaycana səfəri iki ölkə arasında enerji dialoqunun yeni mərhələyə keçməsinə səbəb olub və tərəflər arasında koordinasiya daha da möhkəmlənib.

Qeyd etmək lazımdır ki, son illərdə əməkdaşlığın əsas ağırlıq mərkəzi alternativ və bərpaolunan enerji mənbələrinə yönəlib. Bu baxımdan “ACWA Power” şirkətinin Azərbaycandakı fəaliyyəti xüsusi diqqət çəkir. Səudiyyə Ərəbistanının aparıcı enerji şirkətlərindən biri olan bu qurum hazırda ölkəmizdə irihəcmli investisiya layihələrinin əsas tərəfdaşlarından biridir.

Bu il yanvarın 8-də Prezident İlham Əliyevin iştirakı ilə “ACWA Power” tərəfindən inşa edilən 240 meqavat gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirildi. Dövlət başçısı bildirdi ki, bu, “ACWA Power” şirkətinin Azərbaycanda həyata keçirdiyi ilk bərpaolunan enerji layihəsidir, lakin sonuncu olmayacaq: “Şirkətin daha böyük planları var və Azərbaycan dövləti bu planları tam dəstəkləyir”.

“Xızı-Abşeron” Külək Elektrik Stansiyası texniki və iqtisadi göstəricilərinə görə regionun mühüm layihələrindən biri hesab olunur. Layihənin icrası üçün Abşeron rayonunda 14,2 hektar, Xızı rayonunda isə 22,6 hektar olmaqla ümumilikdə 37 hektara yaxın ərazi ayrılıb. Burada hər birinin gücü 6,5 meqavat olan ümumilikdə 37 külək turbini quraşdırılıb. Onlardan 12-si Abşeron, 25-i isə Xızı rayonunun ərazisində yerləşir. Bununla yanaşı, layihə çərçivəsində müasir ölçü-müşahidə stansiyaları, quşların mühafizəsi sistemləri və digər ekoloji təhlükəsizlik mexanizmləri tətbiq edilib.

Layihəyə ümumilikdə təxminən 340 milyon ABŞ dolları həcmində birbaşa xarici investisiya yönəldilib. Stansiyanın illik elektrik enerjisi istehsal gücü təxminən 1 milyard kilovat-saat təşkil edəcək. Bu isə ildə 220 milyon kubmetr təbii qaza qənaət olunması və atmosferə 400 min tondan artıq karbon emissiyasının qarşısının alınması deməkdir. Layihənin baş podratçısı isə Çinin “Power China” şirkətlər qrupunun törəmə müəssisəsi olan “Power China Huadong Engineering Co., Ltd.” olub.

Bərpaolunan enerji sektorunda həyata keçirilən bu irimiqyaslı layihə bir daha göstərir ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əməkdaşlıq təkcə iqtisadi maraqlara deyil, həm də uzunmüddətli strateji hədəflərə əsaslanır. Tərəflər bu münasibətləri gələcəyin enerji təhlükəsizliyinin təmin olunması baxımından vacib hesab edir. Eyni zamanda, iki ölkə regional interkonnektor layihələri, “yaşıl enerji” dəhlizlərinin yaradılması və təmiz enerjinin daha geniş bazarlara ixracı istiqamətində də əməkdaşlıq imkanlarını geniş şəkildə müzakirə edir.

Məlum olduğu kimi, Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasında müəyyən edilmiş beş əsas milli prioritetdən biri “təmiz ətraf mühit və yaşıl artım ölkəsi” konsepsiyasıdır. Bu prioritet ölkənin enerji siyasətinin gələcək konturlarını müəyyənləşdirən əsas istiqamətlərdən biri hesab olunur. Qlobal iqlim dəyişikliklərinin yaratdığı çağırışlar fonunda ekoloji təmiz texnologiyaların tətbiqi, alternativ enerji mənbələrinin genişləndirilməsi və karbon emissiyalarının azaldılması dövlət siyasətinin əsas məqsədləri sırasındadır.

Bu çərçivədə ölkənin iqtisadi inkişafı ilə yanaşı, ətraf mühitin qorunması, yaşıllıq sahələrinin bərpası və genişləndirilməsi, su ehtiyatlarından səmərəli istifadə, həmçinin dayanıqlı enerji sisteminin formalaşdırılması prioritet məsələ kimi müəyyən olunub. Strateji hədəflərin uğurla həyata keçirilməsi üçün ölkədə “yaşıl enerji zonaları”nın sayının artırılması xüsusi əhəmiyyət daşıyır. Alternativ və bərpaolunan enerji mənbələrinin ilkin istehlakda payının artırılması, iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılması baxımından mühüm rol oynayır. Bununla yanaşı, ekoloji təmiz nəqliyyat vasitələrinin istifadəsinin genişləndirilməsi də atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir.

Bütün bu proseslər onu deməyə əsas verir ki, yaxın illərdə Azərbaycanda bərpaolunan enerji layihələrinin miqyası daha da genişlənəcək. Bu kontekstdə “ACWA Power” şirkətinin ölkəmizdə yeni layihələrə imza atacağı da istisna edilmir. Hazırda Azərbaycanın müxtəlif bölgələrində alternativ enerji layihələri uğurla həyata keçirilir. Yeni iri enerji obyektlərinin Biləsuvar, Neftçala, Naxçıvan və işğaldan azad edilmiş ərazilərdə istifadəyə verilməsi planlaşdırılır.

Artıq Qaradağ rayonunda 230 meqavat gücündə Günəş elektrik stansiyası və “Xızı-Abşeron” Külək Elektrik Stansiyası fəaliyyət göstərir. Cəbrayıl rayonunda isə hazırda üç yeni günəş elektrik stansiyasının tikintisi davam edir. Bu layihələrin ümumi gücü 340 meqavat təşkil edir ki, bu da ölkənin enerji balansında alternativ mənbələrin payının daha da artmasına töhfə verəcək.

Azərbaycanın coğrafi mövqeyi və təbii resursları isə bu sahədə ölkəyə xüsusi üstünlüklər qazandırır. Ölkənin dəmək olar ki, bütün bölgələrində bərpaolunan enerji mənbələrinin inkişafı üçün geniş imkanlar mövcuddur. Xüsusilə Xəzər dənizinin Azərbaycan sektorunda mövcud olan külək enerjisi potensialı beynəlxalq qiymətləndirmələrə əsasən 157 giqavat səviyyəsində dəyərləndirilir. Bu rəqəm region üçün böyük enerji potensialı deməkdir. Ekspertlərin qənaətinə görə, mövcud potensial və həyata keçirilən ardıcıl dövlət siyasəti Azərbaycanın yaxın gələcəkdə regionun ən etibarlı və yüksək elektrik generasiya gücünə malik ölkələrindən birinə çevriləcəyini göstərir.

*Musa BAĞIRLI*
*XQ*

# Naxçıvanda enerjiyə qənaət təlimi



**Prezident İlham Əliyevin tapşırıqlarına əsasən “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti ölkənin bütün regionlarında maarifləndirici görüşlərin keçirilməsini davam etdirir. Belə toplantılarda fermer və sahibkarların təklif və tövsiyələri dinlənilir, mövcud problemlərin həlli istiqamətində işlər aparılır. Görülən bütün işlər abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması, elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.**

Naxçıvan Muxtar Respublikasında keçirilən növbəti görüşdə fermer, sahibkar və vətəndaşların rahat fəaliyyəti, yaranan çətinliklərin aradan qaldırılması ilə bağlı məsələlər müzakirə edilib. Ordubad Elektrik Şəbəkəsinin binasında keçirilən görüşə 30-dək sahibkar və yerli sakin qatılıb. Görüş zamanı fermer, sahibkar və vətəndaşlara Prezident İlham Əliyevin tapşırıqlarına əsasən “Azərişıq” ASC-nin regionlarda həyata keçirdiyi yenidənqurma və əsaslı təmir işləri barədə məlumat verilib.

Bildirilib ki, ölkənin bütün regionlarında yeni güc mərkəzləri, müasir yarımstansiyalar tikilir, ən müasir standartlara cavab verən transformator məntəqələri qurulur, yeni dayaqlar basdırılır, özündədaşıyan izolyasiyalı naqillərdən istifadə edilərək yeraltı və yerüstü xətlər çəkilir. Bundan əlavə, abunəçilər elektron xidmətlər barədə məlumatlandırılıb. Xidmət mərkəzlərində vətəndaşlara göstərilən xidmətlər haqqında maarifləndirici söhbət aparılıb.

Maarifləndirici görüşdə yeni elektrik təchizatı şəbəkəsinə qoşulma prosesi, texniki şərtlərin verilməsi və ödəniş qaydaları izah edilib. Bununla yanaşı, vətəndaşların daha çox müraciət etdikləri digər xidmətlər – abonentin balansındakı avadanlıqlara texniki xidmət göstərilməsi, çoxmənzilli binalarda yaşayış mənzillərinin qeydiyyatı, sayğac zədələnməsi hallarında görüləcək tədbirlər, qeyri-əhali abonentlərinin ad dəyişikliyi prosedurları, smart kartın və qüsurlu ödənişlərin bərpası xidmətləri barədə ətraflı məlumatlar verilib.

Eyni zamanda, həm “ASAN xidmət” mərkəzlərində, həm də elektron platformalar üzərindən təqdim edilən bütün xidmətlər barədə geniş məlumat verilib, vətəndaşların və sahibkarların müraciətlərinin daha asan və sürətli həlli üçün yaradılan imkanlar vurğulanıb. Abunəçilərin ofis və evlərindən çıxmadan onlayn qaydada quruma müraciətetmə imkanları ətraflı izah olunub.

Sonda iştirakçıların müxtəlif məsələlərlə bağlı sualları dinlənilib, qaldırılan bəzi problemlər yerindəcə həll olunub.

*XQ*

# İmişlidə çiyid səpini başa çatıb



**İmişli zəngin pambıqçılıq ənənəsi olan rayonlardan biridir. Ötən əsrin 70-ci illərindən Azərbaycanda, o cümlədən İmişli rayonunda pambıq bitkisinin məhsuldarlığı artaraq hər hektardan 35-40 sentnerə çatdırılmışdır.**

Pambıqçılığın yüksək təşəkkül tapdığı İmişli rayonunda çiyid səpinini başa çatdırmaq üçün bütün qüvvələr səfərbər olunmuşdur. **İmişli Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Sabit Səmədovdan** aldığımız məlumata görə, ötən təsərrüfat ilində rayonda 7,9 min hektarda pambıq becərilmiş, 24,3 min ton “ağ qızıl” toplanmışdır. Məhsuldarlıq hər hektardan 30,8 sentner olmuşdur.

İdarə rəhbəri bildirib ki, 2026-cı il üçün İmişli rayonunda ümumilikdə 6369,72 hektar sahədə pambıq əkini həyata keçirmək üçün fermerlərlə müqavilə bağlanmışdır. “Prime Cotton” MMC 2442,72, “Azərpambıq” 1700, “P-Aqro” 820, “İnovasiya” 1107, “TST TEXTİL” MMC isə 300 hektar sahədə artıq çiyid səpinini başa çatdırmışdır. Hazırkı vəziyyətdə 4710,85 hektar sahədə çıxış əldə olunmuşdur. Əlbəttə, bu da yaxşı nəticənin əldə olunmasından xəbər verir. Fermerlərimiz bu il “Lazer”, “BA 10.10”, “Aramada” və “Ceyhan” məhsuldar toxum sortlarından istifadə ediblər.

DAİM-in direktoru qeyd etdi ki, pambıqçılığın inkişafı dövlətimiz tərəfindən dəstəklənir, pambıqçı əməyinə daim diqqət və qayğı göstərilir. Əvvəllər pambıq istehsalında, emalında, hazır məhsulun satışında mövcud olan süni əngəllər artıq aradan qaldırılmışdır. Pambığın alış qiymətinin artırılması bu qayğının daha bir parlaq nümunəsidir.

Rayonda kənd təsərrüfatı texnikaları ilə bağlı problem olmadığından cari mövsümdə çiyid səpinini qısa müddətdə başa çatdırmaq mümkün olmuşdur. Hazırda məhsulun əkilib-becərilməsində maşın-mexanizm, dərman preparatları sarıdan da çətinliklər yoxdur.

*Ərəstun ABDULOV*
*XQ*

# Azərbaycan çayının dünya şöhrəti



**Son illər ölkəmizdə çayçılıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu məqsədlə çayçılığın inkişafı strateji hədəf olaraq müəyyən edilib və bu sahəyə dövlət dəstəyi xeyli genişləndirilib. İxracın strukturunda çay məhsulunun payını artırmaq və yerli tələbatı ödəmək məqsədilə birbaşa subsidiyalar və imtiyazlar tətbiq olunur.**

Bu baxımdan dövlətin müəyyən etdiyi subsidiya mexanizmini xüsusi qeyd etmək olar. Belə ki, son 3 il ərzində salınan yeni çay plantasiyalarının hər hektarına görə fermerlərə 800 manat məbləğində subsidiya verilməsi nəzərdə tutulur. 2019-cu ilə qədər salınan plantasiyalar üçün də dəstək tədbirləri mövcuddur.

Hazırda ölkədə idxaldan asılılığı azaltmaq üçün qəbul edilən “Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı” icra olunur. Bununla yanaşı, yeni çay plantasiyalarının salınması üçün torpaq sahələrinin ayrılması və suvarma sistemlərinin qurulması istiqamətində işlər aparılır. Əsas hədəf isə əkin sahələrinin və məhsuldarlığın əhəmiyyətli dərəcədə artırılması, Azərbaycan çayının ixrac coğrafiyasının genişləndirilməsi, regionlarda yeni iş yerlərinin yaradılması və kənd təsərrüfatının gəlirliliyinin yüksəldilməsindən ibarətdir.

Azərbaycanda çayçılıq, əsasən, Lənkəran-Astara və qismən Şəki-Zaqatala iqtisadi rayonlarında inkişaf edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2026-cı ilin yanvar-aprel aylarında ölkədə 3 min 558,9 ton quru çay istehsal olunub. Bu da daxili bazarın keyfiyyətli məhsulla təminatında, idxaldan asılılığın azaldılmasında, eləcə də ölkəmizin ixrac potensialının artmasında əhəmiyyətli rol oynayır. Elə cari ilin birinci rübünün məlumatları da bunun təsdiqləyir. Belə ki, yanvar-mart aylarında Azərbaycana 3 min 158,6 ton çay idxal olunub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 23,6 faiz azdır.

Qeyd edək ki, çay təkcə gündəlik içki deyil, həm də kənd təsərrüfatı və ixrac potensialına malik məhsuldur. Cari ilin birinci rübündə ölkə üzrə çay ixracı 18,3 faiz artaraq 204,1 tona çatıb. Ümumilikdə, hazırda Azərbaycan quru və ya qara çay məhsullarını 20-yə yaxın ölkəyə ixrac edir. Çayımızın əsas alıcıları isə Rusiya (xüsusilə Dağıstan), Gürcüstan, Ukrayna, Səudiyyə Ərəbistanı, Almaniya, İsrail və başqa ölkələrdir.

Yeri gəlmişkən, Azərbaycanda ən böyük çay istehsalçılarından sayılan “Azərsun Holding”in təşkilatçılığı ilə 21 May–Beynəlxalq Çayçılıq Günü ilə əlaqədar jurnalistlər üçün Masallıya mediatur təşkil olunub.

Səfər çərçivəsində media nümayəndələri “Azerçay”ın çay plantasiyalarına baş çəkərək ilin ilk çay yığımı prosesi ilə yaxından tanış olublar. Mediatur iştirakçılarına yerli çayçılığın inkişafı istiqamətində görülən işlər, plantasiyalarda tətbiq olunan aqrotexniki üsullarla bağlı məlumat verilib.

“Sun Tea” çay fabrikinin direktoru Nuriyyə Rəhmanova yağış mövsümünün məhsuldarlığa müsbət təsir etdiyini diqqətə çatdıraraq deyib: “Artıq bağlarda çay yığımı başlayıb. Bu il məhsuldarlığın daha yaxşı olacağını gözləyirik. Ötən ilə nisbətən, təxminən, 10-12 faiz artım müşahidə olunacaq”.

Müəssisənin məsul işçisi Altay Abbasov isə əvvəlki illə müqayisədə bu il əkin sahələrinin artdığını və mövsüm ərzində 22 minə yaxın şitil əkildiyini bildirib.

Qeyd edək ki, “Azerçay” məhsulları yerli bazarla yanaşı, dünyanın 40-dan çox ölkəsinə ixrac olunur. “Made in Azerbaijan” markasını daşıyan məhsullar beynəlxalq sərgilərdə uğurla təmsil edilir və Azərbaycan çayçılıq ənənələrinin dünyada tanıdılmasına töhfə verir.

*M.YAQUBZADƏ*
*XQ*

# Tikinti sektorunda səmərəli fəaliyyət

**Azərbaycan Qiymətləndiricilər Palatası (AQP) bu ilin aprel ayı üzrə tikinti indekslərini açıqlayıb. Palatadan verilən məlumata görə, Azərbaycan tikinti sektorunda maya dəyəri artımı sürətlənib.**



Aprel ayında tikinti xərcləri 2025-ci ilin dekabr ayı ilə müqayisədə 6,8 faiz artıb. İndeks hesabat dövründə 106,8 bənd səviyyəsində formalaşıb. Tikinti bazarında əsas bahalaşma metal məhsulları, beton, sement və daxili təmir materiallarında qeydə alınıb.

Palatanın hesablamalarına görə, tikinti materialları üzrə alt indeks 107,5, əmək qüvvəsi üzrə alt indeks 105,4, maşın-mexanizm üzrə alt indeks isə 103,8 təşkil edib. Ümumi xərc artımı orta hesabla 6,8 faiz olub. Ən yüksək qiymət artımı metal və beton məhsullarında müşahidə edilib, ən stabil seqment isə maşın-mexanizm xərcləri olub.

Hesabatda qeyd olunur ki, bazarda xüsusilə armatur, beton, laminat və parket, plastik pəncərələr, sendviç panellər və digər metal əsaslı məhsullar üzrə qiymət artımı davam edir. Bu artımın əsas səbəbləri kimi idxal xərclərinin yüksəlməsi, logistika xərcinin bahalaşması və tikinti sektorunda tələbin aktiv qalması göstərilir.

Tikinti materialları arasında ən yüksək dinamika metal məhsullarında qeydə alınıb. Belə ki, metal məhsulları üzrə indeks baza dövrü ilə müqayisədə 111,5 bəndə yüksəlib. Beton və sement məhsulları üzrə göstərici 108,4, daxili təmir materiallarında 107,2, qapı-pəncərə sistemlərində 106 taxta materiallarında 105,8, dam örtüklərində isə 104,9 səviyyəsində formalaşıb.

Əmək bazarında da artım tendensiyası davam edib. Xüsusilə kafel-metlax, fasad və alçıpan işləri üzrə xidmət haqlarında yüksəliş qeydə alınıb. Fasad işləri üzrə indeks 108,5, kafel və metlax işlərində 107, hörgü işlərində 105,2, alçı və suvaq işlərində 104,8, laminat və parket işlərində isə 103,9 olub. Palata hesab edir ki, tikinti sektorunda aktivliyin yüksəlməsi peşəkar usta xidmətlərinə tələbi artırıb və bu da əmək xərclərinə birbaşa təsir göstərib.

Maşın-mexanizm seqmentində isə qiymət artımı digər komponentlərlə müqayisədə daha məhdud olub. Ekskavator xidmətləri üzrə indeks 104,2, beton pompası üzrə 103,8, kran xidmətləri üzrə isə 103,5 təşkil edib.

Palata bildirir ki, tikinti bazarında müşahidə olunan cari dinamika yeni tikililərin maya dəyərinin yüksəlməsini davam etdirir. Xüsusilə metal və beton məhsullarındakı bahalaşma daşınmaz əmlak sektorunda qiymət formalaşmasına birbaşa təsir edən əsas amillərdən biri olaraq qalır. Palatanın qənaətinə görə, tikinti xərclərindəki artımın yaxın aylarda da bazar qiymətlərinə təsirini davam etdirməsi gözlənilir.

Xatırladaq ki, AQP dövrü olaraq hər ay daşınmaz əmlak, avtomobil bazarı və tikinti indekslərini açıqlayır.

*XQ*

# “Xalq qəzeti”nin WUF13 müsahibləri

## Dayanıqlı şəhərlərin qurulması gələcəyin prioritetidir

WUF13-də iştirak edən nüfuzlu qonaqlardan biri **Kanadanın Mənzil, İnfrastruktur və İcmalar Nazirliyinin nümayəndəsi Eiad El-Fatehdir.** Onunla dayanıqlı şəhərlərin qurulmasında hökumətlərin rolu, ağıllı şəhərlərin gələcəyi, forumda əldə olunan praktik təcrübələr və Bakı təəssüratı barədə müsahib olduq.



***– Cənab El-Fateh, sizcə, dayanıqlı şəhərlərin qurulmasında hökumətlərin rolu necə olmalıdır?***

– Mən hesab edirəm ki, hökumətlər dayanıqlı şəhərlərin qurulmasında əsas istiqamətverici qüvvədir. Çünki şəhərsalma yalnız yeni binaların tikilməsi demək deyil. Bu, insanların həyat keyfiyyəti, sosial rifahı, nəqliyyat, ekologiya və iqtisadi inkişafla birbaşa bağlı olan geniş bir sahədir. Hökumətlər uzunmüddətli strategiyalar hazırlamalı və şəhərlərin gələcəyini düşünərək qərarlar qəbul etməlidirlər. Əgər planlaşdırma düzgün aparılmazsa, gələcəkdə nəqliyyat sıxlığı, yaşayış problemləri və ekoloji risklər arta bilər.

Kanadada biz çalışırıq ki, şəhərlər həm ekoloji baxımdan dayanıqlı olsun, həm də insanlar üçün rahat yaşayış mühiti yaratsın. Burada əsas məqsəd, sadəcə, inkişaf deyil, balanslı inkişafdır.

***– Necə bilirsiniz, ağıllı şəhərlər gələcəkdə bütün ölkələr üçün əsas model olacaqmı?***

– Düşünürəm ki, bəli. Ağıllı şəhərlər artıq gələcəyin konsepsiyası deyil, bu günün reallığıdır. Texnologiya şəhər idarəçiliyində çox böyük rol oynamağa başlayıb. Məsələn, rəqəmsal nəqliyyat sistemləri, enerji sərfiyyatının avtomatik idarə olunması, təhlükəsizlik texnologiyaları və süni intellekt əsaslı həllər şəhərlərin daha effektiv işləməsinə kömək edir. Bu texnologiyalar insanların gündəlik həyatına daha rahatlıq gətirir. Amma mən hesab edirəm ki, ağıllı şəhər anlayışı yalnız texnologiya ilə məhdudlaşmamalıdır. Əsas məsələ insan yönümlü yanaşmadır. Texnologiya insanların rifahına xidmət etməlidir. Əgər insanlar özlərini rahat və təhlükəsiz hiss etmirlərsə, o zaman şəhərin “ağıllı” olması kifayət deyil.

***– Bu forumda müzakirə olunan hansı praktik həllərin ölkənizdə tətbiq olunmasını faydalı hesab edirsiniz?***

– Forumda bir çox maraqlı ideyalar səsləndirildi. Mən xüsusilə yaşıl şəhər infrastrukturu və ekoloji nəqliyyat modelləri ilə bağlı təqdimatları çox maraqlı hesab etdim. Bu gün iqlim dəyişiklikləri bütün dünya üçün ciddi problemdir. Ona görə şəhərlərin daha ekoloji olması vacibdir. WUF13 çərçivəsində təqdim olunan bəzi layihələr, xüsusilə enerji səmərəliliyi və yaşıl ictimai məkanlarla bağlı yanaşmalar Kanadada da faydalı ola bilər.

Bundan əlavə, müxtəlif ölkələrin sosial mənzil proqramları ilə bağlı təcrübələri də diqqətimizi çəkdi. Çünki sürətlə artan şəhər əhalisi fonunda əlçatan mənzil məsələsi bütün dövlətlər üçün aktual məsələyə çevrilib.

***– Azərbaycanın foruma ev sahibliyi barədə nə demək istərdiniz?***

– Düzünü desəm, mən çox müsbət təəssüratlar aldım. Azərbaycan bu tədbiri yüksək səviyyədə təşkil edib. Bakı həm müasir, həm də tarixi ruhu qoruyan maraqlı şəhərdir. Burada müasir memarlıqla milli irsin harmoniyası hiss olunur. Bu, çox önəmli məsələdir. Çünki şəhərlər inkişaf etdikcə, öz kimliyini itirməməlidir. Mən düşünürəm ki, Bakı bu baxımdan yaxşı nümunədir. İnsanların qonaqpərvərliyi məni xüsusilə təsirləndirdi. Forum iştirakçıları üçün yaradılan şərait çox yüksək səviyyədədir və bu, Azərbaycanın beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edə bildiyini göstərir.

***– Sizcə, gələcəyin şəhərləri hansı xüsusiyyətlərə malik olacaq?***

– Gələcəyin şəhərləri daha yaşıl, daha rəqəmsal və daha insanyönümlü olacaq. Düşünürəm ki, şəhərlər yalnız iqtisadi mərkəz kimi deyil, insanların keyfiyyətli həyat yaşadığı məkan kimi inkişaf etməlidir. Yaşıl zonaların artırılması, ictimai nəqliyyatın gücləndirilməsi və enerji səmərəliliyinin yüksəldilməsi əsas prioritetlər olacaq. Eyni zamanda, sosial bərabərlik məsələsi də çox vacibdir. Şəhərlər bütün insanlar üçün əlçatan olmalıdır.

***– Qlobal iqlim dəyişikliyinin şəhərsalma siyasətinə təsiri barədə fikirlərinizi öyrənmək istərdik…***

– Bu gün artıq heç bir ölkə iqlim dəyişikliklərini nəzərə almadan şəhər siyasəti qura bilməz. Sel riskləri, temperatur artımı və havanın çirklənməsi şəhərlərin gələcəyinə birbaşa təsir edir. Buna görə hökumətlər daha davamlı və ekoloji həllər üzərində işləyirlər. Alternativ enerji mənbələri, yaşıl nəqliyyat və ekoloji tikinti texnologiyaları gələcəyin əsas istiqamətlərindən olacaq.

***– Kanada ilə Azərbaycan arasında şəhərsalma və infrastruktur sahəsində əməkdaşlıq perspektivlərini necə görürsünüz?***

– Hesab edirəm ki, əməkdaşlıq üçün böyük imkanlar var. Xüsusilə dayanıqlı infrastruktur, yaşıl enerji və rəqəmsal idarəetmə sahələrində ortaq layihələr həyata keçirilə bilər. Azərbaycan sürətlə inkişaf edən ölkədir və burada böyük potensial görünür. Kanadanın təcrübəsi ilə Azərbaycanın dinamik inkişafı birləşərsə, gələcəkdə çox uğurlu əməkdaşlıq layihələri ortaya çıxa bilər.

***– Bakıda sizi ən çox nə təəccübləndirdi?***

– Şəhərin enerjisi və inkişaf tempi. Bakı çox dinamik şəhərdir. Burada həm müasirlik, həm də tarix hiss olunur. Mən xüsusilə insanların mehriban münasibətindən təsirləndim. İnanıram ki, Bakı gələcəkdə regionun ən mühüm beynəlxalq şəhərsalma və innovasiya mərkəzlərindən birinə çevriləcək.

**P.S.** *Kanadalı qonağın fikirlərindən aydın oldu ki, müasir şəhərlərin inkişafı artıq yalnız tikinti və infrastruktur məsələsi deyil. Proses texnologiya, ekologiya, sosial rifah və beynəlxalq əməkdaşlıqla sıx bağlıdır. WUF13 kimi qlobal platformalar isə ölkələr arasında təcrübə mübadiləsinin genişlənməsinə və gələcəyin dayanıqlı şəhərlərinin formalaşmasına mühüm töhfə verir.*

*

**BMT-nin Məskunlaşma Proqramının Qlobal həllər bölməsinin siyasət və qanunvericilik rəhbəri Fiona Makkluni** Bakıda regional və qlobal miqyasda mənzil təminatı problemlərinin həlli istiqamətində aparılan müzakirələrin əhəmiyyətini yüksək qiymətləndirdi, ölkəmizin nümayiş etdirdiyi qonaqpərvərliyə görə minnətdarlığını ifadə etdi: "Bakıda olmaq mənim üçün həqiqətən böyük məmnuniyyətdir. Burada bənzər qlobal məsələlər üzərində çalışan çoxlu maraqlı, peşəkar mütəxəssis bir araya gəlib. Biz birlikdə qlobal təsirə malik real həll yolları tapmağa çalışırıq.



Mən artıq Afrika, Asiya və ev sahibi olan Azərbaycandan olan həmkarlarımla geniş söhbət etmişəm. Biz hamımız eyni ortaq məqsəd – dünyanın müxtəlif yerlərində mənzil şəraitinin necə yaxşılaşdırılması üzərində düşünürük. Bu, olduqca möhtəşəm bir tədbirdir. Bizə belə yüksək səviyyəli qonaqpərvərlik göstərən, bu şəraiti yaradan Azərbaycan hökumətinə dərin təşəkkürümü bildirirəm".

Rəhbər həmçinin vurğuladı ki, XXI əsrin sürətli urbanizasiya dalğası şəhərsalma proseslərinə ənənəvi yanaşmaları tamamilə sıradan çıxarır və yeni konseptual baxış tələb edir: “Müasir mənzil sistemləri, nəqliyyat şəbəkələri və nəhəng infrastruktur layihələri artıq ayrı-ayrı bələdiyyələrin və ya kiçik lokal inzibati vahidlərin sərhədlərindən çox kənarda fəaliyyət göstərir. Gələcək mənzil siyasəti lokal çərçivələrlə məhdudlaşmamalıdır. Qlobal miqyasda böyüyən meqaşəhərlərin və aqlomerasiyaların real rolu, onların iqtisadi və demoqrafik potensialı mütləq nəzərə alınmalıdır.

Fiona Makkluni "Xalq qəzeti" vasitəsilə dünya birliyinə çağırış edərək bildirdi ki, şəhərlərin sürətli böyüməsi fonunda dayanıqlı inkişafa nail olmaq üçün yeni alətlərdən istifadə edilməlidir. Burada əsas hədəf rəqəmsal və sosial infrastrukturun inteqrasiyası, eləcə də regionlararası koordinasiyanın düzgün qurulmasıdır.

BMT rəsmisinin fikrincə, yalnız bu cür genişmiqyaslı və makro-regional yanaşma sayəsində həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrdə əhalinin mənzil şəraitini keyfiyyətcə yeni, müasir bir mərhələyə qaldırmaq mümkündür. Bu kontekstdə, Bakı platforması qlobal şəhərsalma strategiyasının gələcək yol xəritəsinin cızılmasında mühüm mərhələ kimi tarixə düşür.

## Hər kəsə daimi və rahat mənzil təminatı

Mənzil problemi Bakıda keçirilən WUF13-ün əsas müzakirə istiqamətlərindən birinə çevrilib. Ətrafında **Beynəlxalq Daşınmaz Əmlak Federasiyasının (FIABCI) Prezidenti Antonio Kampanyoli** ilə bu mövzuda həmsöhbət olduq.

***– Cənab Kampanyoli, hazırda dünyada mənzil problemi necə təzahür edir?***

– Təəssüf ki, bu gün dünyada təxminən 3 milyard insan uyğun olmayan şəraitdə yaşayır. Bu, çox böyük rəqəmdir və qlobal çağırışdır. Bir çox ölkələrdə urbanizasiya sürətlə artır, şəhərlərə axın güclənir və nəticədə əlçatan mənzil problemi daha da dərinləşir. İnsanlar bəzən təhlükəli, qeyri-sağlam və sosial infrastrukturu olmayan ərazilərdə yaşamağa məcbur qalırlar. Bu isə gələcək nəsillərin həyat keyfiyyətinə birbaşa təsir göstərir. Ona görə də düşünürəm ki, beynəlxalq ictimaiyyət bu məsələni prioritet olaraq gündəmdə saxlamalıdır.

***– Sizcə, bu problemin həlli üçün hansı əməkdaşlıq modeli daha səmərəlidir?***

– Mən hesab edirəm ki, burada ən vacib məsələ tərəfdaşlıqdır. Dövlət təkbaşına bütün problemləri həll edə bilməz. Özəl sektorun investisiyası və innovativ yanaşmaları vacibdir. Eyni zamanda, cəmiyyətin iştirakı da böyük əhəmiyyət daşıyır. İnsanlar öz ehtiyaclarını və problemlərini ən yaxşı bilən tərəfdir. Sevindirici haldır ki, bu günlərdə Bakıda məhz bu üç tərəf – dövlət, özəl sektor və vətəndaş cəmiyyəti bir araya gəlib. Bu platforma dialoq və birgə həll yolları üçün çox vacibdir.

***– Federasiya gələcəkdə hansı istiqamətlərə daha çox diqqət ayıracaq?***

– Bizim əsas məqsədimiz davamlı, inklüziv və əlçatan şəhər mühitinin təşviqidir. Əmlak sektoru sosial rifahın əsas elementlərindən biridir. Buna görə biz gələcəkdə yaşıl şəhərlər, dayanıqlı tikinti, sosial mənzil layihələri və innovativ urbanizasiya modelləri üzərində daha sıx işləməyi planlaşdırırıq. Eyni zamanda beynəlxalq əməkdaşlığın genişləndirilməsi də prioritet istiqamətlərdəndir. Onu da qeyd edim ki, WUF13 yeni əməkdaşlıq imkanları üçün olduqca mühüm platformadır.

***– WUF13 ilə bağlı ümumi təəssüratlarınız nələrdir?***

– Ümumiyyətlə, Federasiya olaraq 83 ölkədə fəaliyyət göstərən təxminən 200 assosiasiyanı bir araya gətiririk və burada olmaqdan çox məmnunam. İlk növbədə, UN-Habitat komandasına təşəkkür etmək istəyirəm. Uzun illərdir onlarla əməkdaşlıq edirik və gördükləri möhtəşəm işi yaxından izləyirik. Biz əvvəlki Ümumdünya Şəhər Forumunda da iştirak etmişdik, lakin bu forum həqiqətən çoxşaxəli və hərtərəfli təşkil olunub. Burada müxtəlif ölkələrdən hökumət nümayəndələrinin, özəl sektorun, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətinin bir araya gəlməsi olduqca vacibdir. Çünki şəhərlərin və mənzil məsələlərinin gələcəyi yalnız bir tərəfin səyi ilə formalaşa bilməz.



Azərbaycan çox gözəl ev sahibi ölkədir. Burada müşahidə etdiyim əsas məqam isə mənzil məsələsinə yanaşmanın çox geniş və inklüziv olmasıdır. Adətən bir çox ölkələrdə mənzil mövzusu yalnız tikinti və infrastruktur prizmasından qiymətləndirilir. Amma burada məsələ daha dərindən düşünülür. Mənzil təminatı yalnız ev tikmək deyil, insanlara keyfiyyətli yaşayış mühiti yaratmaq deməkdir. Ən vacib məqamlardan biri isə icmaların bu prosesdə iştirakıdır. İnsanların öz yaşayış mühitinin formalaşdırılmasına cəlb olunması çox mühüm yanaşmadır və düşünürəm ki, bu, digər ölkələr üçün də yaxşı nümunə ola bilər.

***– Siz az öncə söhbətimiz zamanı “ev sadəcə baş üzərində dam deyil” ifadəsini işlətdiniz. Bu fikri bir qədər açardınız.***

– Bəli, çünki mənzil insan həyatının təməlidir. Biz çox zaman evi sadəcə fiziki məkan kimi qəbul edirik. Halbuki ev insanın təhlükəsizlik hissidir, ailə dəyərləridir, sabitlikdir, sosial münasibətlərdir. Keyfiyyətli mənzil insanın həyat keyfiyyətini müəyyənləşdirən əsas amillərdən biridir. Bu həm orta təbəqə, həm aztəminatlı insanlar, həm də imkanlı şəxslər üçün keçərlidir. İnsan sağlam ailəni də, uğurlu biznesi də, cəmiyyətə faydalı fəaliyyəti də məhz sabit və təhlükəsiz yaşayış üzərində qura bilir. Buna görə də mənzil məsələsi yalnız sosial məsələ deyil, həm də iqtisadi və humanitar məsələdir.

***– Son olaraq, Azərbaycana və forum iştirakçılarına mesajınız nə olardı?***

– Mən bir daha Azərbaycana təşəkkür etmək istəyirəm. Forum çox yüksək səviyyədə təşkil olunub və burada çox vacib müzakirələr aparılır. Ümid edirəm ki, bu görüşlər real nəticələrə, yeni tərəfdaşlıqlara və insanların həyatını yaxşılaşdıracaq layihələrə çevriləcək. Mənzil insan həyatının əsasını təşkil edir və düşünürəm ki, bu istiqamətdə birlikdə çalışmaq gələcəyimiz üçün ən doğru yoldur.

***– Təşəkkür edirik.***

– Mən təşəkkür edirəm.

***Hazırladılar:***
***Yusif ŞƏRİFZADƏ,***
***Nurlan ABDALOV,***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

# Qlobal media Azərbaycan paytaxtında aparılan məskunlaşma müzakirələrini dünyaya çatdırır

**Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) dünyanın müxtəlif ölkələrinin nüfuzlu media qurumları tərəfindən işıqlandırılmaqdadır.**

WUF13-ün geniş işıqlandırıldığı ölkələrdən biri də Argentinadır. Bu ölkənin aparıcı media qurumları – **“Canal 26”, “Código Baires”, “El Sol Noticias”, “Mercado”, “Todo Salta”, “Hecho en Quilmes”, “Infocielo”, “Diario El Norte”** və digərləri Sessiyada Argentina nümayəndə heyətinin Bakıdakı fəaliyyətinə geniş yer ayırıb. Xəbərlərdə Bakıdakı tədbirin iqlim dəyişikliyi ilə mübarizə və şəhər infrastrukturunun maliyyələşdirilməsi üçün önəmli qlobal platforma olduğu vurğulanıb.

Meksika mediası – **“Mundo Internacional”, “Acento Noticias”** nəşrləri bu ölkənin Senatının Bakıdakı Sessiya ilə bağlı fotosərgi təşkil etməsini və Mexiko bələdiyyəsinin sədri Klara Bruqadanın tədbirdəki iştirakını diqqət mərkəzində saxlayıb.

Mərakeş Krallığında yayımlanan **“InfoImmo”** və “**Yabiladi”** portalları bu ölkənin pavilyonunun açılışına və ölkənin şəhərsalma təcrübəsini nümayiş etdirməsinə xüsusi yer ayırıb. Xəbərlərdə Sessiyanın Bakıda keçirilməsinin İslam dünyası və Afrika ölkələri üçün yeni əməkdaşlıq imkanları yaratdığı, Azərbaycanın qlobal urbanizasiya problemlərinin həllində mühüm vasitəçilik rolu oynadığı qeyd olunub.

Türkiyə mediası da Bakıdakı müzakirələri fəal işıqlandırmaqda davam edir. **“Cumhuriyet”** qəzetində, **“Haber Global”** və **“TRT Avaz”** televiziyalarında yayımlanan xəbərlərdə Bakı tədbiri “İnsanlığın yeni kənd axtarışı” və qlobal şəhərsalma çağırışlarına cavab olaraq təqdim edilib. İnformasiyalarda Azərbaycan ilə Türkiyə arasındakı strateji əməkdaşlığın şəhərsalma sahəsində də davam etdiyi, həmçinin Türk dünyasının bu qlobal platformada fəal təmsil olunduğu vurğulanıb.

Ukrayna mediası da Bakıdakı müzakirələri ilk gündən diqqət mərkəzində saxlayır. **“Ukrinform”, “Kremenchuk TV”, “Novyny Poltavshchyny”, “Finteco”, “My Kyiv Region”, “Kremen Today”** və digər media




orqanları WUF13-də bu ölkənin milli pavilyonunun açılışını və “Ukrayna modeli”nin təqdimatını fəal şəkildə işıqlandırıb. Yayımlanan informasiyalarda Azərbaycanın bu mötəbər tədbiri yüksək səviyyədə təşkil etdiyi qeyd olunub.

İspaniyanın **“Maspalomas Ahora”** və **“La Provincia”** nəşrləri tədbirdə Kanar Adaları nümayəndələrinin təkliflərinə və mənzil siyasətinə diqqət çəkib. Xəbərlərdə WUF13-ün beynəlxalq hüquqi tənzimləmələrin müzakirəsi üçün əlverişli mühit yaratdığı və qlobal şəhərsalma problemlərinin həllində Bakının önəmli platforma olduğu bildirilib.

Polşanın **“Portal Samorządowy”** nəşri isə Katovitse şəhərinin və Qdansk Texnologiya Universitetinin Bakıdakı tədbirdə iştirakına yer ayırıb. Yazılarda, həmçinin qeyd olunub ki, Azərbaycanın təşkil etdiyi bu Sessiya şəhərlərin rəhbərləri üçün bilik və əməkdaşlıq imkanları baxımından əvəzolunmaz imkandır.

Bolqarıstanın **Dövlət Teleqraf Agentliyi (BTA), “Pro News Dobrich”** nəşri də yayımladıqları xəbərlərdə tədbirin həm regional, həm də beynəlxalq əhəmiyyətini xüsusi vurğulayıb. Məlumatlarda BMT rəsmilərinin Azərbaycanın təşkilatçılıq qabiliyyətini yüksək qiymətləndirdikləri və WUF13-ün şəhər idarəçiliyi sahəsində ən uğurlu platformalardan biri olduğu qeyd edilib.

Çinin **“China.com”, “Xinhua News”, “163.com”** media qurumları da WUF13 barədə silsilə xəbərlər, reportajlar yayımlamaqdadır. WUF13-ün şəhərsalma sahəsində dünyanın ən nüfuzlu tədbiri olduğunu qeyd edən bu media orqanları paytaxt Bakının modern şəhər infrastrukturunu və ev sahibliyi potensialını yüksək qiymətləndirib.




Pakistan mediası Sessiyanı fəal şəkildə işıqlandırmaqda davam edir. Qardaş ölkənin **“Digital Pakistan”, “Dispatch News Desk” (DND)** media qurumları WUF13-də xüsusilə iqtisadi inkişaf və əlçatan mənzil təminatı kimi mühüm mövzularda aparılan müzakirələrə geniş yer ayırıb. Xəbərlərdə Azərbaycanın bu tədbir vasitəsilə inkişaf etməkdə olan ölkələrin səsinin dünyaya çatdırılmasına şərait yaratdığı bildirilib. Bakı platforması Cənubi Asiya ölkələri üçün innovativ şəhərsalma modellərini öyrənmək üçün ideal məkan kimi təsvir edilib. Qazaxıstanın **“Kazakhstan Today”, “Invest.gov.kz”** və digər nəşrləri Bakıdakı tədbiri regionun şəhərsalma gələcəyi üçün həlledici mərkəz kimi qiymətləndirib.




Vyetnamın **“VnEconomy”** nəşri sürətli urbanizasiya prosesləri fonunda Azərbaycanın ev sahibliyi etdiyi bu platformanı yaşıl infrastruktur investisiyaları üçün həlledici çağırış məkanı kimi təqdim edib. Əfqanıstanın **“Kabul Signal”** media qurumu Bakı Sessiyasını iqlim diplomatiyası üçün nadir fürsət hesab edərək, müxtəlif regionların nümayəndələrin burada iştirakına xüsusi diqqət ayırıb. Türkmənistanın **“Altyn Asyr”,** Tacikistanın **“Khovar”** agentlikləri Bakının beynəlxalq şəhərsalma gündəminin mərkəzi olduğunu vurğulayaraq, “UN-Habitat” ilə əməkdaşlığın yeni mərhələsinin məhz burada müzakirə olunduğunu qeyd edib.

***XQ***

# Azad Qarabağ ölkənin tunellər, körpülər məkanına çevrilib

## *Son 5 ildə bölgədə 70 kilometr tunel çəkilib, 435 körpü salınıb*

**Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər ölkədə müasir və keyfiyyətli yol-nəqliyyat infrastrukturunun formalaşdırılması istiqamətində genişmiqyaslı layihələr həyata keçirilib. Bunun nəticəsində respublika daxilində bölgələrarası əlaqələr daha da möhkəmlənib, Azərbaycan beynəlxalq nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib. Bu nəhəng infrastrukturla ölkədə sülhün, təhlükəsizliyin və inteqrasiyanın gələcək təminatı reallaşıb.**



Dövlət başçısı yol infrastrukturunu yalnız texniki sahə kimi deyil, həm də milli təhlükəsizliyin əsas sütunlarından biri kimi dəyərləndirərək dəfələrlə vurğulayıb ki, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən yol layihələri insanların hərəkət imkanlarını genişləndirməklə yanaşı, kənd təsərrüfatı, turizm, sənaye və xidmət sektorlarının inkişafına ciddi təkan verir. Bu təşəbbüslərin gerçəkləşdirilməsi regionların sosial-iqtisadi potensialının açılması və əhalinin rifahının yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Ölkə rəhbəri Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) açılış mərasimindəki çıxışında hazırda Böyük Qayıdış Proqramının uğurla reallaşdığını, şəhər və kəndlərin Baş planlarının hazırlandığını, artıq 5 il ərzində çəkilən tunellərin uzunluğunun 70 kilometrə çatdığını, habelə 500 körpüdən 435-nin inşa olunduğunu diqqətə çatdırıb.

Xatırladaq ki, həmin körpülər Zəfər yolu, Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd, Əhmədbəyli–Füzuli–Şuşa, Toğanalı–Kəlbəcər–İstisu, Xudafərin–Qubadlı–Laçın magistralları, Bərdə–Ağdam və Horadiz–Ağbənd dəmir yolları üzərində həyata keçirilən nəhəng infrastruktur layihələri çərçivəsində tikilib. Bu infrastrukturlar bölgənin çətin relyefində nəqliyyatın fasiləsizliyini gerçəkləşdirmək, çay keçidlərini və dərələri birləşdirmək məqsədilə ən müasir standartlara uyğun inşa edilib.

Buradan aydın görünür ki, Azərbaycan hökuməti Qarabağ və Şərqi Zəngəzurda Vətən müharibəsindən ötən müddətdə yol-nəqliyyat siyasətində sistemli və ardıcıl proqramlara əsaslanaraq mövcud sahənin inkişafını daim diqqətdə saxlayıb. Bu istiqamətdə önəmli təşəbbüslərin gerçəkləşdirilməsini şərtləndirən "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan layihələrin icrası ilə minlərlə kilometr uzunluğunda avtomobil yolları yenidən qurulub, yüzlərlə körpü və keçid tikilib. Bununla da sözügedən coğrafiyadan ölkə ərazisinin, demək olar ki, hər bir guşəsinə rahat və təhlükəsiz nəqliyyat çıxışının gerçəkləşməsinə əlverişli imkan yaradılıb. Bu isə, ilk növbədə, regional bərabərlik və milli həmrəyliyin mühüm təməli kimi yüksək dəyərləndirilib.

İşğaldan azad edilən ərazilərdə yaradılan yeni yol-nəqliyyat şəbəkəsi təkcə iqtisadi məqsədlərə deyil, həm də strateji təhlükəsizliyə xidmət edir. Yolların bərpası regionun müdafiə qabiliyyətini gücləndirir, sərhədyanı ərazilərə nəzarəti asanlaşdırır, fövqəladə hallarda operativ hərəkətliliyi reallaşdırır. Bu yollar, eyni zamanda, Azərbaycanın qərb bölgələri ilə Naxçıvan və Türkiyəyə qədər uzanan geniş kommunikasiya xəttinin tərkib hissəsi kimi də mühüm funksiyaya malikdir. Uzunmüddətli perspektivdə bu şəbəkənin Zəngəzur dəhlizi ilə inteqrasiya olunaraq ölkəmizin tranzit imkanlarını daha da artıracağı proqnozlaşdırılır.

Prezident İlham Əliyev Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) açılış mərasimindəki nitqində yol tikintisi ilə bağlı səsləndirdiyi göstəricilər Azərbaycanın iqtisadi gücünün, müasir mühəndislik təcrübəsinin və dövlətin planlı fəaliyyətinin real nəticəsidir. Təbii ki, işğaldan azad edilən coğrafiyada yol və körpülərin istismara verilməsi nəqliyyat sistemində sıxlıq və tıxacların aradan qaldırılması, vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsinin gerçəkləşdirilməsi baxımından xüsusi önəm daşıyır.

### Murovdağ tuneli milli mühəndislik zəfəridir

Prezident İlham Əliyev ötən il avqustun 21-də Kəlbəcər şəhərinə köçən sakinlərlə görüşündə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dünyanın ən modern yol infrastrukturunun yaradılması barədə deyib: "Kəlbəcər həmişə ucqar rayon sayılırdı, çünki yollar yox idi. Yüz il bundan əvvəl, ümumiyyətlə, yol yox idi, ancaq atlarla hərəkət etmək mümkün idi. Sovet hakimiyyəti dövründə çəkilmiş yollar da ensiz və təhlükəli idi. Biz Mehriban xanımla işğaldan sonra ilk dəfə Kəlbəcərə, təbii ki, Ömər aşırımından gəldik. O vaxt o yol demək olar ki, bir cığır olmaqla çox təhlükəli idi… Mən o vaxt dərhal göstəriş verdim ki, biz mütləq Gəncə istiqamətindən Kəlbəcərə müasir yol çəkməliyik. Çünki bilirsiniz ki, o vaxt biz Ağdərə – Kəlbəcər yolundan istifadə edə bilmirdik. Ona görə dərhal işlər başlandı və bu gün biz Mehriban xanımla Kəlbəcərə gələndə daha Ömər aşırımından yox, ilk dəfə olaraq tuneldən keçdik. Bu da uzunluğuna görə Avropada beşinci tuneldir. Təxminən 12 kilometr uzunluğunda ən böyük tunel".

Dövlət başçısının sözlərinə görə, Kəlbəcərə getmək üçün inşa edilən digər yol Naftalandan başlayaraq, Ağdərədən keçir. İşğal dövründə qəsbkarların istifadə etdikləri bu magistral da kələ-kötürlüyü səbəbindən narahatlıq doğurur. İndi o yol da genişləndirilir. Üçüncü istiqamət isə Kəlbəcər-Laçın yoludur, təhlükəlidir. Hazırda o yola da dördzolaqlı tunellərlə, körpülərlə tamamilə yeni dizayn verilir.

Qarabağ və Şərqi Zəngəzurda inşa olunan ən mühüm layihələrdən biri Toğanalı – Kəlbəcər – İstisu avtomobil yoludur. Bu yol təkcə Kəlbəcər rayonunu əsas magistral şəbəkəyə bağlamır, eyni zamanda, bölgənin təbii resurslara, turizm obyektlərinə və sərhəd infrastrukturuna çıxışını gerçəkləşdirir. Magistralın 56 kilometrini Toğanalı-Kəlbəcər hissəsi, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir. Avtomobil yolunun 13,5-ci kilometrliyindən Murovdağ silsiləsi başlayır. Beləliklə, yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir.

Ümumi uzunluğu, təxminən, 80 kilometr olan və üzərində çoxsaylı körpülər, qalereyalar, süni qurğular, eləcə də yüksək dağ massivlərini aşmaq üçün nəhəng tunel sistemləri yerləşən bu layihə həm çətin relyef, həm də ekstremal iqlim şəraiti baxımından ölkə tarixində ən mürəkkəb mühəndislik işlərindən biridir. Müasir texnologiyalar əsasında inşa edilən magistral xəttin əsas xüsusiyyəti onun sosial-iqtisadi və turistik təsirinin çoxşaxəli olmasıdır.

Kəlbəcərin zəngin mineral su mənbələrinin, o cümlədən məşhur İstisu sanatoriyasının yenidən fəaliyyətə başlaması üçün bu yol həyati əhəmiyyət daşıyır. Yol, eyni zamanda, regionun ekoturizm, dağ turizmi və sağlamlıq istirahəti potensialını reallaşdırmaqla yanaşı, yerli əhalinin məhsullarını bazarlara çıxarma imkanlarını da genişləndirir.

Xatırladaq ki, dövlətimizin başçısının iştirakı ilə 2021-ci ilin avqustunda Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolunun təməlqoyma mərasimi keçirilib. Ötən il avqustun 21-də isə yolun 13,5-ci kilometrliyində inşa edilən və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışı gerçəkləşdirilib.

Bu avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq işğaldan azad edilmiş Kəlbəcərdən keçir və məşhur İstisu istirahət zonasına qədər uzanır. Yolun rayon mərkəzi ilə yanaşı, bölgənin yaşayış məntəqələrinə rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcəyi, kənd təsərrüfatının, turizmin inkişafına töhfə verəcəyi gözlənilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş rayonlarımızın qısa müddətdə bərpası, o cümlədən həmin bölgələrdə müasir yol-nəqliyyat infrastrukturunun yaradılması, eləcə də çox çətin coğrafi şəraitdə sözügedən avtomobil yolu kimi strateji əhəmiyyətə malik layihənin icrası diqqətdə saxlanılır.

### Yüksək yeraltı yol texnologiyası

Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolunun mühüm tərkib hissəsi kimi inşa olunan Murovdağ tuneli Azərbaycan mühəndisliyinin rəmzinə çevrilməkdədir. Dünyanın ən uzun avtomobil tunellərindən biri olan bu infrastrukturun iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacağı nəzərdə tutulur. Layihə çərçivəsində Murovdağ tunelindən əlavə ümumi uzunluğu 2636 metr olan daha dörd tunel də tikilir.

Uzunluğuna görə Murovdağ tuneli dünyada 18-ci, Avropada 5-ci, MDB məkanında isə 1-ci olacaq. Murovdağ silsiləsini keçən bu nəhəng infrastruktur, eyni zamanda, Azərbaycanı Şərqi Zəngəzurla birləşdirən strateji qovşaqlardan biri kimi çıxış edəcək, mühəndislik baxımından çətinliyinə və strateji əhəmiyyətinə görə isə misilsiz layihə olaraq tarixə düşəcək. Bu tunel vasitəsilə qış aylarında da fasiləsiz nəqliyyat əlaqəsi təmin olunacaq, dağlıq relyefin yaratdığı maneələr aradan qaldırılacaq. Beləliklə, Azərbaycanın qərb rayonları ilə Kəlbəcər və Laçın istiqamətində hərəkət ilboyu sabit və təhlükəsiz şəkildə gerçəkləşəcək.

Yeri gəlmişkən, tunellərin uzunluğu həm texniki çətinliklər, həm də layihə təhlükəsizliyi baxımından mühüm rol oynayır. Dünyada ən uzun yol tunellərinə gəldikdə isə qeyd edək ki, hazırda bu infrastruktur (Lærdal) Norveçdədir və uzunluğu 24,51 kilometrdir. İkinci sırada yer alan "WestConnex" (Avstraliya)", təxminən, 22,4 kilometr, sonrakı sırada isə qərarlaşan "Yamate" (Yaponiya) 18,20 kilometr uzunluğundadır.

Murovdağ tuneli dəniz səviyyəsindən 1700 – 3250 metr yüksəklikdə yerləşən mürəkkəb dağlıq relyefdə inşa olunur. Bu səbəbdən layihənin icrasında müasir geoloji monitorinq, dağ süxurlarının analiz sistemləri və yüksək dəqiqlikli qazma texnologiyalarından istifadə edilir. Tunelin qazılması zamanı dağ süxurlarının dayanıqlığını müntəzəm izləyən xüsusi sensor və monitorinq sistemlərinin tətbiqi daim diqqətdə saxlanılır. Bunun nəticəsində tunel daxilində təzyiq dəyişiklikləri, süxur deformasiya riskləri və mümkün sürüşmə ehtimalları əvvəlcədən müəyyənləşdirilir.

Layihədə geniş şəkildə "shotcrete" adlanan beton püskürtmə texnologiyasından istifadə olunur. Başqa sözlə, bu üsulla tunelin daxili səthi sürətlə möhkəmləndirilir və dağ süxurlarının çökmə riski minimuma endirilir. Bundan əlavə, tunelin içərisində polad karkas konstruksiyalar, xüsusi anker sistemləri, su izolyasiya membranları, yüksək dayanıqlı beton qatları tətbiq edilir. Eyni zamanda, bu texnologiyalar vasitəsilə tunelin həm seysmik dayanıqlılığı, həm də uzunmüddətli istismar təhlükəsizliyi artırılır.

Murovdağ tuneli dünyanın ən uzun avtomobil infrastrukturlarından biri olduğuna görə burada ən müasir təhlükəsizlik standartları nəzərə alınır. Layihə çərçivəsində güclü havalandırma və yanğın təhlükəsizliyi sistemləri, tüstü idarəetmə mexanizmləri, fövqəladə hallar üçün xüsusi keçidlər, "ağıllı" işıqlandırma və müşahidə kameraları quraşdırılır. İnfrastrukturun sağ və sol hissələri beynəlxalq tunel təhlükəsizliyi standartlarına uyğun olaraq 38 keçid vasitəsilə birləşdirilir. Bu keçidlər fövqəladə vəziyyətlər zamanı insanların təhlükəsiz təxliyəsi üçün nəzərdə tutulur.

İnfrastrukturun 2 gediş və 2 gəliş olmaqla 4 hərəkət zolağından ibarət olması nəzərdə tutulur, ümumi uzunluğu isə 23 kilometrdən artıq iki paralel tunel xətti qurulur. Bu göstəricilər isə onu Avropanın və dünyanın ən iri yol tunellərindən birinə çevirir. Layihənin əsas məqsədi qış aylarında Murovdağ aşırımında yaranan təhlükələri aradan qaldırmaq və ilboyu fasiləsiz nəqliyyat əlaqəsini təmin etməkdir.

Murovdağ tuneli Türkiyənin bu sahədə böyük təcrübəsi olan şirkətləri və mütəxəssisləri tərəfindən tikilir. Beynəlxalq tunelçilik praktikasında istifadə edilən rəqəmsal idarəetmə, geoloji analiz və təhlükəsizlik həllərinin layihədə tətbiqinə xüsusi önəm verilir.

Mütəxəssislərin fikrincə, bu infrastruktur yalnız nəqliyyat layihəsi deyil, həm də Azərbaycanın mühəndislik potensialının və texnoloji imkanlarının nümayişidir. Tunelin istifadəyə verilməsi ilə Qarabağ və Şərqi Zəngəzurun nəqliyyat xəritəsi tamamilə dəyişəcək, strateji infrastruktur qovşaqlarından birinə çevriləcək.

***Vaqif BAYRAMOV***
***XQ***

*Kitab təqdimatı*

# Düşmənə inanmağın 2 əsrlik faciəsi



**Qərbi Azərbaycan İcmasının (QAİ) Sumqayıt şəhər nümayəndəliyi və Azərbaycan Yazıçılar Birliyinin AYB-nin yerli bölməsinin birgə təşkilatçılığı ilə pedaqoq-şair, publisist və dramaturq Əvəz Mahmud Lələdağın "Düşmənə inanan özünə düşməndir" kitabının təqdimatı keçirilib.**

Ömrünün 70 ilini pedaqoji sahəyə, şeirə, sənətə həsr etmiş Əvəz Mahmud Lələdağ əslən Qərbi Azərbaycandandır. Doğulub böyüdüyü, məktəbdə oxuduğu, ali təhsil aldıqdan sonra qayıdıb müəllim işlədiyi Sisyan rayonunda və digər əzəli ellərimizdə ermənilərin millətimizə qarşı törətdikləri vəhşiliklərin şahidi olub, bütün bunları özünün yazdığı şeir, poema, pyes, məqalə və xatirələrində qələmə alıb. Onun çoxsaylı kitablarını hər zaman oxucular maraqla qarşılayıblar.

Sumqayıt Dövlət Dram Teatrının binasında təşkil olunan təqdimat mərasiminə şəhər ictimaiyyətinin çoxsaylı nümayəndələri, QAİ təmsilçiləri, şair və yazıçılar, tələbələr toplaşmışdılar. Mərasimi AYB-nin poeziya bölməsinin rəhbəri, şair İbrahim İlyaslı açaraq, müəllifin çoxşaxəli yaradıcılığı, o cümlədən bədii-publisistik yazılarında erməni şovinizmi, terroru və vandalizmini ifşa edən, tarixi faktlara və xatirələrə əsaslanan əsərləri barədə məlumat verdi. Onun yeni kitabının da bu mövzuya həsr olunduğunu bildirdi.

Sonra çıxış edənlər kitabın məziyyətlərindən danışdılar. Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının 1-ci müavini Teymur Səmədov ötən il 90 yaşı tamam olan Əvəz Mahmud Lələdağın Sumqayıtın fəxri vətəndaşı adına layiq görüldüyünü, şəhərin ictimai-siyasi həyatında fəal iştirak etdiyini diqqətə çatdırdı və "Düşmənə inanan özünə düşməndir" kitabı ilə bağlı özəl fikirlərini səsləndirdi.

Digər natiqlər – Qərbi Azərbaycan İcması Sumqayıt nümayəndəliyinin sədri Ramiz İsmayılov, filologiya elmləri doktorları, professorlar Avtandil Ağbaba və Rafiq Yusifoğlu, Əməkdar müəllim Sabir Məmmədov, Sumqayıt Şəhər Ağsaqqallar Şurasının sədri Təbrik Quliyev, Əməkdar jurnalist Vaqif Bayramov və başqaları milli düşüncənin formalaşmasında Əvəz Mahmud yaradıcılığının mühüm rol oynadığını bildirdilər. Qeyd olundu ki, onun əsərlərində vətənpərvərlik, milli birlik ideyası və mənəvi dəyərlər xüsusi yer tutur. Müntəzəm olaraq "Xalq qəzeti"ndə və digər mətbu orqanlarda dərc edilən məqalələri həm tarixi faktlara söykənir, həm də erməni məkrinin ən müxtəlif təzahürlərini görmüş müəllifin şəxsi müşahidələrinin məhsuludur. Oxuculara düşündürücü mesajlar verən bu yazılar cəmiyyətin maariflənməsi baxımından mühüm önəmə malikdir.



Sonda mərasim iştirakçılarına yeni kitabın nüsxələri paylandı. Əvəz Mahmud Lələdağ onun yaradıcılığına böyük diqqətə görə təşkilatçılara minnətdarlığını bildirdi. Mərasim məktəblilərdən ibarət aşıqlar qrupunun ifasında şairin yurd həsrətli şeirlərinin ifası ilə başa çatdı.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Sabirabadda "sənət dialoqu"



**Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) "Sənət dialoqu" layihəsi davam edir.**

Layihə çərçivəsində Mil-Muğan Regional Mədəniyyət İdarəsi Sabirabad Rayon Mədəniyyət Mərkəzində Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Gülyaz Məmmədova ilə görüş təşkil edib.

MEMİM-in direktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vüqar Hümbətov "Sənət dialoqu" layihəsi haqqında məlumat verib. Qeyd edib ki, layihənin məqsədi mədəniyyət xadimlərinin Bakıda və regionlarda fəaliyyət göstərən musiqi və incəsənət məktəblərinin kollektivləri ilə görüşlərinin təşkili, gənc nəslin sənətə marağının artırılması, onların bədii zövqünün formalaşdırılmasıdır.

Xalq artisti Gülyaz Məmmədovanın sənət yolundan və muğamın tədrisi sahəsində xidmətlərindən bəhs edən alim bildirib ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) pedaqoji fəaliyyət göstərən Xalq artisti yeni xanəndələr nəslinin yetişməsində öz bilik və təcrübəsini əsirgəmir.

Mil-Muğan Regional Mədəniyyət İdarəsinin rəisi Nadir Quliyev Gülyaz Məmmədovanın ölkəmizdə xanəndəlik sənətinin inkişafına verdiyi töhfələrdən danışıb və bu kimi tədbirlərin regionlarda keçirilməsinin vacibliyini vurğulayıb.

Sonra Gülyaz Məmmədova muğam sənəti və onun incəlikləri haqqında söz açıb, muğamın tədrisi və təbliği məsələlərinə toxunub. O, "Sənət dialoqu" layihəsinə dəvət olunduğuna görə təşkilatçılara minnətdarlığını bildirib, tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

MEMİM-in sektor müdiri Nicat Həsənzadənin moderatorluğu ilə keçirilən tədbirdə Sabirabad, Beyləqan, İmişli və Saatlı rayonlarında fəaliyyət göstərən musiqi və incəsənət məktəblərinin şagirdləri muğam və xalq mahnılarımızı ifa ediblər. Ustad dərsi formatında keçirilən görüşdə sənətkar şagirdlərə ifaçılıqla bağlı öz tövsiyələrini verib.

***Əli SADIQOV***
***XQ***

# "Zəkaların mübarizəsi" başa çatdı

**Mayın 21-də Tofiq İsmayılov adına 6 nömrəli məktəb-liseydə ümumi təhsil müəssisələrinin IX–XI sinif şagirdlərinin iştirakı ilə "Zəkaların mübarizəsi II" olimpiadasının final mərhələsi keçirilib. Alena Əliyeva tədbirdə iştirak edib.**





Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə layihəsi olan olimpiadanın final mərhələsi ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilib.

Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev bildirib ki, olimpiadanın əsas məqsədi gənc nəsildə strateji düşüncə, düzgün qərarvermə və liderlik bacarıqlarını inkişaf etdirməkdir.

Daha sonra yarışlara start verilib. Final mərhələsində bilik yarışı istiqaməti üzrə Bakı şəhərinin Xəzər, Nəsimi, Yasamal, Xətai və Nərimanov rayonları, həmçinin Gəncə, Naxçıvan, Mingəçevir və Şəki şəhərləri, Abşeron, İsmayıllı, Lerik, Saatlı, Bərdə, Qazax, Qusar, Zəngilan və Neftçala rayonlarının komandaları iştirak ediblər.

Şahmat turnirində isə Bakı şəhərinin Xətai, Xəzər, Sabunçu, Səbail və Yasamal rayonları ilə yanaşı, Gəncə, Naxçıvan, Sumqayıt və Şəki şəhərləri, Ağcabədi, Ağsu, Beyləqan, Cəbrayıl, Göyçay, Quba, Masallı, Neftçala və Tovuz rayonlarının komandaları mübarizə aparıblar.

Bilik yarışı üzrə final mərhələsində 18 komanda, ümumilikdə, 108 şagird iştirak edib. Şahmat turnirində isə hər biri 4 nəfərdən ibarət 18 komandanın tərkibində ümumilikdə 72 şagird iştirak edib.

Mükafatlandırma mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qalibləri təbrik edərək bildirib ki, intellektual yarışlar gənclərin formalaşmasında mühüm rol oynayır.

Tədbirdə çıxış edən Alena Əliyeva bildirib: "Çox şadam ki, artıq iki ildir bu olimpiada həyata keçirilir. Dəstək üçün Heydər Əliyev Fonduna və Elm və Təhsil Nazirliyinə təşəkkür edirəm. Təhsil uğura gedən yoldur. Əziz şagirdlər, bu, sizin uğurunuzdur. Olimpiadanın bütün iştirakçılarını təbrik edirəm. İnanıram ki, gələcəkdə bu yolu birlikdə davam edəcəyik".

Daha sonra olimpiadanın nəticələrinə əsasən qalib komandalar müəyyənləşdirilib, hər iki kateqoriya üzrə qızıl, gümüş və bürünc medallar sahiblərinə təqdim olunub.

***XQ***

*Beynəlxalq həyat*

# Hörmüzdə ümidlərə açılan atəşlər

**Yaxın Şərq heç vaxt gerçək sabitlik yaşamayıb. Bu mənada, regionu beynəlxalq siyasətin unikal bir hissəsi hesab etmək olar. Lakin regiondakı ən faciəli hadisələrin və onların eskalasiyasının bəşəriyyət üçün fəlakətli nəticələrə səbəb ola biləcəyi ilə bağlı heç vaxt narahatlıq yaratmayıb. Əvvəla, oradakı toqquşmalar heç vaxt böyük dövlətlərin – XX əsrdə ABŞ və SSRİ-nin, indi isə ABŞ, Rusiya və Çinin həyati maraqlarına təsir etməyib. Bu dövlətlərin hamısı Yaxın Şərqə, öz resurslarının bütün imkanlarından istifadə tələb edən mübarizə meydanı kimi yox, rəqabət üçün vacib bir arena kimi baxırdılar. İkincisi, regionun özündə qlobal miqyasda inqilabi siyasət yürüdə biləcək güclü, böyük dövlət yox idi. Bu Türkiyə ola bilərdi, ancaq Avropanın gözü Osmanlı İmperiyasından elə qorxmuşdu ki, onun supergücə çevrilməsinə əsla imkan verməmişdilər.**



Onu da etiraf etmək lazımdır ki, Yaxın Şərqdəki dövlətlərarası ziddiyyətlər həmişə beynəlxalq siyasətdə qanayan yara olub. Lakin bu yara bütün orqanizm üçün dramatik nəticəyə gətirib çıxara bilməzdi.

Son illər, xüsusilə də son aylar vəziyyət qəfildən dəyişdi. Doğrudur, böyük qlobal güclər hələ də münaqişədən qlobal miqyasda dağıdıcı hərəkətlərə təhrik edə biləcək dərəcədə xətər görmürlər. Lakin ABŞ-İsrail koalisiyası ilə İran arasındakı toqquşmanın nəticələri tez bir zamanda qlobal iqtisadi qeyri-sabitlik amilinə çevrildi və dünyanın nisbətən bütün əhəmiyyətli ölkələri strateji inkişaf prioritetlərini yenidən nəzərdən keçirməyə və öz təhlükəsizliklərini təmin etmək barədə düşünməyə məcbur oldular.

Tehranın Hörmüz boğazında nəqliyyatın hərəkətini dayandırması, Amerikanın Fars körfəzindəki hərbi bazalarına və digər obyektlərinə hücumları kimi qətiyyətli reaksiyası əksər ölkələr və qlobal bazar iştirakçıları üçün gözlənilməz oldu. Çin və Hindistan da daxil olmaqla bir sıra böyük dövlətlərə enerji "daşıyan" ticarət yolları qəfildən pozuldu. Bir çox müşahidəçilər dərhal buna reaksiya verərək inamla bildirdilər ki, bütün bunlar qlobal iqtisadiyyata güclü qeyri-sabit təsir göstərəcək və bəşəriyyəti qlobal tənəzzülə doğru çəkib aparacaq. Daha da vacib olan isə münaqişənin siyasi nəticələri oldu: bütün dünya, böyük bir regional münaqişənin, qlobal qeyri-sabitlik şəraitində olsa belə, yaxın vaxtlara qədər toxunulmaz hesab edilən iqtisadi əlaqələrin təməllərini necə sarsıda biləcəyini gördü. Münaqişənin sırf siyasi nəticələri də gözlənilməz və ibrətamiz oldu.

Digər tərəfdən, ABŞ-ın hərbi gücünə baxmayaraq, yalnız ənənəvi silahlardan istifadə etməklə savaş meydanında qələbə qazana bilməməsi, bir daha Vaşinqtonun qlobal məsələlərdə həlledici təsiri konsepsiyasını şübhə altına aldı. Axı, əlində olan resursların açıq-aşkar azalmasına baxmayaraq, ABŞ çox yaxın vaxtlara qədər geniş mənada düşməni, öz gücü ilə müqayisəolunmaz birini isə diz çökdürə bilən hegemon qüvvə kimi qəbul edilirdi. Amerika iddialarının doğruluğuna hər kəsi inandıran, ən yaxın vaxtlarda baş vermiş nümunələrdən biri, 3 yanvar 2026-cı ildə kiçik Venesuelanın prezidenti Maduronun tez bir zamanda devrilməsi və həmin ölkənin siyasi kursunun kəskin dəyişməsi idi.

Dünya iki ay sonra amerikalılar və onların İsrail müttəfiqləri tərəfindən İrana hücumuna məhz bu gözləntilərlə yanaşırdı. Lakin cəmi bir neçə gün ərzində müharibənin bəyan edilən məqsədlərinin mümkün olmadığı üzə çıxdı: İranın siyasi sistemi ali rəhbərliyinə vurulan ölümcül zərbəyə tab gətirdi, ölkədə daxili iğtişaşlar baş vermədi və silahlı qüvvələr hətta daimi hava hücumları altında belə fəaliyyət göstərmək qabiliyyətini qorudu. Əksər müşahidəçilər belə ümumi bir fikirlə razıdırlar ki, ABŞ-ın "ildırımsürətli qələbə" planının uğursuzluğunun əsas səbəbi İran xalqının və dövlətinin dözümlülüyü idi ki, bu da hücum edənlər tərəfindən açıq şəkildə nəzərə alınmamışdı. ABŞ və İsrailin yaratdığı böhranın davamının necə olacağını indi bilmirik, amma hətta onun müvəqqəti nəticələri də vacib qənaətlər üçün əsas hesab edilə bilər.

Hazırkı real vəziyyət belədir: nə savaş, nə sülh. Bu nə qədər sürəcək, bəlli deyil. Amma Yaxın Şərqin üstündən barıt qoxusu çəkilmir. Aktiv döyüşlər və hava zərbələri olmasa da, Hörmüz boğazında keçməyə cəhd edən gəmilər, hansı dövlətə mənsub olmasından asılı olaraq, gah ABŞ, gah da İran hərbçiləri tərəfindən atəşə məruz qalırlar.

Bu arada müharibədə ABŞ-la alyansda olan İsrail dövlətinin başçısı Netanyahu Prezident Donald Trampa tez-tez telefon açaraq Tehrana münasibətdə sərt mövqe tutmağa çağırır. Vaşinqton rəsmilərindən biri CNN-ə bildirib ki, ötən bazar günü keçirilən söhbət zamanı Tramp həftənin əvvəlində İrana yeni dəqiq zərbələr endirəcəyini bildirmişdi. Hətta əməliyyatın adı da "Gürz" olaraq dəyişdirilməli idi.

Lakin bizim də məlumat verdiyimiz kimi, bu söhbətdən bir gün sonra Tramp körfəzdəki müttəfiqlərinin - Qətər, Səudiyyə Ərəbistanı və BƏƏ-nin xahişi ilə çərşənbə axşamı planlaşdırılan hücumun dayandırıldığını elan etdi. Növbəti günlərdə onlar Ağ Ev və Pakistan vasitəçiləri ilə sıx əlaqədə işləyirdilər. Vəziyyətlə yaxından tanış olan ABŞ rəsmisinin sözlərinə görə, tərəflər diplomatik danışıqlar üçün çərçivə sazişi üzərində işləyirlər.

CNN bildirir ki, hazırkı danışıqlar Tehrana qarşı daha sərt yanaşma tələb edən İsrailin baş nazirini qəzəbləndirir. ABŞ rəsmisi bildirib ki, çərşənbə axşamı telefon danışığı zamanı Netanyahu Trampdan narazılığını ifadə edib və bildirib ki, zərbələrin təxirə salınması səhvdir və plan davam etməlidir. Bir saatlıq söhbətdə İsrailin baş naziri hərbi əməliyyatların bərpasında israr edib. İsrail rəsmisi açıqlamasında bildirib ki, uyğunsuzluq aydındır: "Tramp razılaşma ehtimalını sınamaq istəyir, Netanyahu isə fərqli bir şey gözləyir".

Başqa bir mənbənin CNN-ə verdiyi məlumata görə, çərşənbə axşamı baş tutan telefon danışığından sonra Netanyahuya yaxın rəsmilər də bərk narahat olublar. Mənbənin sözlərinə görə, İsrail hökumətinin yüksək dairəsində hərbi əməliyyatları bərpa etmək üçün güclü bir istək var. Məyusluq artır: İsrail hesab edir ki, Tramp İrana vaxtı uzatmağa icazə verir.

ABŞ-ın "təhdidlərdən sonra fasilə" xarakterli yanaşmasından Netanyahunun məyusluğu yeni bir şey deyil. Dövlət başçılarının söhbətlərilə tanış olan mənbələr ABŞ və İsrailin bu müharibədəki fərqli məqsədlərini etiraf edirlər.

Çərşənbə günü Tramp bir gün əvvəl baş nazirlə telefon söhbəti barədə suala cavabında bu məsələdə kimin əsas söz sahibi olduğunu açıq şəkildə bildirib: "O, mənim istədiyimi edəcək". Bu onu göstərir ki, Netanyahunun təzyiqlərinə baxmayaraq, Tramp diplomatik həll yolu axtarmağa davam edir.

Tehran mövqeyində dəyişiklik etmək istəməsə də, danışıqlar masasından çəkilmir. İranın Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi çərşənbə günü Tehran və Vaşinqtonun Pakistan vasitəsilə mesaj mübadiləsi aparmağa davam etdiyini bildirib: "İranın ilkin 14 bəndlik mətninə əsasən, artıq bir neçə dəfə mesaj mübadiləsi aparılıb: biz Amerika tərəfinin mövqeyini almışıq və hazırda onu öyrənirik".

Lakin hər iki tərəfin fikir ayrılıqları davam edir və ortaq bir məxrəcə nə vaxt gələcəkləri və ya gəlməyi bacarıb-bacarmayacaqları bəlli deyil. Regional mənbə bildirib ki, İran əsas tələblərindən əl çəkməyib və nüvə proqramı və dondurulmuş aktivləri ilə bağlı məsələlər hələ də həll olunmayıb.

Məsələ göründüyü qədər də sadə deyil. Bunu Tramp da yaxşı başa düşür və ona görə də sülh danışıqlarına üstünlük verir. Lakin savaş da istisna deyil. Belə ki, birbaşa İranın ali liderinə tabe olan İİKK bəyan edib ki, "İrana yenidən təcavüz" olsa, "təsəvvür edə bilməyəcəyiniz yerlərdə" zərbələr endirəcəyik. İİKK də bu bəyanatla həll yolu tapmaq üçün diplomatik səylərə təkan verir.

Ümumiyyətlə, İİKK-nın təhdidləri İranın və ya onun müttəfiq qruplarının Yaxın Şərqdən çox kənarda, Qərb maraqlarına zərbə vura biləcəyi ilə bağlı Vaşinqtonun artan narahatlıqlarını təsdiqləyir. Ötən həftə ABŞ İranın dəstəklədiyi "Xətaib Hizbullah" təşkilatının İraq və Suriyadakı yüksək vəzifəli komandiri olduğu iddia edilən şəxsə qarşı cinayət işi açıb. O, müharibənin başlanğıcından bəri ABŞ, Avropa və Kanadada terror hücumlarının planlaşdırılmasına kömək etməkdə ittiham olunur.

Digər tərəfdən, Hörmüz boğazında vəziyyət daha da gərginləşir. Əməliyyat məsələlərini müzakirə edən, adının açıqlanmasını istəməyən ABŞ rəsmisinin sözlərinə görə, bazar ertəsi günü ABŞ qüvvələri Hind okeanında İranın boş bir neft tankerini ələ keçiriblər. Pentaqon şərh verməkdən imtina edib.

Bu vacib gəmiçilik marşrutuna nəzarət uğrunda qarşıdurma, vasitəçilərin son bir aydır saxlamağa çalışdığı atəşkəsi pozmaq təhlükəsi yaradır.

Vaşinqton və Tehranın təhdid mübadiləsinə davam etməsinə baxmayaraq, son günlərdə Tramp və vitse-prezident J.D.Vens "razılaşma" perspektivindən danışırlar. Vens çərşənbə axşamı Ağ Evdə keçirilən brifinqdə danışıqlarda "böyük irəliləyiş" əldə edildiyini bildirib və əlavə edib ki, Vaşinqton "iranlıların razılaşmaya sadiq olduğuna" inanır. Lakin Tehranın son təklifi Vaşinqtonun əvvəllər rədd etdiyi tələbləri, xüsusən də hərbi ziyana görə kompensasiyanı və Tehranın uranı zənginləşdirmək hüququnun təmin edilməsini özündə ehtiva edir.

Vens bildirib ki, "B planı da var və bu, hərbi kampaniyanı bərpa etməkdir. Amma prezidentin istədiyi və inanıram ki, iranlıların istədiyi də bu deyil".

Ağ Evin sahibinin son günlər müharibə ritorikasının bir qədər səngiməsinin başqa bir səbəbi də var. Belə ki, çərşənbə axşamı, mayın 19-da ABŞ Senatı prezident Donald Trampın İrana qarşı bütün hərbi əməliyyatları dayandırmasını və ya güc tətbiq etmək üçün rəsmi Konqresdən icazəsi almasını tələb edən qətnamənin nəzərdən keçirilməsinə çağırıb. CNN xəbər verir ki, sənəd qəbul edilərsə, Trampın İranda gələcəkdə hər hansı hərbi əməliyyat üçün Konqresin təsdiqini alması tələb olunacaq. Qətnamənin irəli sürülməsi üçün əvvəlki 7 cəhd uğursuz olub.

Qətnamənin Konqresin yuxarı palatasında da irəli sürülməsinin səsvermə proseduru zamanı 50 senator bunu dəstəkləyib, 47-si isə əleyhinə səs verib. CNN-in məlumatına görə, üç respublikaçı senator seçki kampaniyaları səbəbindən səsvermədə iştirak etməyib və bu da qətnamənin Senatın tam tərkibi tərəfindən təsdiqlənməsinə ehtimalı azaldır.

"Reuters" agentliyi prosedur səsverməsinin təşəbbüskarı, demokrat senator Tim Keynin çıxışından sitat gətirərək yazır: "ABŞ və İran arasında aprelin əvvəlindən qüvvədə olan atəşkəs Trampa öz mövqeyini Konqresə təqdim etmək imkanı verir. Bu, yenidən müharibəyə başlamazdan əvvəl müzakirə üçün mükəmməl vaxtdır. Prezident sülh və diplomatik təkliflər alır, lakin onları bizimlə bölüşmədən zibil qutusuna atır".

ABŞ-da qüvvədə olan 1973-cü il "Müharibə Səlahiyyətləri Qanunu"na əsasən, ABŞ prezidenti Konqresin təsdiqi olmadan yalnız 60 gün ərzində hərbi əməliyyatlar apara bilər. Bu müddətdən sonra prezident ya müharibəyə son qoymalı, ya da Konqresdən hərbi güc tətbiq etmək üçün rəsmi icazə istəməlidir.

60 günlük müddət mayın 1-də bitib. Donald Tramp da Konqresə İranla "müharibənin başa çatması" barədə məlumat verib. Amma müharibə hələ bitməyib, ortada sadəcə kövrək bir atəşkəs var. Sülhə olan ümidlər isə, hələ də əvvəldə qeyd etdiyimiz kimi, gah bu, gah digər tərəfdən Hörmüzdə atəşə tutulur.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***


## "Azərkəndtikinti" ASC səhmdarlarının nəzərinə!

Bakı şəhəri, Binəqədi rayonu, Səttar Bəhlulzadə küçəsi 44 nömrəli binanın 2-ci mərtəbəsində "Azərkəndtikinti" ASC səhmdarlarının 23 may 2026-cı il saat 11.00-da keçirilməli olan növbəti ümumi yığıncağı təxirə salınaraq 11 iyul 2026-cı il saat 11.00-da keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Ümumi yığıncağın gündəliyinin təsdiq olunması.
**2.** "Azərkəndtikinti" ASC-nin fəaliyyətinin bərpa edilməsi.
**3.** "Azərkəndtikinti" ASC-nin nizamnaməsinə (yeni redaksiyada) əlavə və dəyişikliklər edilməsi, həmin dəyişikliklərin təsdiq olunması və dövlət qeydiyyatına alınması.
**4.** Cəmiyyətin icra orqanının formalaşdırılması.
**5.** Cəmiyyətin müşahidə şurası və onun tərkibinin seçilməsi.
**6.** Cəmiyyətin təftiş komissiyası və onun tərkibinin seçilməsi.
**7.** Əlavə səhmlər buraxmaq yolu ilə cəmiyyətin nizamnamə kapitalının artırılması.
**8.** Azərbaycan Respublikası Mülki Məcəlləsi ilə nəzərdə tutulmuş digər məsələlərə baxılması.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətlərini təsdiq edən sənədlə iştirakı vacibdir. Əks halda, səhmdarın şəxsiyyəti müəyyən olunmadığı üçün iclasda iştirakı qeydə alınmayacaqdır.

İclasın keçiriləcəyi ünvan: Bakı şəhəri, S.Bəhlulzadə küçəsi 44. "Azərkəndtikinti" ASC-nin inzibati binası.

**Əlaqə telefonu:** *(+994 12) 561-10-79.*
**Email:** *info@azerkendtikinti.az*
**www.azerkendtikinti.az/webmail**



## Azərbaycan Universiteti

*fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul elan edir*

Sənəd qəbulu prosesi elektron qaydada portal.edu.az vasitəsilə həyata keçirilir və 9 iyun 2026-cı il saat 18.00-da yekunlaşacaqdır.

Qəbul dövlət sifarişli və ödənişli əsaslarla aparılır. Aşağıda qeyd olunan təhsil haqları ödənişli əsaslarla qəbul olan Azərbaycan vətəndaşları üçündür. Əcnəbi vətəndaşlar üçün təhsil haqqı 3000 manatdır.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul planı
Diferensial tənliklər, 1 yer, qiyabi, 2000 manat.
İqtisadi fəaliyyət növləri, 1 yer, əyani, 2000 manat.
Ümumi iqtisadiyyat, 1 yer, əyani, 2000 manat.
Müəssisələrin təşkili və idarə olunması, 1 yer, əyani, 2000 manat.
Sahə iqtisadiyyatı, 1 yer, əyani, 2000 manat.
Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik, 1 yer qiyabi, 2000 manat.
Azərbaycan ədəbiyyatı, 1 yer, qiyabi, 2000 manat.
Dünya ədəbiyyatı (ingilis, alman və fransız), 1 yer, qiyabi, 2000 manat.
Sosial problemlər, 1 yer qiyabi, 2000 manat.
Sosial iş, 1 yer, qiyabi, 2000 manat.
Daha ətraflı məlumat üçün Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinə müraciət edilməlidir.

**Telefonlar:** *(+99412) 431-41-12/13/16 (daxili 126), 050-268-38-00.*



## "Bakı Beynəlxalq Dəniz Limanı" Məhdud Məsuliyyətli Cəmiyyəti

*"Təsərrüfat malları"nın satın alınması üçün AZCON-un idarəetməsinə verilmiş dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər tərəfindən məhsulların (mal, iş və xidmətlərin) vahid satın alınması qaydalarına əsasən*

*Kotirovka Sorğusu Elan Edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Təkliflərin təqdim edilməsi üçün son tarix 9 iyun 2026-cı il saat 18.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan təkliflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** *+(994 12) 599-00-03 (daxili 1812).*
**Ünvan:** *AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.*



## Azərbaycan Dövlət Aqrar Universiteti

Azərbaycan Respublikası Təhsil Nazirliyi kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın 1-ci bəndinin 1.3 yarımbəndinə əsasən "Baytarlıq təbabəti" fakültəsinin dekanı vəzifəsini tutmaq üçün müsabiqə elan edir.

Mövcud qaydalara uyğun müsabiqədə iştirak etmək üçün sənədlər elan dərc olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**Ünvan:** Gəncə şəhəri, Atatürk prospekti 450, telefonlar: (022) 266-00-56, 266-89-57.

***REKTORLUQ***
***Rektor Zəfər Qurbanov***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 90 (31059) 22 may 2026-cı il, cümə

## İDMAN

### Mədinə Sadıqova Avropa karate finalında



**Almaniyanın Frankfurt şəhərində keçirilən karate üzrə böyüklər arasında Avropa çempionatında Azərbaycan idmançısı Mədinə Sadıqova uğurlu çıxışı ilə finala yüksəlib.**

Azərbaycan Karate Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, 55 kiloqram çəki dərəcəsində mübarizə aparan xanım karateçimiz yarımfinal görüşündə İtaliya təmsilçisi Viola Lalloya 8:4 hesabı ilə qalib gələrək həlledici mərhələyə vəsiqə qazanıb.

Beləliklə, Mədinə Sadıqova Avropa çempionatının qızıl medalı uğrunda mübarizə aparacaq.

### Misli Premyer Liqasında son tur



**Dünən futbol üzrə Azərbaycan Premyer Liqasında 2025/2026-cı illər mövsümünün sonuncu – XXXIII turu start götürüb.**

İlk oyun günündə bir qarşılaşma keçiriləcək. Turun açılış matçında "Qəbələ" öz meydanında "Şamaxı" ilə qarşılaşıb. Görüş 3:1 hesabı ilə başa çatıb. Beləliklə, Şamaxı təmsilçisi mövsümü 38 xalla turnir cədvəlində 8-ci, Qəbələnin eyniadlı klubu isə 27 xalla 11-ci pillədə başa vurub.

Qəbələlilər Premyer Liqadakı yerini qorumaq üçün I Liqada 2-ci yeri tutacaq ("Səbail" və ya "Mingəçevir") komanda ilə pley-off oyunu keçirəcək.

Qeyd edək ki, XXXIII tura mayın 24-də yekun vurulacaq.

### Avropa çempionatında 2 qızıl medal




**Azərbaycanın sərbəst güləş üzrə U-15 millisinin iki üzvü Bolqarıstanın Samokov şəhərində keçirilən Avropa çempionatında qızıl medal qazanıb.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, 38 kiloqram çəki dərəcəsində çıxış edən Hüseyn Əmrahlı finalda estoniyalı Daniel Samuelə tam üstünlüklə (9:0) qalib gələrək Avropa çempionu olub.

Paşa Aslan (44 kq) isə finalda ermənistanlı Paşa Xudoyanı 4:1 hesabı ilə üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Ülviyyə Musayeva (33 kq) polşalı İnes Şimçakla ukraynalı Viktoriya Pervaçukun kürəyini yerə sıxaraq "tuş"la qələbə qazanıb. Həmyerlimiz bu gün finalda türkiyəli Yağmur Minazla güləşəcək.

Qeyd edək ki, qitə birinciliyinə mayın 24-də yekun vurulacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ Atayev Kamran Soltan oğluna məxsus "HYUNDAİ TUCSON" markalı avtomobilin 77 HD 743 dövlət qeydiyyat nişanı (nömrə nişanı) itdiyi üçün etibarsız sayılır.*

*Nənələrin öyüd yolu*

# Vəfalı və cəfalı Gülgəz Pəri

**Gülgəz Pərinin əri mənim qohumumdur. Onların ailə qurduğu gün yaxşı yadımdadır. Gülgəz Pərini də onlar ailə qurandan sonra tanımışam. Elə gəncliyində də indiki kimi, saflıdı, duruydu. Xoşrəftar, ünsiyyətcil, üzügülər bir gəlin idi. Yorulmaq bilmədən ailə-ocağın qəhrini çəkirdi. Yaxşını-pisi, düzü-əyrini qiymətləndirməyi bacarırdı. Hər işdə çox diqqətli və səliqəli olmağa çalışırdı. Qohumum da az yaşında çox bərkdən-boşdan çıxmış, çətin günlər görmüşdü.**

O gündən bu günə onları ömrün baharını da, qışını da qoşa qarşılayan görmüşəm. Hər ikisinin mehriban xasiyyəti ilk günlərdən diqqətimi çəkib. Biz Bakıdan kəndə gedəndə qohumumun özü, yanında da Gülgəz Pərisi xuraman yerişlə gəlib bizimlə görüşərdi. Hər dəfə görüşəndə üzlərini gülümsəyən görürdüm. Xəsislik, paxıllıq, nankorluq onların təbiətinə yaddır. Kəndlikləri duz-çörəyin qədrini bilirlər. Qohumum bütün həyatı boyu nikbin, alnıaçıq, üzüağ adam olub. Nə yazıqlar ki, indi amansız xəstəlik uzun illərdən bəri ona əziyyət verir.

Onun sağlıq durumunun ağırlaşması nəticəsində ailədə yaranan narahatlıq bu gün daha da böyüyüb. Həkimlərin ailəyə verdiyi məlumata görə, xəstənin vəziyyəti kritikdir. Hətta intensiv müalicənin də xeyri yoxdur. Gülgəz Pəri bunu bilsə də, uca könüldən ərinə sevgi və nəvazişlə qulluq edir. Onun sağlamlığına qovuşacağına hələ də ümid bəsləyir. Ümid işığını qəlbində illər uzunu qoruyub saxlayır. Ərinin başının üstündə pərvanə kimi dolanır. Özünü inandırmağa çalışır ki, Allah iynənin ucu boyda bir çıxış yolu göstərər, əri sağlamlığına qovuşar. Gün ərzində o qədər yorğun olur ki... Hətta qarşısındakı adamla danışanda, bəzən yuxusuzluqdan göz qapaqları örtülür.

Yorğun anlarında ərinin ona Gülgəz Pərim deyə şirin xitab etdiyini xatırlayır. Gənclik ətirli həzin xatirələrini qəlbinin dərinliklərində yaşadır. Özünün gənclik məhəbbətinə könül bağlayıb. Qohumum da etibarlı və sədaqətli ər və el-obasının, nəslinin təəssübünü çəkən insan kimi tanınıb.

Hər ikisi könülləri istədikcə gənclik illərində arzularına qovuşub. İki oğulları oldu. Oğulları da valideynlərinə oxşayıb. Ləyaqətli övladlardır. Halal işləri və əməlləri ilə ata-ananın başını uca ediblər.

Uzun illərdən bəri kənddə, təbiətin səfalı qoynunda yaşayırdılar. Qohumum sovxozda sürücü, Gülgəz Pəri isə məktəbdə texniki işdə işləyirdi. Uşaqları da məktəbdə dərslərini yaxşı oxuyurdu. Güzəranları, dolanışıqları pis deyildi. Kənddə sovxoz ləğv olunduqdan sonra məktəb də əvvəlki fəaliyyətindən qaldı. Onlar da işini itirdi. İşləmək üçün ailəlikcə şəhərə köçdülər. Uşaqlar ali təhsil aldılar. Hərəsi bir işin qulpundan yapışıb, işlədilər, çalışdılar. Özlərinə ev-eşik qurdular. Bir damın altında, darısqal mənzildə iki gəlin, qayınana ilə birgə neçə illər yaşadılar. O qədər mehriban dolanırdılar ki, ailədə bir dəfə də olsa, gəlin-qayınana narazılığı yaranmadı.



Bakıya köçdükdən sonra qohumumun gördükləri bunlar oldu. Bir müddət oğlanlarının yanında işlədi. Sonra ona alzheymer xəstəliyi üzüb əldən saldı. Yenicə çətin şəraitdən, darısqal mənzildən genişliyə çıxmışdılar.

İllər keçdikcə, ötən bəxtəvər günləri yenidən yaşamaq üçün bayramdan-bayrama doğma yurd yerlərinə, kənddəki evlərinə dönürdülər. O günləri geriyə qaytarmaq mümkün olsaydı, nə vardı ki? Alzheymer xəstəliyi beyinin funksional sahələrini zamanla sıradan çıxarmışdı. İlk mərhələdə yüngül unutqanlıqla başlayan proses son mərhələdə tam asılılıq və şəxsiyyət dəyişikliyinə səbəb olmuşdu. Spesifik və daimi koqnitiv geriləmə müşahidə olunurdu.

Sağlıqlarına qismət, indi geniş, işıqlı evləri var. Övladları öz halal qazancları ilə gözəl şərait qurublar. Ümid çırağının işığında mehriban yaşayırlar. Getdikcə ailənin gün-güzəranı daha da yaxşılaşır. Amma nə yazıqlar ki, kəmfürsət xəstəlik qohumumun başı üzərini aldıqdan sonra bu gözəl şəraiti nə görür, nə də hiss edir. Yataq xəstəsidir. Sadəcə nəfəsi gedib-gəlir və gözləri baxır. Ona qulluq etməkdə, səbirlə dözüm göstərməkdə hər ömür-gün yoldaşı vəfalı və cəfalı Gülgəz Pəriyə çata bilməz.

Gülgəz Pərinin qəlbində saf suların gözgü tutan təmizliyi var. Ürəyini üzünün ifadəsindən oxumaq olur. Deyir ki, bir qəlb qırmamışam. Bir könül sındırmamışam. Heç kimdən də incikliyim yoxdur. Həmişə insanların qəlbinə dəyməkdən qorxmuşam. Amma ağlımıza gəlməyən başımıza gəldi.

O, harda olsa, orda isti insan nəfəsi var. Fikri, xəyalı gecə-gündüz ərinin başı üstündə olur. Xəstə ərinə baş çəkməyə gələnlərə də bacardıqca yaxşı süfrə açmağa çalışır. Həmişə, hər yerdə insanları mehriban görmək istəyir. Deyir ki, davalı yerdə darı bitməz. İstiqanlılıqda Günəş kimi, kövrəklikdə uşaq kimidir. Kövrələndə şirin pıçıltı ilə danışır. Əlbəttə, qohumluq-qonşuluq, dostluq münasibətində diqqətəlayiq məsələlərdən ən başlıcası xəstəyə baş çəkməkdir. Xəstəni ziyarət etmək, ürək-dirək verməkdə bir təsəllidir.

Gülgəz Pəri bizim qəfil gəlişimizdən çox kövrəlmişdi. Üzündəki kədər dümağ qar kimi əriyirdi. Danışdıqca sözünə-söhbətinə hərarət qonurdu:

Vallah, gəlişiniz, ürək-dirək verməyiniz bizim üçün sanki dirilik suyudur. O qədər uzaq yolu qət edərək bizə, xəstəyə baş çəkməyə gəlibsiniz, - deyə, gah kövrəlir, gah sevinirdi.

Gəlişimiz münasibətilə geniş süfrə açdı. Nə qədər çalışsaq da, onu fikrindən daşındıra bilmədik. Gəlinləri ilə birlikdə bişirdikləri ləziz təamlardan süfrəyə düzdü. Bu, onların qonaqpərvərliyinin parlaq nümunəsidir. Ailəlikcə ədəb-ərkana, adət-ənənəyə hörmətlə yanaşırlar. Onların həyatının, yaşayışının təməli belə qurulub.

Neyləməli, bu da bir həyatdı, bu da bir gündü. Gülgəz Pəri ərinin yatdığı çarpayının yanında dayanıb. Oğrun-oğrun ona baxır. Dediklərini eşitməsə də, üzünü ona tutub danışır. Özünə təsəlli verib deyir:

Bu günümdə piltəsi yana-yana öləziyən bir çırağam. Son nəfəsinədək qəhrinə dözə-dözə yaşayacağım. Elə bilmə ki, başının üstündəki bir kölgədir, çəkilib gedir. Ya da əzrayıldi, görə bilmirsən. Sən mənim yolumda bir can bağışladın. İndi də gözlərin mənə baxır, amma məni görmürsən. Dilin, dodağın söz tutmur, danışa bilmirsən. Övladlarım, nəvələrim dörd bir yanımı kəsdirsə də, sənin bu halında özümü tənha sayıram...

**P.S.** *Yeni ailə quran gənc qızlarımız qoy Gülgəz Pərinin timsalında həyatın acılı-şirinli yollarında buraxdığı izlərdən ibrət götürsünlər. Adi bir çətinliklərə dözməyib qurduqları ailənin damını başlarına uçurmasınlar.*

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

## "Xətai Təchizat" ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*manatla*

| Aktivlər | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| Uzunmüddətli aktivlər | | | |
| Əsas vəsaitlər | 4 | 32 994,84 | 31 849,00 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **32 994,84** | **31 849,00** |
| Qısamüddətli aktivlər | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 5 | 4 438,28 | 12 271,56 |
| Ticarət və digər debitor borcları | 6 | 101 849,75 | 125 658,96 |
| **Cəmi qısamüddətli aktivlər** | | **106 288,03** | **137 930,52** |
| **Cəmi aktivlər** | | **139 282,87** | **169 779,52** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 1 | 62 322,00 | 62 322,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 9 | (17 078,04) | 950,56 |
| Əvvəlki dövrlər üzrə bölüşdürülməmiş mənfəət | 11 | 33 645,90 | 32 695,34 |
| **Cəmi kapital** | | **78 889,86** | **95 967,90** |
| **Öhdəliklər** | | | |
| Qısamüddətli öhdəliklər | | | |
| Ticarət və digər kreditor borcları | 12 | 2 498,28 | 2 498,28 |
| Digər öhdəliklər | 13 | 57 894,73 | 71 313,34 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **60 393,01** | **73 811,62** |
| **Cəmi öhdəliklər** | | **60 393,01** | **73 811,62** |
| **Cəmi kapital və öhdəliklər** | | **139 282,87** | **169 779,52** |

### Mənfəət və ya zərər haqqında hesabat

| | | | |
|---|---|---|---|
| Satışdan gəlirlər | 7 | 285 734,29 | 266 432,63 |
| Əməliyyat və digər inzibati xərclər | 8 | (302 812,33) | (265 244,43) |
| **Əməliyyat mənfəəti** | | **(17 078,04)** | **1 188,20** |
| **Vergidən əvvəl mənfəət (zərər)** | 9 | **(17 078,04)** | **1 188,20** |
| Mənfəət vergisi | 10 | 0,00 | (237,64) |
| **Cəmi il üzrə mənfəət (zərər)** | | **(17 078,04)** | **950,56** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | | |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Vergidən əvvəl mənfəət (zərər) | 9 | (17 078,04) | 950,56 |
| **Vergidən əvvəl zərəri xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər** | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 8 | 0,00 | 1 676,00 |
| **Dövriyyə vəsaitlərində dəyişikliklər** | | **(17 078,04)** | **2 626,56** |
| Ticarət və digər kreditor borclarının artması (azalması) | 12 | 0,00 | (13 136,72) |
| Ticarət və digər debitor borclarının azalması (artması) | 6 | 23 809,21 | (62 226,91) |
| Digər öhdəliklər artması (azalması) | 13 | (13 418,61) | 71 313,34 |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(6 687,44)** | **(1 423,73)** |
| Ödənilmiş mənfəət vergisi | 10 | 0,00 | (237,64) |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(6 687,44)** | **(1 661,37)** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Əsas vəsaitlərin alışı | 4 | (1 145,84) | 0,00 |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitlərinin hərəkəti** | | **(1 145,84)** | **0,00** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | | |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | | **0,00** | **0,00** |
| **İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 5 | **12 271,56** | **13 695,29** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım (azalma)** | | **(7 833,28)** | **(1 423,73)** |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 5 | **4 438,28** | **12 271,56** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| | Qeydlər | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixinə** | | **62 322,00** | **32 695,34** | **95 017,34** |
| Hesabat ili üzrə cəmi mənfəət (zərər) | 9 | **0,00** | 950,56 | **950,56** |
| Dividend ödənişi | | **0,00** | 0,00 | **0,00** |
| Mənfəətin istifadəsi | | **0,00** | 0,00 | **0,00** |
| **31 dekabr 2024-cü il tarixinə** | | **62 322,00** | **33 645,90** | **95 967,90** |
| **01 yanvar 2025-ci il tarixinə** | | **62 322,00** | **33 645,90** | **95 967,90** |
| Hesabat ili üzrə cəmi mənfəət (zərər) | 9 | **0,00** | (17 078,04) | **(17 078,04)** |
| Dividend ödənişi | | **0,00** | 0,00 | **0,00** |
| Mənfəətin istifadəsi | | **0,00** | 0,00 | **0,00** |
| **31 dekabr 2025-ci il tarixinə** | | **62 322,00** | **16 567,86** | **78 889,86** |

## HAVA

# Yenə yağmurlu cümə...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı, mayın 21-dən 22-nə keçən gecə intensivləşəcəyi, axşama doğru dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 15-17, gündüz 20-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, qısa müddətə güclənəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 14-17, gündüz 19-24, dağlarda gecə 3-8, gündüz 12-17, bəzi yerlərdə 20-22 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3214
SİFARİŞ 659
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00